RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 11 (9178) 18 YANVAR 2023-cü il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

◆ Azərbaycan Prezidenti İlham Əliyevin İsveçrəyə səfəri

## "Damen Shipyards Group" şirkətinin icraçı direktoru və səhmdarı ilə görüş



Yanvarın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dünya İqtisadi Forumunun illik toplantısında iştirak etmək üçün İsveçrə Konfederasiyasına səfəri başlayıb.

→ 2

## Prezident İlham Əliyevin Davosda "CISCO" şirkətinin qlobal innovasiyalar üzrə vitse-prezidenti ilə görüşü olub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanvarın 17-də Davosda "CISCO" şirkətinin qlobal innovasiyalar üzrə vitse-prezidenti Qay Didrix ilə görüşü olub.

→ 2

## Prezident İlham Əliyev Davosda "Fortescue Future Industries" şirkətinin sədri ilə görüşüb



Yanvarın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Davosda "Fortescue Future Industries" şirkətinin sədri Endrü Forest ilə görüşü olub.

→ 2




## İlham Əliyevin qlobal liderliyinin daha bir nümunəsi

### Ərəb dünyası Azərbaycan Prezidentini ən etibarlı tərəfdaş və sadiq dost kimi qəbul edir

Azərbaycanın uğurlu xarici siyasətinin nəticəsi olaraq ölkəmizin müsəlman dünyası, o cümlədən ərəb dövlətləri ilə əlaqələri son dövrlərdə daha da inkişaf edib, münasibətlərin dinamikası yeni mərhələyə qədəm qoyub. Xüsusilə qeyd edilməlidir ki, ərəb dünyası Azərbaycanın inkişafını, eləcə də beynəlxalq münasibətlər sistemindəki rolunu və nüfuzunu yüksək qiymətləndirir. Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinin dəvəti ilə Prezident İlham Əliyevin yanvarın 16-da Əbu-Dabi Dayanıqlılıq Həftəsinin rəsmi açılış mərasimində iştirakı da bu ölkənin timsalında ərəb dünyasının ölkəmizə və onun rəhbərinə olan yüksək ehtiramının göstəricisidir.

#### Münasibətlərin inkişafını şərtləndirən amillər

Ortaq mədəni-mənəvi dəyərlər, tarixən mövcud olmuş əlaqələr müasir dövrdə Azərbaycanla ərəb dünyası arasında münasibətlərin daha da inkişafını şərtləndirən amillərdir. Bu gün ölkəmizin Səudiyyə Ərəbistanı, İraq, Qətər, İordaniya, Misir və digər ərəb dövlətləri arasında geniş siyasi münasibətləri, müxtəlif sahələrdə yüksək qarşılıqlı əməkdaşlıq əlaqələri var. Təsadüfi deyil ki, bu dövlətlər Azərbaycanı beynəlxalq məsələlərdə daim dəstəkləyiblər.

→ 4



## QABAQLAYICI ADDIMLAR

### Yaxud gələcəyi görmək, hadisələri önləmək və bütün variantlara hazır olmaq məharəti

Müzəffər Ali Baş Komandan İlham Əliyev bəyan edib ki, Zəngəzur dəhlizi açılacaq: ermənilər istəsələr də, istəməsələr də!

Artıq Ermənistanda hamı bilir ki, bu belə də olacaqdır!

Sadəcə, İlham Əliyev dəmir yolunun çəkilməsi və yol infrastrukturunun qurulub qurtarmasını gözləyir!

Azərbaycan Üçüncü Qarabağ müharibəsinin baş verməsini istəmir!

Lakin yenə də hərbiyə ən çox vəsait ayırır!

Orduda islahatlar, silahlanma davam edir!

Komando qüvvələrinin, xüsusi təyinatlıların yeni dəstələri yetişdirilir.

Müdafiə sənayemiz yeni növ silahların istehsalını, hətta xarici ölkələrə satışını qaydaya salır.

Sistemli və davamlı şəkildə hərbi təlimlər keçirilir, orduda döyüş qabiliyyəti və qələbə ruhu yüksək səviyyədə saxlanılır.

Qərbi Azərbaycan İcması əzəli torpaqlarına qayıtmağa hazırlaşır, bu istiqamətdə fəaliyyətlərini gücləndirir və sürətləndirir!

Qarabağda da bərpa və quruculuq işləri bir an belə dayanmır. Böyük qayıdışa ciddi və sürətli hazırlıq aparılır!

Türkiyə ilə qardaşlıq və strateji müttəfiqlik əlaqələri uğurla davam edir!

→ 3

## Heydər ƏLİYEV:

"XX əsr tarixində totalitarizmin törətdiyi ən qanlı terror aktlarından biri olan 20 Yanvar faciəsində Azərbaycan xalqına qarşı işlədilmiş cinayət, əslində, bəşəriyyətə, humanizmə, insanlığa qarşı həyata keçirilmiş dəhşətli bir əməldir"



→ 5

## 20 Yanvar faciəsinə gedən yol

1989-cu ilin sonu, 1990-cı ilin yanvarında Azərbaycanda ictimai-siyasi vəziyyət xeyli kəskinləşdi, qarşıdurma dərinləşdi, mövcud iqtidarın hadisələrə nəzarəti son dərəcə zəiflədi. SSRİ rəhbərliyi isə Azərbaycanı növbəti dəfə cəzalandırmaq üçün Sumqayıt ssenarisinə uyğun təxribatlara start verdi. Milli-azadlıq hərəkatının mərkəzi olan Bakıda ilk olaraq yerli milis tərk-silah edildi, əvəzində daxili qoşun hissələri şəhərə gətirildi. Yanvarın 13-də Bakıda bir erməninin iki azərbaycanlını öldürməsi fitnəkarlıqlar üçün əsas oldu və iki gün ərzində Bakıda süni şəkildə erməni talanı təşkil edildi. Mərkəz tərəfindən düşünülmüş və taktiki baxımdan hərtərəfli hazırlanmış bu məkrli plan hazır ssenari üzrə aparıldı. Elə bu səbəbdən də ayrı-ayrı dəstələrin əməllərinin qarşısını almaq üçün ali hakimiyyət və hüquq-mühafizə orqanları tərəfindən heç bir tədbir görülmədi. Halbuki Bakıda SSRİ Daxili İşlər Nazirliyinin 12 min nəfərlik silahlı qüvvəsi var idi.

→ 6

## Azərbaycanda "yaşıl enerji"nin əldə edilməsi üçün geniş imkanlar var



→ 7

## Elmin inkişafına dövlət dəstəyinin əməli ifadəsi

Elm adamları dərindən başa düşürlər ki, Vətən müharibəsinin - Qarabağ savaşının təzə başa çatdığı, Böyük qayıdış hərəkatının çoxsaylı vəzifələrinin sürətlə həyata keçirildiyi bir vaxtda elm və təhsil sahəsi işçilərinin əməkhaqlarının və təqaüdlərinin artırılması Prezident İlham Əliyevin yeni cəmiyyət quruculuğunda elm və təhsil adamlarının fəaliyyətlərinin qiymətləndirilməsi sahəsində atdığı çox mühüm düşünülmüş addım kimi yüksək əhəmiyyətə malik hadisədir.

Prezident sərəncamları elmi işçilərin sosial müdafiəsinin daha da yaxşılaşdırılması ilə bərabər, həm də geniş mənada ölkəmizdə elmi işçilərin, alimlərimizin, xüsusən Milli Elmlər Akademiyasının nüfuzunun daha da artırılmasına səbəb olacaqdır. Azərbaycan elmi ictimaiyyəti möhtərəm Prezidentin elmin, alimlərin, Milli Elmlər Akademiyasının inkişaf etdirilməsi istiqamətində imzaladığı sərəncamları, qəbul etdiyi qərarları, atdığı əməli addımları yüksək qiymətləndirirlər.

→ 8

## Aksiyadan əvvəl Ermənistana gedən 26 erməninin Xankəndiyə keçməsinə şərait yaradılıb

Rusiya sülhməramlılarına məxsus avtomobillər həmişəki kimi, bu gün də Laçın-Xankəndi yolunda dinc məqsədlə təşkil olunan aksiya ərazisindən sərbəst keçirlər.

AZƏRTAC xəbər verir ki, sülhməramlılara məxsus 3 təminat avtomobilinin Laçından Xankəndi istiqamətində hərəkətinə şərait yaradılıb. Həmin avtomobillərdə olan 20-si yeniyetmə, 26 erməni Xankəndiyə keçib. Onlar Laçın-Xankəndi yolunda təşkil olunan dinc aksiyadan əvvəl idman yarışında iştirak etmək üçün Ermənistana gedibmişlər.

Bu, bir daha onu göstərir ki, ərazidə hərəkətin sərbəstliyi mütəmadi təmin olunur. Aksiya heç də siyasi xarakter daşımır, humanitar məqsədlərə xidmət edir.

## Füzuli-Hadrut avtomobil yolunun tikintisi yekunlaşır



Füzuli-Hadrut avtomobil yolunda torpaq yatağının və yol əsasının inşası ilə yanaşı, yolboyu atmosfer sularının ötürülməsini təmin etmək üçün müxtəlif diametrlərə malik 15 suötürücü boru, 7 ehtiyat keçidi, həmçinin dərə sularının ötürülməsi üçün 1 dördbucaqlı su keçidinin tikintisi də sona çatıb.

→ 10

# Azərbaycan Prezidenti İlham Əliyevin İsveçrəyə səfəri

## "Damen Shipyards Group" şirkətinin icraçı direktoru və səhmdarı ilə görüş

*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, yanvarın 17-də Davosda dövlətimizin başçısı Niderlandın "Damen Shipyards Group" şirkətinin icraçı direktoru və səhmdarı Arnout Damen ilə görüşüb.

Söhbət zamanı dövlətimizin başçısının Arnout Damen ilə əvvəlki görüşü xatırlandı.

Arnout Damen Azərbaycanda layihələrin həyata keçirilməsinə başladıqlarını bildirdi və görülən işlərdən danışdı.

Prezident İlham Əliyev "Damen Shipyards Group" şirkətinin bu yaxınlarda Azərbaycanda layihələri artıq həyata keçirməyə başlamasından məmnunluğunu bildirdi.

Görüşdə Azərbaycanda bu şirkətin daha geniş həcmdə işlər görməsi üçün yaxşı imkanların olduğu vurğulandı.

Dövlətimizin başçısı Azərbaycanın önəmli tranzit ölkəyə çevrildiyini qeyd edərək respublikamızın ərazisindən keçən yüklərin həcminin 75 faiz artdığını vurğuladı. Prezident İlham Əliyev bildirdi ki, bütün bunlar nəzərə alınaraq, Azərbaycanda yeni tankerlərin, quru yük gəmilərinin və bərələrin sayının artırılmasına ehtiyac var. Bu sahədə də "Damen Shipyards Group" şirkəti ilə əməkdaşlıq üçün yaxşı potensial mövcuddur. Görüşdə həmçinin Azərbaycanın Hərbi Dəniz Qüvvələri üçün də müxtəlif gəmilərin istehsalının mümkünlüyü məsələləri müzakirə edildi.



## Prezident İlham Əliyevin Davosda"CISCO" şirkətinin qlobal innovasiyalar üzrə vitse-prezidenti ilə görüşü olub

*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə "CISCO" şirkəti arasında uzun illər uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi.

Qay Didrix Azərbaycanda bir məktəbdə rəqəmsallaşdırma layihəsini həyata keçirdiklərini dedi.

Söhbət zamanı bu layihənin ölkəmizdə yüzlərlə məktəbi əhatə etməsinin planlaşdırıldığı vurğulandı.

Prezident İlham Əliyev Zəngilan rayonunda "ağıllı şəhər" və "ağıllı kənd" layihələrinin uğurla icra olunduğunu qeyd etdi, bu işlərin işğaldan azad olunmuş digər ərazilərdə də həyata keçirilməsinin planlaşdırıldığını vurğuladı.

Dövlətimizin başçısı "CISCO" şirkəti tərəfindən hazırlanan "Azərbaycanın ağıllı şəhər strukturu barədə məruzə"yə görə minnətdarlığını bildirdi.

Söhbət zamanı Azərbaycanda su resurslarından istifadə olunmasında "CISCO" şirkətinin texnologiyalarının tətbiqi məsələlərindən danışıldı, təhsil və kibertəhlükəsizlik sahələrində əməkdaşlığın perspektivləri müzakirə edildi.



## Prezident İlham Əliyev Davosda "Fortescue Future Industries" şirkətinin sədri ilə görüşüb

*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanın Energetika Nazirliyi ilə "Fortescue Future Industries" şirkəti arasında ötən ay imzalanan memorandumda ölkəmizdə 12 min meqavat gücündə külək və günəş enerjisinin istehsalına dair layihənin icrasının nəzərdə tutulduğu bildirildi. Eyni zamanda, Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanmasının da önəmi vurğulandı. Azərbaycanda istehsal edilən "yaşıl enerji"nin bu layihə vasitəsilə gələcəkdə Avropa bazarına çatdırılmasının əhəmiyyəti qeyd olundu.

Söhbət zamanı Azərbaycanda hidrogen, o cümlədən yaşıl hidrogen istehsalına dair layihənin icrasında da əməkdaşlığın həyata keçirilməsinin əhəmiyyəti vurğulandı.



Bildirildi ki, Azərbaycanın beynəlxalq enerji şirkətləri ilə imzaladığı anlaşma memorandumları və sazişlər ölkəmizə 22 min meqavatadək külək və günəş enerjisini istehsal etmək imkanı yaradacaq. Həmin enerjinin 12 min meqavatlıq hissəsinin istehsalının SOCAR və "Fortescue Future Industries" şirkəti tərəfindən həyata keçirilməsi nəzərdə tutulur.

Söhbət zamanı Azərbaycanda əlverişli investisiya mühitinin olduğu vurğulandı.

Görüşdə ölkəmizin bərpaolunan zəngin enerji potensialına malik olduğu qeyd edildi, əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

## Azərbaycan və Rusiyanın XİN başçıları Laçın yolundakı vəziyyəti müzakirə ediblər

Yanvarın 17-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov arasında telefon danışığı olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, telefon danışığı zamanı Azərbaycan və Rusiya arasında mövcud ikitərəfli əməkdaşlıq gündəliyində duran aktual məsələlər, o cümlədən Laçın yolu ətrafında cari vəziyyət müzakirə mövzusu olub.




Nazir Ceyhun Bayramov Rusiya sülhməramlı kontingentinin yerləşdiyi Azərbaycan ərazilərində qeyri-qanuni iqtisadi fəaliyyət, o cümlədən təbii sərvətlərin istismarına və Laçın yolundan sui-istifadəyə qarşı etirazların Azərbaycan vətəndaşlarının legitim hüququ olduğunu vurğulayıb. Bu xüsusda, etirazçıların haqlı tələblərinin yerinə yetirilməsinin zəruri olduğunu diqqətə çatdırıb.

Nazir Ceyhun Bayramov guya Azərbaycan tərəfindən Laçın yolunun bağlanması, Azərbaycan ərazilərində yaşayan erməni sakinlərin blokadaya alınması, humanitar böhran vəziyyətinin yaranması barədə iddiaların əsassız olduğunu qeyd edib. Bu xüsusda, Laçın yolundan hər gün onlarla nəqliyyat vasitəsinin, sülhməramlı kontingentin avtomobillərinin, Beynəlxalq Qızıl Xaç Komitəsinin, erməni təcili tibbi yardım maşınlarının keçməsinin Ermənistan tərəfinin əsassız iddialarını təkzib etdiyi vurğulanıb.

Bununla yanaşı, özlərini Azərbaycan ərazilərində yaşayan erməni sakinlərin "nümayəndələri" kimi təqdim edən şəxslərin əhalini yoldan istifadəyə maneə törətdiyi və bununla süni şəkildə "blokada", "humanitar böhran" təəssüratı yaratmasının qəbuledilməz olduğu bildirilib.

Telefon danışığı zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## *İsrail XİN-in nümayəndəsi:*

## Azərbaycandakı yəhudi icması ölkələrimizi birləşdirən körpü rolunu oynayır

Yanvarın 17-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə İsrail Dövlətinin Xarici İşlər Nazirliyinin siyasi direktoru Aliza Bin Nunun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, İsrail nümayəndə heyəti Xarici İşlər Nazirliyinin Mərkəzi Aparatının yüksəkvəzifəli şəxsləri və İsrailin Avrasiya ölkələrindəki səfirlərindən ibarət olub.

Görüş zamanı tərəflər ikitərəfli və çoxtərəfli münasibətlərin müxtəlif aspektləri, o cümlədən Azərbaycanla İsrail arasında iqtisadi, təhlükəsizlik, təhsil, yüksək texnologiyalar və digər istiqamətlərdə əməkdaşlığın perspektivləri barədə ətraflı müzakirə aparıblar.

Ceyhun Bayramov ötən il 30 illiyinin qeyd olunduğu Azərbaycan-İsrail diplomatik münasibətlərinin və ikitərəfli əməkdaşlığın inkişaf səviyyəsindən məmnunluğunu ifadə edərək xalqlarımızın birgəyaşayış tarixinin yüz illəri əhatə etdiyini vurğulayıb.

Nazir İsraildə Azərbaycanın turizm bürosunun və ticarət nümayəndəliyinin fəaliyyətinin, bu yaxınlarda səfirliyinin təsis edilməsinin münasibətlərin daha da inkişafına əhəmiyyətli töhfə verəcəyini bildirib.

Görüş zamanı Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti, ölkəmizin ərazilərinin 30 ilə yaxın Ermənistan tərəfindən işğalı, həmçinin 44 günlük Vətən müharibəsindən sonra ölkəmizin Ermənistanla münasibətlərin qurulması və sülh prosesi istiqamətində atdığı addımlar və təşəbbüslər barədə qarşı tərəf məlumatlandırılıb. Bununla yanaşı, Ermənistan tərəfindən törədilən təxribatlar qeyd olunub.

Aliza Bin Nun Azərbaycana səfər etməkdən məmnunluğunu ifadə edərək, İsrailin Avrasiyadakı səfirlərinin görüşünün məhz Bakıda keçirilməsinin İsrailin ölkəmizlə münasibətlərə verdiyi önəmin göstəricisi olduğunu diqqətə çatdırıb. O, Azərbaycanda yaşayan yəhudi icmasının iki ölkəni birləşdirən körpü rolunu oynadığını bildirib. Aliza Bin Nun İsrail ilə Azərbaycan arasında ikitərəfli və çoxtərəfli formatlarda mövcud əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün səylərin daha da artırılmasında İsrail tərəfinin maraqlı olduğunu diqqətə çatdırıb.

Görüş çərçivəsində iki ölkə arasında yüksəksəviyyəli dialoq və səfərlərin həyata keçirilməsinin əhəmiyyəti vurğulanıb, həmçinin qarşılıqlı maraq doğuran beynəlxalq və regional məsələlər müzakirə edilib.

## Müdafiə Nazirliyinin rəhbər heyəti Quru Qoşunlarının hərbi hissələrində olub

Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev, Quru Qoşunların komandanı general-leytenant Ənvər Əfəndiyev və nazirliyin digər vəzifəli şəxsləri "N" saylı hərbi hissədə olublar.





Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hərbi xidmətə yeni çağırılan gənclərin ən çox toplandığı hərbi hissədə şəxsi heyətin qəbulu prosesi, onların ilkin təməl hazırlığı kursunda iştirakı və hərtərəfli təminatı yoxlanılıb.

General-polkovnik K.Vəliyev gənc əsgərlərin vətənpərvərlik ruhunda tərbiyəsi, qanun və hərbi nizamnamələrin tələblərinə ciddi riayət etməsi, həmçinin onların intensiv döyüş hazırlığının təşkili və keçirilməsi məsələlərinə xüsusi diqqət yetirilməsi ilə bağlı vəzifəli şəxslərə tapşırıqlar verib.

Sonra Müdafiə Nazirliyinin rəhbər heyəti Ermənistanla sərhəddə yerləşən komando və digər hərbi hissələrdə olub, şəxsi heyətin intensiv dağ hazırlığı məşğələsini izləyib.

Yüksək dağlıq və çətin relyefli ərazidə hazırlıq keçən komandolarla görüşən general-polkovnik K.Vəliyev hərbi qulluqçuların praktiki məşqlərində əsas diqqətin döyüşün aparılmasının üsul və taktikasına yönəldilməsini tapşırıb.

Gündüz və gecə vaxtı keçirilən məşqlərdə dağ şəraitində taktiki və atəş hazırlığı, dağ yolları, aşırım və yüksəkliklərdən keçmək bacarığı, həmçinin digər bölmələrlə uyarlıq məsələləri öyrənilir.

Qoşunların dağ hazırlığı tapşırıqlarında döyüş təcrübəsi nəzərə alınmaqla şəxsi heyətin dağlıq ərazilərdəki təbii maneələri dəf etmək vərdişlərinin təkmilləşdirilməsinə, ştat silahından, o cümlədən dronlardan səmərəli istifadə edilməsinə, həmçinin gündüz və gecə vaxtı istənilən hava şəraitində döyüşün aparılması bacarığına xüsusi diqqət yetirilir.

Baş Qərargah rəisi hərbi qulluqçuların peşəkar hazırlıq səviyyəsinin yüksəldilməsi, təlim və məşqlərin intensivliyi və keyfiyyətinin daha da artırılması ilə əlaqədar aidiyyəti vəzifəli şəxslərə müvafiq göstərişlər verib.

# QABAQLAYICI ADDIMLAR

## Yaxud gələcəyi görmək, hadisələri önləmək və bütün variantlara hazır olmaq məharəti



*Otuz ilədək müddətdə xahişçi, minnətçi və diliqısa olmuşuq!*

*Otuz ilədək müddətdə haqqımızı tələb edərək kimlərdənsə kömək gözləmişik.*

*Otuz ilədək müddətdə özümüzü inandırmağa çalışmışıq ki, dünyada ədalət var, beynəlxalq hüquq adlı bir anlayış var, beynəlxalq qurum və təşkilatlar həmin hüquqa və ədalətə arxalanaraq qəbul etdikləri qətnamələri, qərarları yerinə yetirməklə Ermənistanı işğal etdiyi Azərbaycan ərazilərindən çıxaracaqlar!*

**Amma erməniyə "gözün üstə qaşın var" deyən olmadı!**

**BMT nə özünə hörmət qoydu, nə də bu məsələ ilə bağlı qəbul etdiyi dörd qətnaməyə!**

**ATƏT-in Minsk qrupu boş danışıq, turist səfərləri, tut arağı və donuz kababından irəli getmədi!**

*Ermənistana nəinki sanksiya tətbiq olundu, heç yüngülvari təzyiq belə göstərilmədi!*

*Heç Ermənistanın işğal zamanındakı yaşayış məntəqələrini dağıtmalarını, meşələri, bağları qırmalarını, ekologiyanı korlamalarını, tarixi abidələrimizi, qəbiristanlıqlarımızı yerləyeksan etmələrini, məscidlərdə donuz, mal-qara saxlamalarını da "görən" olmadı!*

Necə deyərlər, özümüz dedik, özümüz də eşitdik!

**Amma təkcə danışmaqla, kimdənsə kömək ummaqla, torpağımızın nə zaman könüllü qaytarılacağını gözləməklə də kifayətlənmədik!**

**Aşkar-gizli digər varianta, hərbə də hazırlaşdıq!**

❖ ❖ ❖

**Ulu Öndər Heydər Əliyev xalqın arzu və tələbi ilə yenidən ölkə rəhbərliyinə qayıtdığı ilk gündən işğal altındakı torpaqların azad olunacağını, doğma torpaqlara qayıdacağımızı qətiyyətlə bəyan edirdi!**

Atdığı ilk addımlardan biri atəşkəs barədə razılaşma olsa da!

Amma həmin dövrdə atəşkəsə nail olunması zəruri idi:

- Yeni ərazilərin işğalının qarşısının alınması üçün;
- Ölkədə baş alıb gedən xaos və anarxiyaya son qoyulması üçün;
- Qeyri-qanuni silahlı dəstələrin ləğvi, əhalidəki külli miqdarda silah-sursatın yığılması üçün;
- Möhkəm və dönməz sabitlik yaradılması üçün;
- Dövlət çevrilişi cəhdlərinin qarşısının alınması üçün;
- İqtisadiyyatı dirçəltmək, sərbəst bazar iqtisadiyyatına keçidi şərtləndirən islahatların aparılması üçün;
- Xalqın itmiş inam və etibarının geri qaytarılması üçün və s.

*Ulu Öndərimiz bir an olsun belə işğal altındakı torpaqları, onların azad edilməsini unutmurdu!*

*Bunu 1994-cü ilin yanvarında keçirilən Horadiz əməliyyatı və bu zaman 22 yaşayış məntəqəsinin geri alınması da göstərirdi!*

Lakin nə etməli, düşmən güclü və arxalı, Azərbaycan isə tək və zəif idi!

❖ ❖ ❖

**Ömür vəfa etməsə də, Ulu Öndər Heydər Əliyev ölkəmizin ərazi bütövlüyünün bərpası üçün hər şey etdi, gələcəyə hesablanmış bir sıra zəruri addımlar da atdı:**

- "Əsrin müqaviləsi" neft kontraktını imzalayaraq ölkənin gələcək iqtisadi yüksəlişini təmin etdi;
- Zəruri hüquqi baza yaratmaqla islahatlar keçirdi, bazar iqtisadiyyatı münasibətlərinin bərpasına nail oldu!
- Ordu quruculuğuna, peşəkar zabit kadrlarının hazırlanmasına başladı;
- Azərbaycanın Avropa Şurasına qəbuluna nail oldu;
- Milli maraqlara əsaslanan daxili və xarici siyasətin təməlini qoydu.

**Ulu Öndər Heydər Əliyevin gələcəyə ünvanlanmış iki mühüm tarixi xidmətini ayrıca qeyd etmək istəyirik:**

*Birincisi,* Azərbaycanın sürətli və davamlı inkişafını, dünya birliyinə inteqrasiyasını, xalqın yüksək rifahını və xoşbəxt gələcəyini müəyyən edən Heydər Əliyev siyasi kursunu bərqərar etməsini;

*İkincisi,* yarımçıq qalan işləri başa çatdıracaq, xalqın arzu və istəklərini gerçəyə çevirəcək siyasi varisin hazırlanmasını!

**Bugünkü uğur və qələbələrimiz həm də bu iki möhtəşəm təməl üzərində qərar tutub!**

❖ ❖ ❖

Biz bu gün qalib xalq və qalib dövlətik!

Bizi bu qələbəyə, bu bəxtəvərliyə Müzəffər Ali Baş Komandan İlham Əliyev çatdırdı!

Biz bu gün güclüyük, söz sahibiyik, dediklərimizi həyata keçirə bilirik!

Bu qüdrəti də bizə Müzəffər Ali Baş Komandan İlham Əliyev verib!

Biz bu gün heç kimdən qorxmuruq, çəkinmirik, gələcəyə inamla, sevinclə baxır, istədiyimizə nail oluruq!

Bu gerçəyi, yeni reallığı da Müzəffər Ali Baş Komandan İlham Əliyev yaradıb!

Biz bu gün hansı dövlətlərin, kimlərin Ermənistana necə və hansı vasitələrlə köməyini açıq şəkildə görürük.

İşğal dövründə isə bütün bunlar üstüörtülü formada, beynəlxalq qurum və təşkilatların əli ilə edilirdi.

**Baş verənlər, hadisələrin indiki gedişi, müharibədən sonra gördüklərimiz, eşitdiklərimiz və öyrəndiklərimiz isə göstərir ki, bütün bu olanları, həqiqətləri İlham Əliyev aydın şəkildə görür, bilir və onları qabaqlamaq, zərərsizləşdirmək üçün lazımi məqamda zəruri addımları atırmış!**

*Hələ bundan sonra olacaqlar da, üstəlik, onları xeyrimizə yönəltmək, uğura çevirmək üçün baş verəcəklər də Prezident İlham Əliyevə məlumdur və preventiv addımlarını atmaqdadır!*

❖ ❖ ❖

Havadarlarına arxalanan, cəzasız qaldığına əmin olan Ermənistan quduraraq cızığından çıxdı.

Yeni hakimiyyətə gələn sorosçu baş nazir N.Paşinyan isə "Qarabağ Ermənistandır nöqtə" deyərək sülh danışıqlarının mənasızlığını bəyan etdi!

Həm də Azərbaycanın səbir-kasasını daşdırdı!

**Ermənistanın azğınlaşmış, təxribatçı əməllərinə cavab vermək, torpaqları işğaldan azad etmək üçün cənab İlham Əliyev "İrəli!" əmrini verdi!**

*Beləliklə, İkinci Qarabağ müharibəsi, 44 günlük Vətən müharibəsi başladı!*

❖ ❖ ❖

44 gün davam edən hərbi əməliyyatlar dövründə Azərbaycan Ordusunun şücaət və qəhrəmanlığı, tətbiq olunan strategiya və taktika, işlədilən silahlar, düşmənə endirilən sarsıdıcı zərbələr, bir zamanlar özünü "məğlubedilməz ordu" adlandıranların ilk həmlələrdə qorxaqcasına döyüş meydanlarından qaçması, qorxaqlar, fərarilər yığnağına çevrilməsi, Paşinyanın İlham Əliyevə dayanmadan minnətçilik zənglərini təşkil etməsi, Şuşa kimi qala şəhərinin əlbəyaxa döyüşdə geri qaytarılması, Ağdam, Laçın və Kəlbəcərin döyüşsüz təslim edilməsi ordumuzun gücündən və qüdrətindən, habelə Müzəffər Ali Baş Komandan İlham Əliyevin bu müharibəyə uzun müddət, diqqətlə, uzaqgörənliklə hazırlaşaraq bütün məqamları nəzərə almasından, ən nəhayət, vədəsində gərəkli addımlar atmasından xəbər verir!

Müzəffər Ali Baş Komandan İlham Əliyev "dəmir yumruğ"u ilə düşmənin başını əzdi, onu qarşısında diz çökdürdü, kapitulyasiya aktını imzalatdırdı!

**44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyev təkcə Ermənistana qalib gəlmədi.**

*Eyni zamanda:*

- Ermənistanın havadarlarını və müdafiəçilərini;
- Ona gizli və aşkar dəstək verənləri;
- "Bacı"larını və "din ayrı qardaşları"nı;
- Dünyanın müxtəlif ölkələrindəki erməni lobbilərini;
- Bir sıra ölkələrin senat və parlamentlərində oturaraq müəyyən muzd hesabına erməni maraqlarını durmadan müdafiə edənləri;
- Bütövlükdə "dünya erməniliyi" adlı böyük qüvvəni acınacaqlı məğlubiyyətə uğratdı!

Belə qollu-budaqlı, köklü-rişəli düşməni qısa bir müddətdə darmadağın etmək elə asan və sadə iş deyildi!

**Bu tarixi savaşa Müzəffər Ali Baş Komandan İlham Əliyev uzun müddət, hərtərəfli və diqqətlə hazırlaşmışdı.**

**Ən əsası, vaxtında qabaqlayıcı, hadisələri önləyəcək addımlar atmışdı.**

Həm də Azərbaycan rəhbərliyinə gəldiyi ilk günlərdən.

- Belə ki, daim müstəqil, yalnız xalqın və dövlətin maraqlarına xidmət edən siyasət yürütmüş;
- Azərbaycanı heç kəsdən asılı olmayan qüdrətli dövlətə çevirmiş;
- Kimsəyə boyun əyməyərək bütün problemləri öz gücü, öz imkanları hesabına həll etmişdir!

Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi müddətdə daim ölkəmizə etibarlı dostlar qazandırmışdır.

- Karbohidrogen ehtiyatlardan səmərəli və uzaqgörənliklə istifadə etmiş;
- Tərəfdaşları ilə açıq, səmimi olmuş, qarşılıqlı maraqları daim nəzərə almış;
- Çətin vəziyyətə düşən dost dövlətləri tək qoymamış, təmənnasız əl uzadaraq mərdcəsinə kömək göstərmiş;
- Sözünün üstündə duraraq dediyini etmişdir.

❖ ❖ ❖

**Prezident İlham Əliyevin çox az qisim dövlət başçılarında təsadüf olunan siyasi uzaqgörənliyi və rəhbər fəhmi vardır!**

Bu gün hamıya əyan olanları İlham Əliyev hələ 15-20 il öncə duyaraq indi yerinə düşən, gərəkli olan və başqalarını qabaqlamağa imkan verən zəruri addımlar atmışdır.

MƏSƏLƏN:

- Tikintisinə illər tələb olunan "Şimal-Cənub", "Şərq-Qərb" nəqliyyat dəhlizləri işə salınmış;
- "Cənub qaz dəhlizi" çox gərəkli vaxtda fəaliyyətə başlamış;
- Azərbaycan logistika mərkəzinə çevrilmiş, Xəzərdə ən böyük mülki donanma yaradılmış;
- Ordu XXI əsrin ən yeni müharibəsinə hazırlanmış, ən yeni texnologiyaya əsaslanan silahlarla silahlandırılmış;
- Fəal diplomatik iş aparılaraq beynəlxalq təşkilatlarda düşmənin və havadarlarının məkrli əməllərinin qarşısı ustalıqla alınmış;
- Hər zaman düşməndən və hadisələrdən bir neçə addım qabaqda olduğunu dəfələrlə əyani şəkildə sübut etmişdir!

❖ ❖ ❖

**Preventiv addımlar sayəsində cənab İlham Əliyev düşməni çaş-baş vəziyyətinə salmağı, beləliklə, kobud səhvlər buraxmağa vadar etməyi də bacarır.**

*Ermənilər otuz il ərzində möhkəm müdafiə qurğuları və istehkamlar yaradaraq bizimlə ötən əsrin 90-cı illərinin müharibəsinə hazırlaşmışdılar və bu dəfə də qalib gələcəklərinə əmin idilər!*

- Müzəffər Ali Baş Komandan İlham Əliyev XXI əsrin ən yeni, nümunəvi müharibəsini apardı, düşmənin başına göydən od yağdırdı!
- Ən möhkəm müdafiə sistemi və əlverişli təbii relyefi olan Ağdam, Laçın və Kəlbəcər rayonları bu uzaqgörənlik sayəsində bir güllə atılmadan geri qaytarıldı!
- Xankəndiyə hərbi əməliyyatlarla girməmək düşmənin "soyqırımı" şivəninin qarşısını almağa, ölkəmizə ədalətsiz sanksiyaların tətbiqinə yol verməməyə səbəb oldu!
- İlham Əliyevin eyni zamanda üç cəbhədə - hərbi, diplomatiya və informasiya cəbhələrində qətiyyət və məharətlə çarpışaraq qalib gəlməsi postmüharibə dövründəki işlərin uğurunu təmin etməyin, erməni məkrinin qarşısını almağın təminatına çevrildi!

❖ ❖ ❖

**Önləyici, orijinal və gözlənilməz addımların zamanında atılması, əslində, təkcə düşməni deyil, onun havadarlarını da qabaqlamağa imkan vermişdir.**

*Cənab İlham Əliyevin Qoşulmama Hərəkatına rəhbərliyi dövründə davamlı humanist və ədalətli yanaşmalar nümayiş etdirməsi, inkişaf etməkdə olan dövlətlərin maraqlarına xidmət edən qərarlar qəbul etməsi BMT-dən sonra ikinci böyük təşkilat sayılan bu qurumu Azərbaycana dost etmişdir.*

Nəticədə müharibə davam edən müddətdə Ermənistanın "böyük bacısı" Fransanın BMT-nin Təhlükəsizlik Şurasında Azərbaycanın əleyhinə qətnamə qəbulunun qarşısını Qoşulmama Hərəkatındakı dostlarımız qətiyyətlə aldılar.

Yaxud Frankofoniya təşkilatında yenə də Fransanın əleyhimizə sənəd qəbuluna bu qurumdakı dostlarımız yol vermədilər.

**Müzəffər Ali Baş Komandan İlham Əliyev vədəsində ATƏT-in Minsk qrupunu oyun meydançasından kənarlaşdırdı, "status" məsələsini cəhənnəmə göndərdi, Fransanın birtərəfli mövqeyini, qərəzli addımlarını ifşa etməklə danışıqlara vasitəçilikdən uzaqlaşdırdı.**

❖ ❖ ❖

**Biz bu gün də Prezidentimizin hazırkı dövr üçün gərəkli, üstəlik, sabaha hesablanmış addımlarının şahidi oluruq.**

Məsələn, vətəndaş cəmiyyəti nümayəndələri və ictimai fəalların ekoloji cinayətə və ölkəmizin təbii sərvətlərinin qanunsuz istismarına qarşı dinc formada etiraz aksiyası məkrli düşmənə qarşı sivil mübarizənin ən uğurlu formasına çevrilmişdir.

*Əslində, silahsız Azərbaycan gəncləri düşmənlərə və düşmən niyyətlilərə xidmət edən Laçın dəhlizini əliyalın formada nəzarətə götürmüşlər.*

Dünya mətbuatı ilə əməkdaşlıq, tanınmış siyasətçilərin, vətəndaş cəmiyyəti nümayəndələrinin, bloqçuların vaxtaşırı Azərbaycana dəvət edilərək erməni vəhşiliklərini gözləri ilə görmələrinə şərait yaradılması, dünya ağıl mərkəzləri rəhbərləri və nümayəndələri ilə hər il ADA Universitetində keçirilən görüşlər və saatlarla davam edən sual-cavab, fikir mübadiləsi erməni şər və böhtanlarının qarşısının irəlicədən alınmasına xidmət edir.

❖ ❖ ❖

**Hal-hazırda atılan, lakin gələcəyə hesablanan addım və tədbirlərin də şahidiyik.**

*Müzəffər Ali Baş Komandan İlham Əliyev bəyan edib ki, Zəngəzur dəhlizi açılacaq: ermənilər istəsələr də, istəməsələr də!*

Artıq Ermənistanda hamı bilir ki, bu belə də olacaqdır!

Sadəcə İlham Əliyev dəmir yolunun çəkilməsi və yol infrastrukturunun qurulub qurtarmasını gözləyir!

**Azərbaycan Üçüncü Qarabağ müharibəsinin baş verməsini istəmir!**

Lakin yenə də hərbiyə ən çox vəsait ayırır!

Orduda islahatlar, silahlanma davam edir!

Komando qüvvələrinin, xüsusi təyinatlıların yeni dəstələri yetişdirilir.

Müdafiə sənayemiz yeni növ silahların istehsalını, hətta xarici ölkələrə satışını qaydaya salır.

Sistemli və davamlı şəkildə hərbi təlimlər keçirilir, orduda döyüş qabiliyyəti və qələbə ruhu yüksək səviyyədə saxlanılır.

**Qərbi Azərbaycan İcması əzəli torpaqlarına qayıtmağa hazırlaşır, bu istiqamətdə fəaliyyətlərini gücləndirir və sürətləndirir!**

Qarabağda da bərpa və quruculuq işləri bir an belə dayanmır. Böyük qayıdışa ciddi və sürətli hazırlıq aparılır!

Türkiyə ilə qardaşlıq və strateji müttəfiqlik əlaqələri uğurla davam edir!

❖ ❖ ❖

**Müzəffər Ali Baş Komandan İlham Əliyev daim dediyini edir!**

**Bunu təkcə Azərbaycan xalqı, düşmən Ermənistan deyil, bütün dünya bilir!**

*İlham Əliyev bəyan edibsə, deməli:*

- Ermənistan ərazi bütövlüyümüzü tanıyaraq sülh müqaviləsini imzalayacaq;
- Qarabağdakı ermənilər ya bizim vətəndaşlığımızı qəbul edəcək, ya da ərazimizi tərk edəcək;
- Zəngəzur dəhlizi fəaliyyətə başlayacaq;
- Böyük qayıdış uğurla reallaşacaq;
- Qərbi azərbaycanlılar da doğma yurdlarına dönəcəklər!

**Əslində, hər şey Azərbaycan Prezidentinin dediyi kimi olacaqdır!**

**Çünki o, əvvəlcə ölçüb-biçir, sonra qabaqlayıcı və gərəkli addımlar atır, xalqına və dövlətinə güvənərək dediyini edir!**

İlham Əliyev arzuları gerçəkləşdirməyi, yeni reallıqlar yaratmağı məharətlə bacardığını dəfələrlə sübut edib!

Bizə isə onun - deməli həm də özümüzün və xalqımızın qələbəsini görmək, xoş günlərə sevinmək, daim Prezidentimizin ətrafında sıx, yumruq kimi birləşmək qalır!

**Bəxtiyar SADIQOV**



**Heydər Əliyev ili 2023**

# Təklifi BTC-nin səhmdarları vermişdilər...

## Təşəbbüs dəstəkləndi və kəmər Ulu Öndərin adını şərəflə daşıyır

Ulu Öndər Heydər Əliyev əbədiyyətə qovuşandan sonra ölkəmizin vətəndaşları öz yığıncaqlarında, eləcə də kütləvi informasiya vasitələrində onun adının əbədiləşdirilməsi ilə bağlı müraciətlərlə çıxış etdilər.



Müraciətlərə baxılması üçün 2003-cü il dekabrın 26-da Dövlət Komissiyası yaradıldı. Komissiyanın hazırladığı təkliflər Prezident İlham Əliyevə təqdim olundu. 2004-cü il martın 10-da isə dövlət başçısı Ümummilli Liderin xatirəsinin əbədiləşdirilməsi məqsədilə fərman imzaladı.

Fərmanın bəndlərinin birində deyilirdi: "Bir sıra özəl qurum, şirkət və qeyri-hökumət təşkilatları tərəfindən görülmüş tədbirlər, o cümlədən Bakı-Tbilisi-Ceyhan ixrac boru neft kəmərinə, "Lider" qazma qurğusuna Heydər Əliyevin adının verilməsi, ictimai əsaslarla Heydər Əliyev Fondunun yaradılması dəstəklənsin".

BTC əsas ixrac neft kəmərinə Heydər Əliyevin adının verilməsi layihənin səhmdarlarının təşəbbüsü idi. Onlar Ulu Öndərin BTC-nin reallaşmasında misilsiz rolunu nəzərə alaraq bu qərara gəlmişdilər.

BTC Heydər Əliyevin əvəzsiz yadigarlarından biridir. Bu kəmərin çəkilişi ideyası yarandığı gündən Ulu Öndər onun gerçəkləşməsi üçün böyük səy göstərmiş, əslində, layihəni bir çox mübarizədən keçirmişdir. Ümummilli Lider bu barədə belə demişdir: "Bakı-Tbilisi-Ceyhan neft kəmərinin marşrutunun seçilməsinə müxtəlif maneçiliklər törədildi. Biz şübhə etmirdik ki, bu kəmər Gürcüstandan keçməlidir. Şübhə etmirdik ki, bu böyük neft kəməri məhz Türkiyəyə getməlidir. Xəzərin nefti Türkiyənin Ceyhan limanı vasitəsilə dünya bazarına çıxmalıdır. Amma bəziləri hesab edirdilər ki, kəmər başqa ölkələrdən keçə bilər. Yəni artıq Azərbaycanda, Xəzərin Azərbaycan sektorunda neftin hasil olunmasının reallığını görəndə bəziləri hesab edirdilər ki, bu neft borusu Cənuba gedə bilər, yaxud Şimala gedə bilər, Şərqə gedə bilər. Müxtəlif belə fikirlər, müxtəlif iddialar var idi və getdikcə bunlar güclənirdi. Ancaq biz öz qərarımızda qəti idik. Əvvəldən də biz bunu elan etmişdik ki, kəmər yalnız bu marşrut ilə keçəcəkdir. Bu barədə Azərbaycan, Gürcüstan, Türkiyə arasında qəti razılıq əldə edilmişdi. Demək istəyirəm ki, biz bu layihəni başlayandan indiyə qədər Amerika Birləşmiş Ştatları onun həyata keçirilməsinə çox böyük diqqət, qayğı göstərmişdir, bu işi himayə etmişdir. Əgər Amerika Birləşmiş Ştatlarının layihəyə bu qədər dəstəyi olmasaydı, biz bunu həyata keçirə bilməzdik".

Üçüncü miniiliyin nəhəng mühəndis qurğusu olan BTC-nin Azərbaycanın, Gürcüstanın və Türkiyənin ərazisindən keçən marşrutu 1768 kilometr təşkil edir. Azərbaycanın 13 rayonundan - Qaradağ, Abşeron, Hacıqabul, Ağsu, Kürdəmir, Ucar, Ağdaş, Yevlax, Goranboy, Samux, Şəmkir, Tovuz və Ağstafadan keçən kəmər ölkəmizdə 443, Gürcüstanın 7 bölgəsində 249 və Türkiyənin 9 rayonunda 1076 kilometrlik məsafə qət edir. Keçdiyi ərazilərin coğrafiyasından asılı olaraq onun borularının diametri 46, 42 və 34 düymdür.

BTC öz marşrutu boyu bir neçə dağ silsiləsindən keçir, o cümlədən 2830 metr yüksəkliyə qalxır, eləcə də 3000 yol, dəmir yolu, yeraltı və yerüstü kommunikasiya xətti, eni 500 metrədək çatan Ceyhan çayının keçidi də daxil olmaqla, 1500-dən artıq su hövzəsi ilə kəsişir. Ceyhana yaxınlaşarkən yenidən dəniz səviyyəsinə enir.

Kəmər Bosfor və Dardanel boğazlarından yan keçməklə həmçinin ekoloji riskləri azaldır. Başlıca şərtlərdən biri də kəmərin təhlükəsizliyidir. Boruları etibarlı şəkildə örtüklənmiş və bütün marşrutu boyu torpaq altında basdırılmış bu kəmər, necə deyərlər, səssiz-səmirsiz, ətraf mühitə ziyan vurmadan və insanlara narahatlıq gətirmədən işini davam etdirir.

Kəmərin bir sıra əzəmətli yerüstü qurğuları, o cümlədən 8 nasos stansiyası və 98 siyirtmə məntəqəsi də var. Səngəçaldakı baş nasos stansiyasından sonra ikinci stansiya yenə Azərbaycanda - Yevlaxda yerləşir. İki stansiya Gürcüstanda, dördü isə Türkiyə ərazisindədir.

Regionun neft ixracı arteriyası sayılan bu boru xəttinin salnaməsi qısa olsa da, çox zəngindir. Dünya miqyasında dövrünün ən böyük və ən mürəkkəb mühəndis-texniki qurğularından biri hesab edilən BTC-nin tikintisinə dörd il vaxt sərf olunub. Belə ki, layihə 2002-ci ilin iyul ayında təsdiqlənib və 2006-cı ilin may ayında başa çatdırılıb.

Əslində, BTC-yə Bakı yaxınlığındakı Səngəçal terminalından ilk neft 2005-ci ilin mayında vurulub. Neft Türkiyənin Ceyhan limanına bir il sonra - 2006-cı ilin mayında çatıb. BTC-nin gətirdiyi neftlə yüklənmiş ilk tanker dünya bazarına iyun ayında yola salınıb. Kəmərin tam sistem kimi işə düşməsi münasibətilə təntənəli mərasim isə Ceyhan şəhərində iyulun 13-də keçirilib. Tədbirdə Azərbaycanın, Türkiyənin və Gürcüstanın dövlət başçıları, səhmdar şirkətlərin rəhbərləri, hörmətli qonaqlar iştirak ediblər.

Prezident İlham Əliyev BTC-nin istifadəyə verilməsinin mühüm əhəmiyyət daşıdığını qeyd edərək deyib: "Bu kəmərin fəaliyyətə başlaması ilə Azərbaycanın qarşısında yeni üfüqlər açılır, yeni imkanlar açılır. Azərbaycan iqtisadi cəhətdən çox zəngin ölkəyə çevriləcəkdir. Ölkədə bütün sosial problemlər öz həllini tapacaqdır. Azərbaycan çox önəmli neft ixrac edən ölkəyə çevrilir. Əminəm ki, neftdən əldə olunan gəlirlərdən istifadə edilməklə Azərbaycanda bütün sosial məsələlər qısa müddət ərzində öz həllini tapacaq və Azərbaycan dünya iqtisadiyyatına daha inamla inteqrasiya edəcəkdir".

Layihənin operatoru olan bp şirkətinin məlumatına görə, keçən il martın 23-də BTC Səngəçal terminalından Ceyhan terminalına ixrac olunmuş neftin yüklənildiyi 5000-ci tankerin yola salınmasını qeyd etmişdir. İlin üçüncü rübünün sonunadək kəmər vasitəsilə ümumilikdə təqribən 524 milyon tondan çox (3,93 milyard barel) xam neft nəql edilmiş və Ceyhanda 5163 tankerə yüklənərək dünya bazarlarına göndərilmişdir. BTC əsasən "Azəri-Çıraq-Günəşli" neftini və "Şahdəniz" kondensatını daşıyır. Bundan əlavə, kəmər vasitəsilə Xəzərin digər regional xam neft və kondensat həcmləri də nəql olunur.

Xatırladaq ki, hazırda BTC Ko.-nun səhmdarları bunlardır: bp (30,10 faiz), SOCAR (25 faiz), MOL (8,90 faiz), "Ekvinor" (8,71 faiz), TPAO (6,53 faiz), "Eni" (5 faiz), "TotalEnergies" (5 faiz), İTOÇU (3,40 faiz), İNPEKS (2,50 faiz), "EksonMobil" (2,50 faiz) və ONGCVideş (2,36 faiz) şirkətləridir.

Ulu Öndər Heydər Əliyevin adını şərəflə daşıyan BTC 16 ildən çoxdur bütün regionun həyatında mühüm rol oynayır. Bu kəmər ərazisindən keçdiyi üç ölkənin sakinlərinin güzəranını xeyli yaxşılaşdırıb. Kəmər Azərbaycana böyük gəlirlər gətirib. Həmin vəsait ARDNF-yə (Azərbaycan Respublikası Dövlət Neft Fondu) daxil olur və ölkənin ən zəruri sosial-iqtisadi problemlərinin həllinə yönəldilir.

Vaxtilə Ulu Öndər BTC-nin iqtisadi gücünü qeyd etməklə yanaşı, onu həm də Azərbaycanı Avropa ilə daha sıx bağlayacaq polad kəmərə bənzətmişdi. Bu gün BTC, həqiqətən, Azərbaycanı beynəlxalq enerji ailəsinə qovuşdurub və dünyanın enerji təhlükəsizliyinə öz töhfəsini verməkdədir. Azərbaycanın açdığı və uzaq ünvanlara çatdırdığı geniş dəhlizlərin təməli məhz bu kəmərlə qoyulub.

***Flora SADIQLI, "Azərbaycan"***

# Baş prokuror hakim vəzifəsinə təyin edilmiş prokurorluq işçiləri ilə görüşüb

Yanvarın 17-də Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev hakim vəzifəsinə təyin edilmiş prokurorluq işçiləri ilə görüş keçirib.



Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, tədbirdə çıxış edən baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş inkişaf strategiyasını yeni mərhələdə uğurla davam etdirən Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq, ötən illər ərzində həyata keçirilmiş ardıcıl və sistemli məhkəmə-hüquq islahatları nəticəsində Azərbaycan gəncliyinin hərtərəfli inkişafı istiqamətində mühüm addımlar atıldığını vurğulayıb. O, gənclərin ictimai həyatın bütün sahələrində fəal iştirakına geniş imkanlar yaradıldığını, müasir təfəkkürlü gənc və yüksəkixtisaslı kadrların irəli çəkildiyini qeyd edib.

Həmçinin baş prokuror dövlətimizin başçısının "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 3 aprel 2019-cu il tarixli fərmanı ilə ədalət mühakiməsinin səmərəliliyinin artırılması sahəsində işin müasir çağırışlara uyğun yeni mərhələdə aparılmasını, hüquqların məhkəmə müdafiəsinin daha da gücləndirilməsini, cəza siyasətinin humanistləşdirilməsini, yeni Kommersiya və digər regional məhkəmələrin təsis edilməsini, vahid məhkəmə təcrübəsinin formalaşdırılmasını və hakimlərin fəaliyyətinin prinsipial qiymətləndirilməsi üçün işlək mexanizmlərin yaradılmasını və digər əhəmiyyətli tədbirlərin görülməsini diqqətə çatdırıb.

Görüş zamanı Azərbaycan Respublikası Prezidentinin 12 yanvar 2023-cü il tarixli sərəncamı ilə Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilmiş Vüqar Quliyev, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilmiş Neymət Məmmədov, Gəncə Ağır Cinayətlər Məhkəməsinin hakimi təyin edilmiş Abdulla Məmmədov və Mikayıl Məmmədzadə, Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin hakimi təyin edilmiş İlham Cəfərzadəyə Azərbaycan Respublikası Prokurorluğunun Fəxri fərmanları təqdim edilib.

Baş prokuror hakim təyin edilmiş prokurorluq işçilərinə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tədbir iştirakçıları ilə xatirələrini bölüşüb səmimi söhbətlər edib.

# İlham Əliyevin qlobal liderliyinin daha bir nümunəsi

*Əvvəli 1-ci səh.*

Səudiyyə Ərəbistanı isə Ermənistanla diplomatik münasibətlər qurmayıb və bunun da yeganə səbəbi Azərbaycan torpaqlarının işğalı idi.

Ümumiyyətlə, ərəb ölkələri daim Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə dəstəklərini ifadə ediblər.

Ötən il noyabrın 1-də Prezident İlham Əliyevin Əlcəzairdə keçirilən Ərəb Dövlətləri Liqasının 31-ci Zirvə toplantısında Fəxri qonaq statusunda iştirakı da respublikamızla ərəb dünyası arasındakı daha da yüksələn səmimi münasibətlərin göstəricisi idi. Zirvə toplantısına dəvətə görə Əlcəzair Prezidentinə və Ərəb Dövlətləri Liqasının baş katibinə təşəkkürünü bildirən Prezident İlham Əliyev dəvətin dostluq və qardaşlıq əlaməti olduğunu bildirmişdi.

Xatırladaq ki, Azərbaycanla ərəb dövlətlərinin birliyi olan Ərəb Dövlətləri Liqası arasında da əməkdaşlıq əlaqələri mövcuddur.

Ölkəmiz müşahidəçi statusunda təşkilatın üzvüdür. Hazırda liqa yeddi ölkə ilə, o cümlədən Azərbaycanla imzalanmış Anlaşma memorandumu əsasında əməkdaşlıq edir. Anlaşma memorandumu 2005-ci ildə imzalanıb. 2014-cü ildə isə Ər-Riyadda Ərəb Dövlətləri Liqası, Orta Asiya və Azərbaycan Respublikası arasında Əməkdaşlıq memorandumu imzalanıb. Onu da qeyd edək ki, Ərəb Dövlətləri Liqasının üzvləri həmçinin Azərbaycanın hazırda sədrlik etdiyi Qoşulmama Hərəkatında təmsil olunurlar. Azərbaycan bu təşkilat çərçivəsində də ərəb dövlətləri ilə geniş əməkdaşlıq imkanlarına malikdir.

## Dostluğun və qardaşlığın nümunəsi

Prezident İlham Əliyevin işgüzar səfərdə olduğu Birləşmiş Ərəb Əmirlikləri Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk dövlətlərdən biridir. Bu ölkə 1991-ci il dekabrın 26-da Azərbaycanın müstəqilliyini tanıyıb. 1992-ci ildən isə iki dövlət arasında diplomatik münasibətlər qurulub. Ötən əsrin 90-cı illərinin ortalarından ticari-iqtisadi və digər sahələrdə əməkdaşlıq genişlənməyə başlayıb.

Son səfər zamanı Prezident İlham Əliyevlə Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan arasında görüşdə Azərbaycanla BƏƏ-nin siyasi, iqtisadi, təhlükəsizlik və digər sahələrdə sıx əməkdaşlıq həyata keçirdikləri bildirildi, bu əlaqələrin daha da genişləndirilməsinin vacibliyi vurğulandı. Dövlət başçıları tərəfindən müəyyənləşdirilmiş siyasi xəttə uyğun olaraq, iki ölkənin müxtəlif səviyyələrdə nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin önəmi qeyd edildi.

Onu da xatırladaq ki, keçən ay Fransanın BMT Təhlükəsizlik Şurasında Azərbaycana qarşı qəbul etdirməyə çalışdığı sənədin əleyhinə çıxanlardan biri də BƏƏ-dir. Hər zaman Azərbaycanın haqlı mövqeyini müdafiə edən bu ölkə BMT TŞ-dəki müzakirələrdə də ölkəmizə dəstək göstərib. BƏƏ-nin bu mövqeyi, eləcə də Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı nailiyyətlər və qələbələr münasibətilə təbriklərini çatdırması ondan xəbər verir ki, bu ölkə Azərbaycanın Vətən müharibəsindəki qələbəsini və yaratdığı yeni reallıqları dəstəkləyir.

Prezidentlərin görüşündə bu məsələyə də toxunulub və dövlətimizin başçısı BMT TŞ-də Cənubi Qafqaz regionuna aid müzakirələrdə BƏƏ-nin Azərbaycana göstərdiyi dəstəyi yüksək qiymətləndirib, bunu dostluğun və qardaşlığın nümunəsi kimi dəyərləndirib.

## Yüksək nüfuzun təcəssümü

Prezident İlham Əliyevin dəvət olunduğu Əbu-Dabi Dayanıqlılıq Həftəsi planetimizin gələcəyində payı olan dövlət və hökumət başçılarını, siyasətçiləri, sənaye liderlərini, sərmayəçiləri, iş adamlarını və gəncləri aktual məsələlərin müzakirəsi üçün bir araya gətirir. Budəfəki Dayanıqlılıq Həftəsində dünyanın 150 ölkəsindən 30 minədək nümayəndə iştirak edir.

Prezident İlham Əliyevin bu mötəbər beynəlxalq tədbirə dəvət olunması sürətlə inkişaf edərək mühüm beynəlxalq layihələrin təşəbbüskarına çevrilən ölkəmizin dünya miqyasında artan nüfuzunun göstəricisidir. Zəngin neft-qaz potensialı ilə Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan Azərbaycan Prezident İlham Əliyevin uğurlu enerji siyasəti nəticəsində bu sahədə imkanlarını daha da şaxələndirir. Hazırda enerji sahəsində ölkəmizin prioritetlərindən biri bərpaolunan enerji ilə bağlı yeni layihələrin həyata keçirilməsidir. Artıq bu sahədə Azərbaycanla BƏƏ arasında real əməkdaşlıq mövcuddur. Belə ki, ötən il təməli qoyulmuş "Qaradağ" Günəş-Elektrik Stansiyasını bu ölkənin "Masdar" şirkəti inşa edir.

Eyni zamanda İlham Əliyevin bu tədbirdə iştirakı Azərbaycanla BƏƏ arasındakı yüksək siyasi münasibətlərin göstəricisidir. Bu səfər, eləcə də BMT TŞ-dəki birmənalı dəstək göstərir ki, Azərbaycanla BƏƏ yaxın tərəfdaş və dost dövlətlərdir.

Xüsusilə qeyd etməliyik ki, Azərbaycan Prezidentinin Əbu-Dabi Dayanıqlılıq Həftəsinə dəvət alması İlham Əliyevin yüksək nüfuzunun təcəssümüdür. Bu dəvət İlham Əliyevin qlobal liderliyinin daha bir nümunəsidir və görünən həm də odur ki, ərəb dünyası Azərbaycan Prezidentini ən etibarlı tərəfdaş və sadiq dost kimi qəbul edir.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# Ermənistan öhdəliklərini yerinə yetirməkdən boyun qaçırır, beynəlxalq platformalarda saxta ittihamlar yayır

"Ermənistan öhdəliklərini yerinə yetirməkdən, xüsusən də suverenlik və ərazi bütövlüyünə hörmətdən yayınmaq üçün növbəti dəfə beynəlxalq platformalardan istifadə edərək saxta ittihamlar, təhriflər və saxtakarlıqlar yaymaqdadır".

AZƏRTAC xəbər verir ki, bu fikri ATƏT-in Daimi Şurasının növbədənkənar iclasında Azərbaycanın ATƏT yanında daimi nümayəndəsi Rövşən Sadıqbəyli Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın bəyanatına cavab olaraq söyləyib.

Daimi nümayəndə bildirib ki, Ermənistan beynəlxalq hüquqa və mehriban qonşuluq münasibətlərinə əməl etməyə çalışmalıdır, eləcə də bu ölkənin XİN rəhbərinin qondarma quruma istinadları qəbuledilməzdir. Həmin qondarma qurum ATƏT də daxil olmaqla, beynəlxalq səviyyədə hansısa bir ölkə və qurum tərəfindən tanınmayıb.

Daha sonra qeyd edilib ki, 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanat 30 ilə yaxın erməni işğalına son qoyub və bu, beynəlxalq hüququn və ədalətin təntənəsidir. Lakin işğaldan azad edilmiş ərazilərdəki dağıntıların miqyası heç bir ölçüyə sığmır. Azərbaycanın bu bölgəsindəki şəhərlərin, qəsəbələrin və kəndlərin əksəriyyəti faktiki olaraq Yer üzündən silinib, minlərlə mədəniyyət və dini abidə dağıdılıb, talan edilib, vandalizmə məruz qalıb. Azərbaycan əraziləri azad edəndən dərhal sonra yüz minlərlə insanın öz doğma yurdlarına qayıtması üçün işğalın nəticələrini aradan qaldırmağa başlayıb.

R.Sadıqbəyli Azərbaycanın milli və etnik mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlarına bərabər hüquqlar təmin etmək qətiyyətini də ifadə edib və bildirib ki, Azərbaycan qanunvericiliyə və Azərbaycan Konstitusiyasına uyğun olaraq erməni əsilli vətəndaşlarını öz siyasi, sosial və iqtisadi məkanına yenidən inteqrasiya etmək əzmindədir. Bu məqsədlə yerli erməni əhali ilə qarşılıqlı əlaqə yaratmaq üçün ardıcıl və uğurlu səylər göstərilir. Bununla belə, Azərbaycan kövrək sülh quruculuğu prosesini pozmaq üçün Azərbaycanın Qarabağ bölgəsinə yerləşdirilən Ruben Vardanyan kimi şübhəli keçmişi olan şəxslərlə əməkdaşlıq etməyəcək.

Diqqətə çatdırılıb ki, müharibənin ağrılı nəticələrinə baxmayaraq, Azərbaycan xoş niyyət nümayiş etdirərək beynəlxalq səviyyədə tanınmış sərhədlər daxilində ərazi bütövlüyünü qarşılıqlı tanıma və hörmət də daxil olmaqla, beş prinsip əsasında sülh prosesinin təşəbbüskarı olmuşdur. Son 2 il ərzində Azərbaycan sülh gündəmini təşviq etmək üçün güclü siyasi iradə nümayiş etdirir. Ötən il Brüssel, Praqa və Soçidə yüksək səviyyədə keçirilən görüşlərdə hər iki tərəf bir-birinin suverenliyini, ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını qarşılıqlı şəkildə tanıdıqlarını təsdiqləyib. Bu, sülh müqaviləsinin bağlanmasına gətirib çıxara və yaxşı əsas yarada bilər.

Lakin Ermənistan danışıqlar prosesini imitasiya etmək kimi keçmiş praktikasına sadiq qalır, praktiki işi müxtəlif istiqamətlərdə süni şəkildə sürükləyir. Azərbaycan ərazisindən öz qoşunlarını tam çıxarmayıb və ərazilərimizi minalamaqda davam edir.

Xankəndi-Laçın yolundakı vəziyyətə toxunan daimi nümayəndə diqqətə çatdırıb ki, Ermənistan bu yoldan təkcə silah idxalı üçün deyil, həm də Azərbaycandan təbii sərvətlərin qeyri-qanuni ixracı üçün istifadə edir. Azərbaycan bununla bağlı artıq lazımi sübutları təqdim edib. Eyni zamanda iddiaların əksinə olaraq, Laçın yolu bağlanmayıb, bunu hadisə yerindən çoxsaylı xəbərlər və faktlar da təsdiqləyir. Lakin Ermənistan tərəfi yerli sakinlərin Laçın yolundan humanitar məqsədlərlə istifadə etməsinə mane olmağa çalışır. Azərbaycan dövləti və ictimaiyyətinin yoldan istifadə ilə bağlı haqlı narahatlığı nə qədər tez aradan qaldırılsa, mövcud vəziyyət öz həllini tapacaq.

Sonda bildirilib ki, Azərbaycan Ermənistanı Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı yönəlmiş bütün hərəkətlərdən və müharibə ritorikasından əl çəkməyə, normallaşma prosesinə xələl gətirmək cəhdlərini dayandırmağa və üçtərəfli Bəyanat üzrə öhdəliklərə tam əməl etməyə çağırır.

# Kişineuda Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə bağlı forum keçiriləcək

Moldovada Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə bağlı "Karabakh is Azerbaijan" - Azərbaycan-Moldova Gənclər Forumu təşkil ediləcək.

AZƏRTAC xəbər verir ki, forum Azərbaycan Gənclər Fondunun dəstəyi, Azərbaycan Respublikasının Moldova Respublikasındakı səfirliyinin tərəfdaşlığı "Gənclərin Təşəbbüsünə və İnkişafına Dəstək" İctimai Birliyinin təşkilatçılığı ilə keçiriləcək.

Foruma qatılmaq üçün Azərbaycandan Moldovaya gedən nümayəndə heyəti öncə Ulu Öndər Heydər Əliyevin Kişineudakı büstünü ziyarət edib, önünə gül dəstələri qoyub.

Daha sonra forum təşkilatçıları Azərbaycanın Moldovadakı səfiri Qüdsi Osmanovla görüşüblər.

Görüşdə "Gənclərin Təşəbbüsünə və İnkişafına Dəstək" İctimai Birliyinin sədri, "Diaspor" İnformasiya Mərkəzinin direktoru Toğrul Allahverdili, Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin üzvü, "Yeni Çağ" Media Qrupunun rəhbəri Aqil Ələsgər və "DAVAM" Gənclər Hərəkatının sədri Nihad Allahyarlı iştirak ediblər.

Səfir Qüdsi Osmanov forumun əhəmiyyətindən bəhs edib, bu cür tədbirlərin Moldova-Azərbaycan əlaqələrinin inkişafındakı roluna toxunub.

Sonra Moldova Azərbaycanlıları Konqresinin sədri Elçin Məmmədovla görüş keçirilib. Görüşdə Moldovada gənclər proqramlarının və gənclər hərəkatının inkişafı ilə bağlı məsələlər müzakirə olunub.

**Heydər ƏLİYEV:** "XX əsr tarixində totalitarizmin törətdiyi ən qanlı terror aktlarından biri olan 20 Yanvar faciəsində Azərbaycan xalqına qarşı işlədilmiş cinayət, əslində, bəşəriyyətə, humanizmə, insanlığa qarşı həyata keçirilmiş dəhşətli bir əməldir"



*Şəhidlərin al-qanı torpağa hopmayıb, yox,*
*Onun damarlarını dolaşır ildırım tək...*

## Heydər Əliyevin 1990-cı il 20 Yanvar faciəsi ilə əlaqədar Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində keçirilmiş yığıncaqda çıxışı

- Əziz həmvətənlərim, xanımlar və cənablar!

Bildiyiniz kimi, uzun illər Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrində işləmiş, Sov. İKP MK Siyasi Bürosunun üzvü olmuşam. Geniş infarkt keçirmişəm. Xəstəliyimlə əlaqədar iki ildən artıqdır ki, pensiyadayam. Azərbaycanı tərk etdiyim 1982-ci ilin dekabrından keçən müddətdə bu gün ilk dəfədir ki, Azərbaycan SSR-in Moskvadakı daimi nümayəndəliyinin astanasına qədəm qoyuram. Mən baş vermiş hadisələr haqqında dünən xəbər tutmuşam və təbiidir ki, bu hadisəyə laqeyd qala bilməzdim. Buraya ən əvvəl ona görə gəlmişəm ki, Azərbaycanın Moskvada kiçik parçası olan daimi nümayəndəliyində, böyük itkilərə səbəb olmuş faciə ilə bağlı bütün Azərbaycan xalqına başsağlığı verim. İkinci tərəfdən, bu məsələyə öz münasibətimi bildirmək istəyirəm. Azərbaycanın Moskvadakı daimi nümayəndəsi Söhrab İbrahimovdan xahiş edirəm ki, mənim sözlərimi, kədərimi, başsağlığımı Azərbaycan xalqına çatdırsın. Hazırda başqa imkanım olmadığı üçün təəssüf hissi keçirirəm.

Azərbaycanda baş vermiş hadisələrə gəlincə, mən onları hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm. Azərbaycanda yaranmış mürəkkəb vəziyyətin bir sıra səbəbləri vardır. Vaxtımızın məhdudluğundan bu məsələlərin üzərində ətraflı dayanmaq istəmirəm.

Artıq iki ildir ki, Azərbaycan və Ermənistan arasında millətlərarası münaqişə gedir. Həmin münaqişəni Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələr törətmişdir. Azərbaycan və Ermənistan, eləcə də, ölkənin ali siyasi partiya rəhbərlərinə bu məsələni tənzimləmək, daxili müharibəyə, millətlərarası münaqişəyə son qoymaq və milli mənsubiyyətindən asılı olmayaraq hər bir adamın ümumi federativ ittifaq olan SSRİ-də azad yaşamasına şərait yaratmaq üçün iki illik müddət kifayət idi.

Hesab edirəm ki, ötən iki ildə bu istiqamətdə lazımi səviyyədə iş aparılmamışdır. Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, gərginlik indiki həddə çatmaz, tərəflər itkilərə məruz qalmaz, başlıcası isə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün də zəmin yaranmazdı.

Bunlar üçün ilk növbədə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin artıq sabiq birinci katibi Vəzirov müqəssirdir. Bu yüksək vəzifədə olduğu müddətdə o, Azərbaycandakı vəziyyəti sabitləşdirmək üçün heç nə etməmişdir. Əksinə, özünün səhv addımları, yaramaz iş üslubu, yanlış siyasi manevrləri ilə xalqla öz arasında uçurum yaratmışdır. Xalq isə hiddətlənmişdir. Elə buna görə də Bakıda və Azərbaycanın digər şəhər və rayonlarında aylarla davam edən mitinqlərdə dəfələrlə Azərbaycanın partiya rəhbərlərinin istefası tələbi irəli sürülmüşdür. Söhbət əslində Vəzirovun istefasından gedirdi. Bəs bu məsələ indiyə kimi niyə həll olunmamışdır? Yalnız dünən Bakı şəhərinə ordu yeridildikdən, qırğın və dağıntılar baş verdikdən sonra Vəzirov Azərbaycandan əslində qaçmışdır. Bu, böyük səhvdir. Ən böyük səhv isə sözsüz ki, qeyri-ciddi, bu yüksək vəzifəyə əsla yaramayan adamın bir vaxt Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə birinci katib təyin edilməsi idi. Ancaq, iş təkcə bununla bitmir.

İndi yanvarın 19-dan 20-nə keçən gecə baş vermiş və bu gün də davam edən faciənin üstündə dayanmaq istəyirəm. Hesab edirəm ki, Azərbaycandakı vəziyyəti öz axarına salmaq, siyasi həyatdakı qeyri-sabitliyi nizamlamaq üçün kifayət qədər imkan olmuşdur. Təəssüf ki, Azərbaycan rəhbərliyi, həmçinin ölkənin ali siyasi rəhbərliyi bu imkanlardan istifadə edə bilməmişdir. Sərhədlərə edilən təcavüzü vaxtında aradan qaldırmaq mümkün idi. Axı üç ay əvvəl sərhəd zolağı ilə bağlı camaat öz tələblərini irəli sürmüşdü. Fəqət heç kəs onlarla görüşmək, izahat işi aparmaq və lazımi ölçü götürmək istəməmişdir.

Təkrar edirəm: camaatı sakitləşdirmək üçün də imkanlar tükənməmişdi. İki-üç ay əvvəl Azərbaycan partiya rəhbərliyinin möhkəmləndirilməsi məsələsi həll edilsə idi, vəziyyət gərginləşməz, ordu yeridilməsinə zərurət yaranmazdı. Bütün vəziyyətlərdə hesab edirəm ki, məsələni siyasi cəhətdən tənzimləmək, xalqla mükaliməyə girmək üçün əlverişli imkanlar olmuşdur. Lakin onlardan səmərəli istifadə edilməmişdir. Nəhayət, 19-dan 20-nə keçən gecə sovet ordusunun, SSRİ DİN-in böyük kontingenti Bakı şəhərinə yeridilmişdir. Nəticəsi isə göz qabağındadır. Bunun törətdiyi faciələr hamımıza məlumdur.

Belə qərar qəbul etmiş adamların hərəkətini siyasi qəbahət sayıram. Bəli, kobud siyasi səhv buraxılmışdır. Onlar, sadəcə olaraq, respublikadakı əsl vəziyyəti qiymətləndirə bilməmiş, Azərbaycan xalqının psixologiyasını anlamamış, əhalinin müxtəlif təbəqələri ilə əlaqələri zəiflətmişlər. Onlar, görünür, bu işlərin belə ağır faciəyə çevriləcəyini əvvəlcədən düşünməmişlər.

Bütün bunlar qabaqcadan nəzərə alınmalı və vaxtında vacib, zəruri tədbirlər qəbul edilməli idi. Ordu yeridilmiş, günahsız adamlar həlak olmuşlar. Yeri gəlmişkən, deyim ki, ölənlər arasında hərbi qulluqçuların olması haqqında da məlumatlar daxil olur. Sual olunur: ölkənin ali dövlət, partiya rəhbərliyinin səhv qərarı ucundan, olmayan qiyamı yatırtmaq adı ilə Azərbaycana göndərilmiş rus gənclərinin günahı nədir?

Azərbaycana kənardan böyük ordu kontingenti yeridilmişdir. Respublikada neçə ordu birləşməsinin olduğu mənə yaxşı bəllidir. Azərbaycanda kifayət qədər - 4-cü ordu, Xəzər Hərbi Dəniz Donanması, desant qoşunlarının diviziyası, Hava Hücumundan Müdafiə Qoşunları, DİN-in daxili qoşun birləşmələri vardır. Oraya əlavə qoşun yeritmək nəyə lazım idi? Əgər belə zərurət var idisə, orada yerləşən hərbi hissələrdən də istifadə etmək olardı. Belə qərar qəbul edən Azərbaycan rəhbərliyi, hamıdan əvvəl isə bərk ayaqda Azərbaycanı qoyub qaçmış Vəzirov, öz xalqı qarşısında məsuliyyət daşımalıdır. Ölkənin ali siyasi rəhbərliyinə yanlış məlumat verənlər də məsuliyyət daşımalıdır.

Zənnimcə, ölkənin ali siyasi rəhbərliyinə vəziyyət barədə vaxtında kifayət qədər düzgün, dəqiq, obyektiv informasiyalar çatdırılmamışdır. Rəhbərlik çaşqınlığa salındığından belə qərar qəbul etmişdir. Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır.

*21 yanvar 1990-cı il, Moskva*

## Xalq deputatı Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 20 noyabr 1990-cı il tarixli sessiyasında çıxışı

Mən istəyirəm ki, bu məsələ (1990-cı il 19-20 Yanvar Bakı hadisələri) barəsində öz fikrimi deyim. Bu məsələnin meydana gəlməsi tarixi böyükdür. Aydındır ki, 1988-ci ildən Bakıda milli hərəkat başlayıb. Və bu milli hərəkatın boğulmasına bir neçə dəfə - həm Azərbaycan KP rəhbərliyi, həm də ümumittifaq rəhbərliyi cəhd edibdir. Bir qrup adam həbs olunub, cəzalar çəkib, məhrumiyyətə uğrayıblar və burada qarşılıqlı mübarizə gedib. Ancaq bunlara baxmayaraq, ümumxalq hərəkatı inkişaf edib, o, daha da güclənib və Azərbaycanda bu xalq hərəkatının inkişaf edib güclənməsinin ən böyük təkanvericisi də Dağlıq Qarabağ Muxtar Vilayətində yaranmış vəziyyət, onun ətrafında olan məsələlər və ümumiyyətlə, bu məsələnin yaranması ilə əlaqədar bizim respublikaya mərkəz tərəfindən göstərilən ədalətsiz münasibətdir.

Bunlar xalq hərəkatına təkan verib və onu inkişaf etdiribdir. Təəssüf ki, mən belə fikirdəyəm, birinci növbədə respublikanın rəhbərliyi, Azərbaycan KP-nin rəhbərliyi bu məsələni düzgün araşdıra bilməyib, bunlara düzgün qiymət verməyib, öz şəxsi mövqelərini müdafiə etmək üçün cürbəcür qeyri-qanuni, qeyri-hüquqi üsullara əl atıb və beləliklə, xalq hərəkatına zərbə vurmağa çalışıbdır.

Bu xalq hərəkatı ilə əgər əvvəldən dil tapılsaydı, söhbət aparılsaydı, rəhbərlik xalqla dialoqa girə bilsəydi, şübhəsiz ki, çox məsələlərin qarşısı alınardı və 1989-cu ilin dekabrında və 1990-cı ilin yanvarında Bakıda və ümumiyyətlə, Azərbaycanda olan faciəvi hallar baş verməzdi. Bunlar olmayıb. Və burada da Azərbaycan KP rəhbərləri ümumittifaq siyasi rəhbərləri ilə bir olublar, onlarla birgə hərəkət ediblər, onlarla birlikdə xalq hərəkatını boğmaq, Azərbaycanda diktatura üsuli-idarəsini möhkəmləndirmək niyyətində olublar.

İkinci tərəfdən, mən hesab edirəm ki, bir tərəfdən demokratiyanın inkişafı barədə car çəkən ümumittifaq siyasi rəhbərlərinin və onlarla birlikdə Azərbaycan Kommunist Partiyasının rəhbərlərinin ikiüzlülük edərək, xalqa xəyanət edərək, xalq hərəkatını boğmaqla, tutduqları vəzifədə qalmaları cinayətdir. Bundan danışmaq lazımdır. Bunun tarixini təhlil etməyə tarixçilərimiz də, böyük adamlarımız da var. Şübhəsiz ki, Azərbaycan xalqı öz tarixini çox dərindən təhlil etməlidir. Bütün keçən dövrlərə baxıb hamısına düzgün qiymət verməlidir.

Ancaq indi söhbət ondan gedir ki, münasibət nədir? Münasibət də ondan ibarətdir ki, 19-20 Yanvar 1990-cı il hadisələri, Bakıda baş vermiş hadisələr faciəvi hadisədir və mən belə hesab edirəm ki, Azərbaycanın 1920-ci ildən sonrakı tarixində belə faciəvi hadisə olmamışdır. Bu, xalqın böyük hiddətini doğurmuşdur. Xalq matəm vəziyyətinə gəlib çıxmışdır. İndi on bir aydır ki, xalq matəm içindədir. Bunu açıq-aydın demək lazımdır.

Nə üçün bu məsələ meydana gəlib - mən bunu dedim. Bunun qarşısı alına bilərdimi? Şübhəsiz ki, alına bilərdi. Əgər respublikanın siyasi rəhbərləri xalqla əlaqəyə girsəydilər, xalqla bir olsaydılar, xalqla dil tapsaydılar və xalqın dediyi sözləri eşitsəydilər və onlarla hesablaşsaydılar. Ancaq bunlar olmayıb. Respublikanın rəhbərləri Moskvanın, Qorbaçovun müdafiəsinə arxayın olaraq xalqı boğmağa, əzməyə çalışıblar. Və buna da nail olublar.

Mən hesab edirəm ki, bunların qarşısı alına bilərdi. Bu faciə baş verməyə bilərdi. Xalqımız bu günə düşməyə bilərdi.

Mən belə hesab edirəm ki, 19-20 Yanvarda baş vermiş bu faciə həm Sovet İttifaqının siyasi rəhbərliyinin, şəxsən Qorbaçovun böyük günahının nəticəsidir, onun diktatorluq meyillərindən əmələ gəlmiş bir haldır və eyni zamanda Azərbaycan rəhbərlərinin xalqa xəyanəti və cinayətinin nəticəsidir.

Mən belə fikirdəyəm ki, Böyük Vətən müharibəsi qurtarandan sonra Sovetlər İttifaqında, ölkənin daxilində - heç bir yerdə, heç bir regionda bu qədər, bu miqyasda qanlı qırğın olmamışdır. Bunu da edib sovet ordusu. Və bunun nə qədər böyük miqyasda olmağını onunla da ölçmək olar ki, bu hərbi aksiyanın həyata keçirilməsi üçün SSRİ müdafiə naziri Yazov, SSRİ daxili işlər naziri Bakatin vaxtından qabaq gəlib Bakıda oturub, bu əməliyyatlara rəhbərlik ediblər. Müharibə vaxtı hərbi nazir az-az cəbhəyə gedirdi, ancaq görün bu hərbi əməliyyata bunlar nə qədər böyük fikir veriblər, bunun miqyası nə qədər böyük olubdur ki, marşal Yazov gəlib Bakıda oturub və bu əməliyyata rəhbərlik edibdir.

Demək, bu, Azərbaycan xalqına qarşı göstərilən hərbi təcavüzdür, təhqirdir, Azərbaycan xalqının qarşısında cinayətdir. Və mən şəxsən bu hadisələri eşidərkən, yanvarın 21-də Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gedib öz fikrimi söyləmişəm, bütün bu aksiyanı, bu əməliyyatı pisləmişəm. O vaxt demişəm, indi də təkrar edirəm: bu, xalqın əleyhinə olan əməliyyatdır, demokratiyanın əleyhinə olan əməliyyatdır, hüquq normalarının əleyhinə olan əməliyyatdır, mürtəce bir əməliyyatdır. Mən bu fikirdəyəm və buna belə də qiymət vermək lazımdır.

Azərbaycan xalqı üçgünlük matəm elan etmişdi. Şəhidlər Azərbaycan paytaxtının görkəmli yerində dəfn olunmuşlar. Bəs qatillər kimdir? Nə üçün indiyə qədər bu qatillər meydana çıxmayıbdır? Onların heç biri həbs olunmayıb, heç biri xalqa göstərilməyib. Bu necə olur? Əgər biz şəhidləri görürüksə, onların qəbirlərinin üstünə gündə minlərlə adam gedirsə, bəs bunların qatilləri kimlərdir? Bunlar nə üçün indiyə qədər kənarda qalıblar? Bu, çox təəccüblü məsələdir. Bu, xalqı incidir, narahat edir, hər bir adamda bu sualı vermək hüququ yaradır. Mən şəxsən bu sualı verirəm, ancaq cavab ala bilmirəm.

Bir sözlə, bu hadisə olub. Azərbaycan xalqının başına bu bəla gəlib. Faciə baş verib. Bu, məsələnin bir tərəfidir. İkinci tərəfi, bəs bu məsələlərə nə üçün indiyədək siyasi qiymət verilməyib? Bu məsələ gündəliyə salınarkən mən belə başa düşdüm ki, deputatlar buna siyasi qiymət verəcəklər.

Məlumdur ki, yanvarın 22-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyası olmuşdur. O sessiyada çox ciddi söhbətlər getmiş və bu hərbi əməliyyat, bu təcavüz pislənmişdir. Ancaq o sessiyanın işi kəsilmiş, indiyə qədər bərpa olmamışdır. Ondan sonra Ali Sovetin bir neçə dəfə sessiyaları keçib, ancaq bu məsələ tamamilə kənarda qalıb. Elə bil ki, Azərbaycan xalqının başına heç belə bəla gəlməyib. Sonra komissiya yaranıb. Mən mətbuatda oxumuşdum ki, yanvar hadisələrinin başvermə səbəblərini və günahkarlarını təyin etmək üçün böyük bir deputat komissiyası yaranıb və onun da başında SSRİ xalq deputatı, akademik Abbasov durur. Ancaq indiyə qədər bu komissiya öz fikrini bildirməyib, bu komissiyanın işi müzakirə olunmayıb, xalq bu barədə bir şey bilmir. Eyni zamanda Azərbaycan KP MK da, mən mətbuatdan bildim ki, bu barədə komissiya yaradıbdır. Eşitdiyimə görə, MK katibi Daşdəmirov o komissiyanın sədridir. Ancaq bu komissiyanın işindən də xəbər yoxdur. Bax, iş burasındadır, yoldaşlar. Olan olub, başımıza gələn bəla gəlib, millət əzilib, millətə qarşı təcavüz olub, ancaq indiyə qədər Azərbaycan xalqının həyatında baş vermiş bu böyük faciəvi hadisəyə siyasi qiymət verilməyib və bunun günahkarları meydana çıxarılmayıbdır. Doğrudan da, faciəvidir.

Dünən buraya bir qrup artist gəlmişdi. Afaq Bəşirqızı orada çıxış edirdi. Bizim gənc aktrisalardandır. O özü deyirdi ki, bu hadisənin şahidi olubdur. O, Tbilisi prospektində yaşayır. Deyir, mən gecə saat 12-dən sonra çıxdım balkona, gördüm tanklar adamları necə əzir. Gülləleri atırdılar evlərə. Bizim qonşunun balkonuna neçə güllə dəyib. Dinc şəraitdə yaşayan azərbaycanlılara nə üçün belə xəyanət olub? Bunların hamısının indi üstü örtülüb-basdırılıb. Heç kəs bu haqda danışmaq istəmir, mən demək istəyirəm ki, rəsmi dairələrdən. Elə bil ki, Azərbaycan xalqının başına belə bir iş gəlməyibdir.

Ona görə mən belə fikirdəyəm ki, indi oxunan bəyanatın üzərində ciddi surətdə işləmək lazımdır. Onu genişləndirmək lazımdır. Çıxışlarla əlaqədar əlavələr etmək lazımdır. Burada əsas tələb ondan ibarətdir ki, biz özümüz bu hadisələrə qiymət verməli, Azərbaycan xalqına qarşı olan bu təcavüz əməliyyatını pisləməliyik. Və eyni zamanda, Azərbaycan Respublikasının ali hakimiyyət orqanından tələb etməliyik ki, qısa müddətdə, yaxud heç olmasa növbəti sessiyada bu məsələ müzakirə olunsun. Yanvar hadisələrinə siyasi qiymət verilsin və bu hadisənin günahkarları - kim olursa-olsun, Qorbaçovdan tutmuş aşağı, respublika rəhbərlərinə kimi, keçmiş, ya indiki - fərqi yoxdur, bu xalqdır, xalqa qarşı cinayətdir, - cəzalandırılsın. Bir nəfəri öldürənə qanunlara görə ən yüksək cəza verirlər. Ancaq burada gör nə qədər adam həlak olubdur - bir nəfər günahkar meydana çıxmayıbdır. Bu qədər qanunsuzluğa, demokratiyanın bu qədər pozulmasına dözmək olmaz. Ona görə bu məsələyə biz özümüz siyasi qiymət verməliyik, respublikanın ali hakimiyyət orqanından tələb etməliyik ki, buna baxsın və günahkarlar cəzalandırılsın.

*20 noyabr 1990-cı il*




# 20 Yanvar faciəsinə gedən yol









Azərbaycanın istiqlaliyyət yolunun ilk şəhidlik zirvəsi sayılan 20 Yanvar faciəsi yeni tariximizə həm də bir qürur günü kimi yazıldı. Bu hadisə günahsız insanların amansız bir formada qətlə yetirilməsi ilə nəticələnsə də, öz azadlığına, müstəqilliyinə can atan Azərbaycan xalqının mübarizliyini, məğrurluğunu bir daha bütün dünyaya, o cümlədən ovaxtkı imperiya rəhbərliyinə aydın şəkildə nümayiş etdirdi. Tarixə qanla yazılan 20 Yanvar faciəsi Vətəni, azadlığı uğrunda ölümün gözünə dik baxan Azərbaycan övladlarının sarsılmazlığını bir daha dünyaya tanıtmaqla yanaşı, SSRİ adlanan nəhəng imperiyanın çöküşündə əsas amillərdən biri oldu.

## Heydər Əliyev ermənilərin və Qorbaçovun qarşısını almışdı

Faciəyə gedən yolun başlanğıcı onun törədilməsindən xeyli əvvəl, SSRİ rəhbərliyinə M.Qorbaçovun gəlişi ilə yaranmışdı. Qorbaçovun simasında daim Azərbaycana qarşı məkrli, xəyanətkar mövqe tutmuş ermənilər özlərinə yaxın himayədar tapmışdılar. Əlbəttə, nə qədər ki Heydər Əliyev SSRİ rəhbərliyində təmsil olunurdu, ermənilər Azərbaycanla bağlı bədnam niyyətlərini həyata keçirə bilmirdilər. Çünki Heydər Əliyevin Siyasi Büroda olması ermənilərə və Qorbaçova Azərbaycanla bağlı planlarının reallaşmasına, o cümlədən Qarabağ münaqişəsinin törədilməsinə imkan vermirdi. Elə buna görə Qarabağ məsələsinin Heydər Əliyev Siyasi Bürodan istefa verdikdən cəmi 15 gün sonra ortaya çıxması təsadüfi sayılmamalıdır. O vaxt M.Qorbaçovun ən yaxın adamı, iqtisadi məsələlər üzrə müşaviri, milliyyətcə erməni olan Aqanbekyan Parisdə keçirdiyi mətbuat konfransında Dağlıq Qarabağın Ermənistana verilməsi iddiasını irəli sürmüş, "Humanite" qəzetindəki bəyanatında Moskvanın buna razılığının olduğunu bildirmişdi.

SSRİ rəhbərliyinin Dağlıq Qarabağın Ermənistana verilməsinə dair razılığının olduğu 1988-ci ilin əvvəllərində M.Qorbaçovun Silva Kaputikyan başda olmaqla, bir qrup şovinist erməni ilə görüşü zamanı da üzə çıxdı. Bunun ardınca Xankəndidə, Yerevanda anti-Azərbaycan və antitürk ruhlu mitinqlər genişləndi.

Məhz bundan sonra erməni "Qarabağ Komitəsi", onun Dağlıq Qarabağ Muxtar Vilayətindəki separatçı-terrorçu təşkilatı olan "Krunk" gizli fəaliyyətlərinə son qoyaraq açıq şəkildə niyyətlərini bəyan etməyə, Azərbaycana qarşı ərazi iddiaları səsləndirməyə başladı. Bunun nəticəsi olaraq ermənilər tərəfindən "Miatsum" adlanan hərəkat formalaşdırıldı.

Bütün bunlar 1988-ci ilin fevralından etibarən hadisələrin daha gərgin və aqressiv məcrada inkişafı ilə nəticələndi. Məhz həmin dövrdə həm Dağlıq Qarabağda, həm də Yerevanda Azərbaycan torpaqlarının Ermənistana birləşdirilməsi tələbi ilə silsilə mitinqlər başladı. SSRİ rəhbərliyi tərəfindən heç bir ciddi müqavimət görməyən və bundan daha da ruhlanan ermənilər Dağlıq Qarabağ Muxtar Vilayəti Sovetinin vilayətin statusuna baxılması haqqında Azərbaycan SSR Ali Sovetinə müraciət qəbul etməsinə nail oldular.

## Ermənistanda və Qarabağda etnik təmizləmə siyasəti həyata keçirilirdi

Azərbaycanın ovaxtkı rəhbərliyi hadisələrə fəal müdaxilə etmək əvəzinə, Kremldən gələn əmrlər əsasında hərəkət edir və bununla xalqın taleyinə biganə yanaşırdı. Kreml isə həm Azərbaycana göndərdiyi emissarlar, həm də ölkənin qətiyyətsiz rəhbərliyi vasitəsilə daha məkrli ssenarilər hazırlamaqda idi. Erməni təxribatçılarının da yaxından iştirak etdiyi bu ssenarilərin əsas hədəflərindən biri Azərbaycanda ermənilərə qarşı dözümsüz münasibətin formalaşmasına dair görüntülər yaratmaq idi. Elə bu məqsədlə də 1988-ci ilin fevralında məlum Sumqayıt hadisələri törədildi.

Müxtəlif millətlərin nümayəndələrinin yaşadığı sənaye şəhəri Sumqayıtda iğtişaşlar yaratmaqla siyasi dünyanın yeni səviyyədə gündəminə gətirilmiş "böyük Ermənistan" xülyasının gerçəkləşdirilməsi üçün ermənilərə çox lazım idi. Lakin bu məsələdə sovet DTK-nın da özünəməxsus rolu oldu. Beləliklə, əvvəlcədən planlaşdırılmış Sumqayıt olayları törədildi və o dövrdə Azərbaycanda hakimiyyətdə olanlar SSRİ rəhbərliyinin, ermənilərin niyyətlərini, qlobal hadisələrin mahiyyətini axıra kimi dərk etmək iqtidarında olmadıqlarından qanlı hadisələrin yaşanmasının qarşısını almaq üçün müvafiq addımlar atılmasında acizlik nümayiş etdirdilər. Sumqayıt hadisələrinin əvvəlcədən hazırlandığını o da sübuta yetirir ki, olaylar baş verən yerlərdə öncədən çoxlu teleoperatorlar, jurnalistlər yerləşdirilmişdi. Bununla da düşünülmüş, ssenarisi əvvəlcədən cızılmış Sumqayıt hadisələri saxtakarlıqlarla, uydurmalarla dünyaya yayıldı. Bundan sonra ermənilər Ermənistanda və Dağlıq Qarabağda belə bir əhval yaratdılar ki, artıq azərbaycanlılarla ermənilər bir yerdə yaşaya bilməzlər. Bunun nəticəsi olaraq indiki Ermənistanın yarandığı əzəli Azərbaycan torpaqlarında yaşayan yüz minlərlə soydaşımız 1988-ci ilin sonuna kimi qətlə yetirilməklə, əmlakları talan olunmaqla ən qəddar formada deportasiya olundular.

Dağlıq Qarabağda da vəziyyət getdikcə gərginləşirdi və bu işdə yenə əsas rol oynayan tərəf Azərbaycan rəhbərliyinin acizliyindən istifadə edərək hadisələri istədiyi kimi istiqamətləndirən Kreml təmsilçiləri idi. Bütün bunlara qarşı Azərbaycan rəhbərliyi tərəfindən heç bir qətiyyətli addım atılmadı. M.Qorbaçov isə tədbir görmək əvəzinə, DQMV-nin sosial-iqtisadi inkişafının geridə qalması barədə ermənilərin uydurduqları yalanı müdafiə edərək ittifaq büdcəsindən vilayətə 400 min rubl vəsait ayrılmasına göstəriş verdi. 1988-ci il iyunun 15-də Ermənistan SSR Ali Soveti DQMV-nin Ermənistana birləşdirilməsi haqqında qərar qəbul etdi. İyul ayında SSRİ Ali Sovetinin Rəyasət Heyətinin sessiyasında Dağlıq Qarabağ məsələsi müzakirə edilən zaman Azərbaycandan olan deputatlarla yanaşı, qanunazidd olaraq Ermənistandan olan deputatlar da eyni hüquqda orada iştirak etdilər. Bu isə Qorbaçov və onun ətrafının Ermənistan üçün yaratdığı yeni imkan demək idi.

İttifaq rəhbərliyinin Azərbaycan xalqına qarşı ən böyük xəyanəti özünü növbəti dəfə 1989-cu ilin yanvarında göstərdi. Belə ki, həmin il yanvarın 12-də "Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində xüsusi idarəçilik formasının tətbiqi haqqında" SSRİ Ali Soveti qərar qəbul etdi və bu, ermənilərin istəyinə tam uyğun idi. Çünki DQMV-də xüsusi idarəçilik forması tətbiq edildiyi ilk gündən birbaşa Moskvaya tabe olan ermənipərəst A.Volski burada yaşayan bütün azərbaycanlı soydaşlarımızın çıxarılmasına nail oldu. Qısa müddətdə 50 min nəfər azərbaycanlı DQMV-dən qovuldu. Halbuki Azərbaycanın siyasi rəhbərliyi sözügedən idarənin yaranmasını böyük uğur kimi qiymətləndirir və bu idarəyə çox böyük ümidlər bəsləyirdi. Yalnız xalq hərəkatının təsiri altında 1989-cu il noyabrın 28-də vilayətin idarəsi mərkəzin nəzarəti altında olan Azərbaycan SSR Təşkilat Komitəsinə tapşırıldı. Təşkilat Komitəsinin sədri təyin edilən V.Polyaniçko əslində öz sələfinin siyasətini davam etdirdi və azərbaycanlılar daha da sıxışdırılırdı.

Ümumiyyətlə, 20 Yanvar faciəsinə qədər SSRİ və respublika rəhbərliyinin çıxardığı qərar və fərmanların heç birində Azərbaycanın xeyrinə bircə maddə belə olmadı. Bir tərəfdən, Azərbaycan xalqını sakitləşdirməyə yönələn addımlar atılır, digər tərəfdən isə, respublikanın suverenliyinə, ərazi bütövlüyünə xələl gətirən qərarlar qəbul olunurdu. Bu, Ermənistanın SSRİ rəhbərliyi tərəfindən ən yüksək səviyyədə müdafiə olunduğunu göstərirdi.

1989-cu ilin noyabrından səbr kasası dolmuş xalq Bakının mərkəzi meydanında mitinqlərə başladı. Yanvarın 18-də Bakıda və Azərbaycanın 11 rayonunda keçirilən izdihamlı mitinqlərdə ümumi tətilin başlandığı elan edildi. Lakin genişlənməkdə olan xalq hərəkatına ilk dövrlərdə səriştəsiz rəhbərlik, xəyanətkarlıq ölkəni daha ağır vəziyyətə salırdı. Dağlıq Qarabağın Azərbaycandan qoparılaraq Ermənistana verilməsinə şərait yaradan Qorbaçov isə respublikada genişlənən milli-azadlıq hərəkatının boğulması üçün müxtəlif vasitələr üzərində baş sındırırdı.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Vəzirov Moskvanın marionetkası olaraq həm Dağlıq Qarabağın ermənilərin əlinə keçməsinin qarşısını almaq, həm də ölkədəki vəziyyəti sabitləşdirmək üçün heç nə edə bilmirdi. Əksinə, özünün səhv addımları, yarıtmaz iş üslubu, yanlış siyasi manevrləri ilə xalqla öz arasında uçurumu daha da dərinləşdirirdi. Elə buna görə də Bakıda və Azərbaycanın digər şəhər və rayonlarında aylarla davam edən mitinqlərdə dəfələrlə Azərbaycanın partiya rəhbərlərinin istefası tələbi irəli sürülürdü. Bu dövrdə xalq hərəkatına rəhbərlik edənlər də böyük səriştəsizlik göstərir, çox vaxt DTK-nın istədiyi ssenarilərə uyğun hərəkət edirdilər.

1989-cu ilin sonu, 1990-cı ilin yanvarında Azərbaycanda ictimai-siyasi vəziyyət xeyli kəskinləşdi, qarşıdurma dərinləşdi, mövcud iqtidarın hadisələrə nəzarəti son dərəcə zəiflədi. SSRİ rəhbərliyi isə Azərbaycanı növbəti dəfə cəzalandırmaq üçün Sumqayıt ssenarisinə uyğun təxribatlara start verdi. Milli-azadlıq hərəkatının mərkəzi olan Bakıda ilk olaraq yerli milis tərk-silah edildi, əvəzində daxili qoşun hissələri şəhərə gətirildi. Yanvarın 13-də Bakıda bir erməninin iki azərbaycanlını öldürməsi fitnəkarlıqlar üçün əsas oldu və iki gün ərzində Bakıda süni şəkildə erməni talanı təşkil edildi. Mərkəz tərəfindən düşünülmüş və taktiki baxımdan hərtərəfli hazırlanmış bu məkrli plan hazır ssenari üzrə aparıldı. Elə bu səbəbdən də ayrı-ayrı dəstələrin əməllərinin qarşısını almaq üçün ali hakimiyyət və hüquq-mühafizə orqanları tərəfindən heç bir tədbir görülmədi. Halbuki Bakıda SSRİ Daxili İşlər Nazirliyinin 12 min nəfərlik silahlı qüvvəsi var idi. Bu dövrdə ölkəyə rəhbərlik edən Vəzirov isə yaranan vəziyyətdən istifadə edərək sovet qoşunlarının müdaxiləsinə şərait yaratmağa, bununla həm də xalq hərəkatını boğmağa çalışırdı.

Yanvarın 14-də Azərbaycan KP MK-nın bürosunda vəziyyət müzakirə olundu və Vəzirovun təkidi ilə çağırılan Azərbaycan SSR Ali Sovetinin sessiyasında DQMV-də və zəruri olarsa, ona bitişik rayonlarda, eləcə də sərhəd boyunca fövqəladə vəziyyət elan edilməsi, lazım gələrsə, mərkəzdən kömək göstərilməsi haqqında qərar qəbul olundu. Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin müraciəti ilə SSRİ Ali Sovetinin Rəyasət Heyəti yanvarın 15-də "Dağlıq Qarabağ və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan olunması haqqında" fərman verdi. Həmçinin SSRİ Ali Soveti Bakı, Gəncə şəhərlərində, eləcə də başqa yaşayış məntəqələrində qadağan saatlarının tətbiq edilməsini və digər zəruri tədbirlər görülməsini Azərbaycan SSR Ali Sovetinə təklif etdi.

## Müdhiş gecə...

Bu dövrdə mərkəzdən Azərbaycana, xüsusən də Bakı ətrafına əlavə qoşun hissələri və hərbi texnika gətirilməsi prosesi davam edirdi. Əslində bu, Bakıya qoşun yeridilməsi üçün ilkin hazırlıqdan başqa bir şey deyildi. Xalq hərəkatına rəhbərlik edənlər, o cümlədən Xalq Cəbhəsinin təmsilçiləri vəziyyəti düzgün qiymətləndirmək əvəzinə, şəhərin ətrafında, o cümlədən Bakı qarnizonu ətrafında sədlər, barrikadalar yaratmağa başladılar. Yük və minik maşınlarından, avtobus və trolleybuslardan, eləcə də başqa vasitələrdən istifadə etməklə barrikadalar quruldu, piketlər düzəldildi. Lakin 20 Yanvarda bu düzgün olmayan taktikadan bəhrələnən sovet ordusu çoxlu sayda dinc əhalinin qırılmasına, yaralanmasına rəvac verdi.

20 Yanvar hadisələri ərəfəsində Moskva SSRİ Ali Soveti İttifaq Sovetinin sədri Y.Primakovu və Sov.İKP MK katibi Girenkonu Bakıya göndərdi. Lakin onların AXC-nin radikal və liberal qanadları ilə görüşüb apardığı danışıqlar heç bir nəticə vermədi. Yanvarın 17-də Azərbaycan KP MK binası qarşısında böyük mitinq başlandı və üç gün davam etdi. Mitinqlərdə Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına son qoyulması, Bakı ətrafına yığılmış qoşunların Dağlıq Qarabağa göndərilməsi, respublika rəhbərliyinin istefası və digər tələblər irəli sürüldü.

Sovet rəhbərliyi isə Azərbaycan xalqının müstəqillik uğrunda apardığı mübarizənin qarşısını almaq, milli-azadlıq hərəkatına zərbə vurmaq, habelə digər müttəfiq respublikalara dərs vermək üçün 1990-cı il yanvarın 19-da "Bakı şəhərində fövqəladə vəziyyətin tətbiq edilməsi haqqında" fərman imzaladı. Halbuki bununla Qorbaçov SSRİ Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının 71-ci maddələrini kobud şəkildə pozurdu.

Digər tərəfdən, bu fərmanın tətbiqi barədə əhaliyə məlumat verilməmişdi. Xalqdan fərqli olaraq respublika rəhbərliyi yanvarın 20-nə keçən gecə Bakıya ordu yeridiləcəyindən xəbərdar idi. Həmin günlər güman edilirdi ki, ölkə rəhbərliyinin istefa verməsi gərginliyi nisbətən azaldar, adamlar barrikadaları tərk edərək dağılardılar. Lakin bunun əksinə olaraq, axşamçağı boş küçələrdə üstünə səsgücləndirici quraşdırılmış maşınlardakı insanlar xalqı piketlərə səsləyirdilər.

Yanvarın 19-dan 20-nə keçən gecə SSRİ rəhbəri M.Qorbaçovun göstərişi və Azərbaycanın ozamankı səriştəsiz rəhbərlərinin razılığı ilə Bakıya qoşun yeridildi. Azərbaycanı informasiya blokadasına almaq və xalqın haqq səsini boğmaq üçün SSRİ DTK-nın "Alfa" qrupu respublika televiziyasının enerji blokunu yanvarın 19-da partlatdı. Televiziya susduruldu, kütləvi informasiya vasitələri üzərinə, qəzet və jurnalların nəşrinə qadağalar qoyuldu. Beləliklə, Azərbaycan tam şəkildə blokadaya düşdü, əhali hər hansı bir məlumat almaq mənbəyindən məhrum oldu.

Bakıya qoşun yeridiləndə isə tanklardan, zirehli transportyorlardan, piyadaların döyüş maşınlarından istifadə edildi. Zirehli texnikanın üstündə nömrələr yox idi. Qırmızı Bayraq Ordenli Xəzər Hərbi Donanmasının gəmilərindən desant çıxarılmışdı. Tanklar və ZTR-lər Bakı küçələrində hər şeyi əzir, hərbçilər qarşılarına çıxanları amansız atəşə tuturdular. İnsanlar nəinki küçələrdə, hətta avtobusda gedərkən, öz mənzillərində oturduqları yerdə güllələrə tuş gəlirdilər. Gözləri qan tutmuş hərbçilər yaralıları aparmağa gələn təcili yardım maşınlarını və tibb işçilərini də atəşə tuturdular.

*(ardı var)*

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# Şəhidlər xiyabanında hazırlıq işləri görülür












Bu il sovet ordusunun Bakıda törətdiyi Qanlı 20 Yanvar faciəsinin 33-cü ildönümüdür. Canını Vətənin azadlığı və istiqlaliyyəti uğrunda qurban vermiş şəhidlərimizin anım günü ilə bağlı Şəhidlər xiyabanında hazırlıq işləri gedir.

Anım gününə bir neçə gün qalmasına baxmayaraq, məktəblilər, məktəbəqədər tərbiyə müəssisələrindən olan uşaqlar, şəhər sakinləri dəstə-dəstə Şəhidlər xiyabanına gələrək 20 Yanvar şəhidlərinin məzarı önünə qərənfillər düzür, şəhidlərimizin ruhuna dualar oxuyurlar. Şəhidlər xiyabanında möhtəşəm bir qələbəlik hökm sürür.

Eyni zamanda Şəhidlər xiyabanında Bakı Şəhər İcra Hakimiyyətinin rəhbərliyi və nəzarəti altında faciənin 33-cü ildönümü ilə bağlı böyük hazırlıq, təmir və bərpa işləri gedir. Ənənəvi olaraq xiyaban ərazisində müxtəlif rəngli qərənfillərdən xüsusi kompozisiyalar hazırlanır. Öyrənirik ki, bu işlərə təcrübəli mütəxəssislər, landşaft-dizaynerləri cəlb olunub.

Şahidi olduq ki, Şəhidlər xiyabanında geniş təmizlik və abadlıq işləri aparılıb, ağacların budaqları və bəzi kollar budanıb, qazon örtüyü yenilənib, yeni güllər və kollar əkilib, işıq dirəkləri rənglənib, səkilər və bütün ərazi yuyulub. Xiyabandakı hər iki məşəldə hazırda profilaktik iş aparılır.

Müqəddəs ziyarətgaha çevrilmiş xiyabanın giriş hissəsindəki lövhənin ətrafı müxtəlif rəngli qərənfillərlə bəzədilib. Yazıların yaxşı oxunması üçün daha çox tünd qırmızı qərənfillərdən istifadə olunur.

Xiyabana ziyarətə gələn məktəblilərlə və sakinlərlə də görüşdük. Onlar burada aparılan hazırlıq işlərindən razı qaldıqlarını və şəhidlərimizin heç vaxt unudulmadıqlarını söylədilər.

Bakı Şəhər İcra Hakimiyyəti Aparatının Mətbuat xidmətindən bildirdilər ki, hazırlıq işlərinin yanvarın 19-dək başa çatdırılması planlaşdırılır.

***Elşən QƏNİYEV, İlham BABAYEV (foto), "Azərbaycan"***

# Ölkəmiz "yaşıl enerji" mərkəzinə çevrilir

Xəbər verildiyi kimi, Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın dəvəti ilə bu ölkədə işgüzar səfərdə olub, Əbu-Dabidə keçirilən Dayanıqlılıq Həftəsində iştirak edib. Səfər çərçivəsində BƏƏ-nin "Masdar" şirkəti və Azərbaycan Dövlət Neft Şirkəti arasında 4 qiqavatlıq külək və günəş enerjisi stansiyalarının yaradılmasına dair razılaşma sənədi imzalanıb. "Yalnız həmin layihə nəticəsində "Masdar" ilə apardığımız əməkdaşlıq Azərbaycanı "yaşıl enerji"nin çox mühüm ixrac mənbəyinə çevirəcək", - deyə Prezident İlham Əliyev çıxışında deyib.





Səfər zamanı əldə edilmiş razılaşmalar iki ölkə arasında münasibətlərin inkişafında yeni mərhələ açır. Mövzu ilə bağlı Milli Məclisin deputatlarının fikirlərini öyrəndik.

## Mövcud razılaşma ölkəmizin ixrac potensialını artırır

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov Azərbaycanla BƏƏ arasındakı münasibətlərin kifayət qədər inkişaf edən tempdə olduğunu bildirib. Deputat deyib ki, iki ölkənin münasibətləri xüsusilə "yaşıl enerji" sahəsindəki əməkdaşlıq fonunda inkişaf edir.

"2021-ci ilin fevralında Milli Prioritetlər müəyyən edilərkən qlobal iqlim dəyişikliklərinin miqyasını nəzərə alaraq, ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilməsi, elmi-texniki potensiala əsaslanmaqla iqtisadiyyatın bütün sahələrində alternativ və bərpaolunan enerji mənbələrinin ilkin istehlakda payının artırılması hədəf kimi müəyyən edilib. Azərbaycan Prezidentinin zamanı qabaqlayan vizyonu texnoloji inkişafın yaradacağı böhranlarda boğulmamaq, əksinə, gələcəyi idarə etmək istəyənlər üçün tədricən müsbət təcrübə kimi diqqət cəlb etməyə başladı. Belə bir şəraitdə Prezident İlham Əliyevin qlobal əməkdaşlıq və liderlik, iqtisadi inkişaf və texnologiya, habelə innovasiya üçlüyünü ehtiva edən Əbu-Dabi Davamlılıq Həftəsinin açılış mərasiminə dəvət olunması ilk növbədə məhz dövlətimizin qeyd olunan istiqamətdə aparıcı mövqedə qərarlaşması ilə izah olunmalıdır", - deyə deputat qeyd edib.

B.Məhərrəmov deyib ki, Azərbaycan Prezidentinin Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfərinin mahiyyətini araşdırmaq üçün Yaxın və Orta Şərqdəki, o cümlədən Qafqazdakı geosiyasi situasiya və ölkələrin bu proseslərdəki rolu ayrı-ayrılıqda təhlil olunmalıdır: "Azərbaycanla bağlı məsələlər təbii ki, aydındır. Prezident İlham Əliyevin hakimiyyəti illərində tam iqtisadi müstəqilliyə nail olmaqla siyasi suverenliyini möhkəmlədən, güclü ordu quruculuğu həyata keçirən, milli müdafiə sənayesi yaradan Azərbaycan xüsusən Vətən müharibəsindəki qələbəsindən sonra bölgənin şəksiz diktə edən hərbi-siyasi gücüdür. Cənab İlham Əliyevin təbiri ilə desək, Azərbaycan artıq bölgənin siyasi gündəmini müəyyən edən dövlətdir. BƏƏ isə son 30 ildə imkanlarını artırmaqla, bütövlükdə Yaxın və Orta Şərqin aparıcı güclərindən birinə çevrilib. Misir, Liviya, Yəmən, Efiopiya, Somalidə həyata keçirdiyi hərbi-siyasi fəaliyyətlər, İsraillə strateji iş-birliyi, ABŞ-də, bir sıra Avropa ölkələrində lobbiçilik fəaliyyəti BƏƏ-nin qlobal müstəvidə ciddi siyasi qütbə çevrildiyini göstərir".

Deputatın sözlərinə görə, bütün bunlar o mənaya gəlir ki, İlham Əliyevin BƏƏ-yə işgüzar səfərinin siyasi-iqtisadi, hərbi və təhlükəsizlik məzmunlu istənilən nəticəsi bütövlükdə regional təsirlərlə müşayiət olunacaq. Təsirlərin istiqamətini proqnozlaşdırmaq isə çətin deyil.

"İlk növbədə nəzərə almalıyıq ki, BƏƏ rəsmi Bakının Cənubi Qafqazda hərbi-siyasi fəaliyyətini regionda sülhün, sabitliyin və təhlükəsizliyin təmin edilməsi istiqamətində sülhsevər səy hesab edir və bunun bəyan olunmasından çəkinmir. Üstəlik, Prezident Şeyx Məhəmməd bin Zayed bütün bunları Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı nailiyyətlər və qələbələr hesab edərək dövlət başçımızı təbrik edir. Əvvəldə də qeyd etdiyimiz kimi, BƏƏ-nin siyasi təsir dairəsinin radiusuna, ABŞ və Avropada ciddi lobbiçilik imkanlarına baxsaq, bu, hazırkı həssas məqamda Ermənistan və havadarları üçün ciddi zərbədir. Yeni qlobal donor olan BƏƏ Azərbaycanın istər Ermənistanla sərhəddə, istərsə də öz sərhədləri daxilində həyata keçirdiyi və keçirəcəyi istənilən hərbi-siyasi, yaxud cəza tədbirlərini bəşəri sülh üçün töhfə hesab edir. Hətta BƏƏ-nin bu mövqeyi yalnız sözdə qalmır. Bir müddət əvvəl BMT Təhlükəsizlik Şurasının Cənubi Qafqaz regionuna aid müzakirələrində də Birləşmiş Əmirlik Azərbaycana birmənalı dəstək verməklə bu mövqeyində nə qədər qəti olduğunu ifadə edib. Prezident İlham Əliyev də BƏƏ-li həmkarıyla görüşdə onların dəstəyini yüksək qiymətləndirərək, bunun dostluğun və qardaşlığın nümunəsi olduğunu deyib", - deyə B.Məhərrəmov bildirib.

Deputatın dediyinə görə, "yaşıl enerji" və müasir innovasiyalar məkanına çevrilən BƏƏ-nin rəhbərliyi əmindir ki, Azərbaycanın milli maraqlarını istisna etməyən istənilən regional məsələdə Prezident İlham Əliyevə güvənmək olar: "Yeni dünya düzəninə hazırlıq üzrə ən yaxşı müstəvilərdən hesab edilən Davamlılıq Həftəsində ev sahibi üçün etibarlı Azərbaycandan daha uyğun və daha adekvat ikinci tərəfdaş tapmaq mümkün deyildi. Üstəlik, Azərbaycan BƏƏ-də yalnız bəyanatlarla kifayətlənmədi, iki ölkə arasında yeni dünya düzəni, "yaşıl enerji" ekosistemi üzrə çox mühüm razılaşmalar əldə olundu. SOCAR və Əbu-Dabinin "Masdar" şirkəti arasında mühüm sazişlərin imzalanması ilə rəsmi Bakı sözü və əməli bir olan güc mərkəzi kimi özünü növbəti dəfə təsdiqlədi".

B.Məhərrəmov bildirib ki, Azərbaycan Prezidentinin BƏƏ-yə səfəri yüksək səviyyədə olan tərəfdaşlığımızı daha da dərinləşdirdi: "BƏƏ-Azərbaycan münasibətlərinin kökündə dayanan amillərdən ən başlıcası da məhz İlham Əliyev şəxsiyyəti, onun barəsində möhkəmlənən "sözü və imzası bir olan nüfuz sahibi" qənaəti ilə sıx bağlıdır. Birləşmiş Əmirlik üçün Qafqazda mütəmadi hökumət böhranları ilə üzləşən qeyri-sabit subyektlərlə deyil, möhkəm dövlətçilik, güclü və kənar təsirləri istisna edən müstəqil siyasi sistemə malik Azərbaycanla tərəfdaşlıq istisnasız olaraq yeganə seçimdir".

## Əməkdaşlığın inkişafı üçün böyük potensial var

Milli Məclisin deputatı Aydın Hüseynov isə deyib ki, Azərbaycan və BƏƏ arasında iqtisadi-sənaye sahələrində əməkdaşlıq üçün böyük potensial var: "Bu iki ölkə arasında çox güclü iqtisadi-siyasi əlaqələr mövcuddur. BƏƏ Azərbaycanın haqq səsini həmişə müdafiə edib, Qarabağın işğalı dövründə Ermənistanın təcavüzkar siyasətini kəskin tənqid edib, Vətən müharibəsində ölkəmizin mövqeyini dəstəkləyib, son illərdə BMT Təhlükəsizlik Şurasında Cənubi Qafqaz regionuna aid müzakirələrdə, eləcə də İslam Əməkdaşlıq Təşkilatında Azərbaycana davamlı dəstəyini nümayiş etdirib. Bu, ölkələrimiz arasında yüksək münasibətlərin və sıx dostluğun bariz nümunəsidir. Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri sülhsevər dövlətlər kimi bu gün də regionda sülhün, sabitliyin və təhlükəsizliyin təmin edilməsi üçün qətiyyətli səylər göstərirlər".

Deputat bildirib ki, ölkələrimiz arasında iqtisadi əlaqələrin dinamikası son illərdə artmaqdadır: "2021-ci ildə iki ölkə arasındakı ticarət dövriyyəsi əvvəlki ilin göstəriciləri ilə müqayisədə 20.3 faiz artaraq 50.4 milyon dollara çatıb. 2022-ci il ərzində isə ticarət dövriyyəsində daha ciddi artımlar müşahidə olunub. Belə ki, ötən ilin ilk 10 ayında ticarət dövriyyəsi 90.4 milyon dollara çatıb. Noyabrda isə daha 4.2 milyon dollarlıq ticarət nəticəsində 11 ayın dövriyyəsi 94.6 milyon dollaradək yüksəlib. Yəni ötən ilin 11 ayında iki ölkə arasındakı ticarət dövriyyəsi 2021-ci ildəki illik dövriyyədən 87.6 faiz çox olub. Bu, münasibətlərin artan dinamikasını bir daha təsdiqləyir".

A.Hüseynov deyib ki, hazırda iki ölkə bərpaolunan enerji sahəsində və "yaşıl enerji" təşəbbüslərində birgə iştirak edir: "BƏƏ-nin nüfuzlu "Masdar" şirkəti və Azərbaycan Dövlət Neft Şirkəti arasında külək və günəş enerjisi stansiyalarının yaradılmasına dair razılaşma sənədinin imzalanması ortamüddətli dövrdə regional enerji layihələrinin həyata keçirilməsinə və Azərbaycanın Şərqə enerji ixracına başlamasına səbəb olacaq. Eləcə də 2022-ci il dekabrın 17-də Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya Gürcüstanın Qara dəniz sahilindən Rumıniyanın Qara dəniz sahilinə qədər dənizin dibi ilə elektrik kabelinin çəkilməsinə dair saziş də imzalanıb. Bu ixrac marşrutu və "Masdar"ın Azərbaycanla artan əməkdaşlığı ölkəmizin "yaşıl enerji"sinin çox mühüm ixrac mənbəyinə çevrilməsini təmin edəcək".

Deputat qeyd edib ki, Azərbaycan ilə BƏƏ arasında iqtisadi sahədə əməkdaşlığın inkişaf etdirilməsi üçün böyük potensial var: "Prezident İlham Əliyevin yanvarın 16-da bu ölkəyə səfəri, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə görüşü və əldə olunmuş razılaşmalar mövcud potensialdan daha səmərəli istifadəyə imkan verəcək, iki ölkə arasında siyasi və iqtisadi əlaqələrin dərinləşməsinə zəmin yaradacaq. Cənab İlham Əliyevin Əbu-Dabi Dayanıqlılıq Həftəsinin tədbirində iştirak etməsi BƏƏ ilə sərmayə və texnoloji əlaqələrimizin genişləndirilməsi, "yaşıl enerji" üzrə əməkdaşlıq platformasının dəstəklənməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Bu, bərpaolunan enerji sahəsinə daha çox sərmayə və texnologiyanın cəlb edilməsinə, xüsusilə də Qarabağ və Şərqi Zəngəzur iqtisadiyyatının bərpaolunan enerji sektorlarına davamlı investisiya cəlbinə imkan verəcək".

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Azərbaycan Prezidentinin Əbu-Dabidəki çıxışı Türkiyə mediasında geniş işıqlandırılıb


İlham Aliyev: Azerbaycan'ın şi... yenilenebilir enerj...

Azərbaycan Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin paytaxtında keçirilən Əbu-Dabi Dayanıqlılıq Həftəsinin rəsmi açılışında çıxışı Türkiyənin aparıcı kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılıb.

AZƏRTAC xəbər verir ki, "Anadolu" Agentliyi, "TRT Haber" telekanalı və digər media qurumları Türkiyə ictimaiyyətini mövzu ətrafında geniş məlumatlandırıblar.

İnformasiyalarda diqqətə çatdırılır ki, Prezident İlham Əliyev çıxışında Azərbaycanın enerji siyasətinin ayrı-ayrı istiqamətləri, o cümlədən təbii qaz istehsalı və ixracatı barədə iştirakçılara müfəssəl məlumat verib. Azərbaycan Prezidenti bildirib ki, ölkəsi ümumilikdə 200 qiqavata yaxın külək enerjisi istehsal etmək imkanlarına malikdir.

_Moldova KİV:_

## Azərbaycan Avropaya qaz ixracatını artırır


Алиев: "Азербайджан будет наращивать экспорт газа в Европу"

Азербайджан продолжит наращивать экспорта природного газа в Южную Европу.

Как сообщает АЗЕРТАДЖ, об этом заявил президент Азербайджана Ильхам Алиев во время официального открытия Недели устойчивого развития Абу-Даби в столице Объединенных Арабских Эмиратов.

Moldova KİV Azərbaycan Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin paytaxtında keçirilən Əbu-Dabi Dayanıqlılıq Həftəsinin rəsmi açılışında çıxışına geniş yer ayırıb.

AZƏRTAC xəbər verir ki, bu ölkənin "Noi", "DosarMedia" və digər xəbər portallarında rumın və rus dillərində dərc olunan məqalələrdə Prezident İlham Əliyevin Azərbaycanın dünya iqtisadiyyatının və enerji sahəsinin inkişafına verdiyi töhfə barədə fikirlərinə diqqət çəkilib.

Məqalələrdə dövlətimizin başçısının sitatlarına istinadla vurğulanır ki, bu gün Azərbaycan nəinki öz enerji tələbatını təmin edir, həmçinin xam neft, təbii qaz və elektrik enerjisi ixrac edir. Azərbaycan Avropaya qaz ixracatını artırır. Bu il Azərbaycanın qaz ixracatı 24 milyard kubmetrə çatacaq. Bu rəqəm artmaqda davam edəcək.

# Azərbaycanda "yaşıl enerji"nin əldə edilməsi üçün geniş imkanlar var

## Nəhəng bərpaolunan enerji potensialı sayəsində ölkəmizin bu istiqamətdə ixracı şaxələnəcək

Azərbaycan tezliklə "yaşıl enerji" ixracatçısına çevriləcək. Buna ölkəmizdə bərpaolunan enerji potensialının olduqca yüksək olması geniş imkanlar yaradır.



Azərbaycan zəngin neft və təbii qaz ehtiyatlarına malik dövlətlərdən olsa da, yeni çağırışlara uyğun olaraq hazırda dövlətimizin qarşısında duran prioritet istiqamətlərdən biri də bərpaolunan enerjiyə sürətli keçiddir. Yanvarın 16-da Birləşmiş Ərəb Əmirliklərinin paytaxtında Əbu-Dabi Dayanıqlılıq Həftəsinin rəsmi açılış mərasimindəki çıxışı zamanı Prezident İlham Əliyev xüsusi vurğuladı ki, bərpaolunan enerji ilə bağlı proqramımız tamamilə fərqli gündəliyə malikdir: "Birincisi, bu onunla bağlıdır ki, nəhəng potensial var. İkincisi, biz onun sayəsində ixracımızı şaxələndirəcəyik. Əlbəttə ki, nəticədə iqtisadiyyatımızın yeni ekoloji təmiz sektoru yaranacaq".

## Enerji təhlükəsizliyimiz təmin edilib

Azərbaycan ötən illər ərzində bu sahədə apardığı uğurlu siyasət sayəsində ölkədaxili enerji təhlükəsizliyini yüksək səviyydə təmin edib. Eləcə də hazırda ölkəmiz xam nefti, neft məhsullarını, təbii qazı, neft-kimya məhsullarını və elektrik enerjisini xarici ölkələrə ixrac edir.

1994-cü ildə Bakıda "Azəri", "Çıraq", "Günəşli" yataqlarının işlənməsinə dair transmilli şirkətlərin iştirakı ilə bağlanmış "Əsrin müqaviləsi" ilə Ulu Öndər Heydər Əliyevin böyük səyləri nəticəsində uğurlu təməli qoyulan yeni neft strategiyası ilə ölkəmiz enerji sahəsində dinamik inkişaf etməyə başlayıb.

Azərbaycanın zəngin qaz ehtiyatlarına malik olması baxımından "Əsrin müqaviləsi"nin davamı olaraq 1996-cı ildə Xəzərin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" yatağı üzrə imzalanan kontrakt böyük dəyərə malikdir. 2018-ci ildə Azərbaycanda "Cənub qaz dəhlizi"nin açılışı olub və "Şahdəniz" yatağının zəngin ehtiyatlarının Avropaya çatdırılması üçün daha böyük həcmli yeni dəhliz yaradılıb.

Hazırda dünyanın enerji təhlükəsizliyində qaz amilinin nə qədər ciddi rol oynadığını nəzərə alsaq, "Cənub qaz dəhlizi"nin ölkəmiz üçün nə dərəcədə böyük əhəmiyyət daşıdığı daha aydın görünər.

Artıq ölkəmiz "Cənub qaz dəhlizi" meqa enerji layihəsini öz tərəfdaşları ilə başa çatdırıb, Azərbaycandan Cənubi Avropaya gedən uzunluğu 3500 kilometr olan boru kəmərləri sistemini qurub.

Azərbaycanın təbii qaz ixracı ötən il 19 milyard kubmetr idisə, bu il 24 milyard kubmetrə çatacaq. Həmçinin hər ötən il təbii qaz ixracı artan templə davam edəcək. Göründüyü kimi, ölkəmiz həm öz enerji təhlükəsizliyini etibarlı təmin edib, həm də mühüm enerji ixracatçısına çevrilib.

## Ölkəmiz bərpaolunan enerji mərkəzinə çevrilir

Respublikamızın enerji sektoru üzrə qarşıdakı hədəfi bərpaolunan enerji mərkəzlərindən birinə çevrilməsidir. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də elan edilən əsas istiqamətlərdən biri də elə budur. Çünki Azərbaycanda bərpaolunan enerji ilə bağlı böyük potensial var və ölkəmizin unikal iqlimə malik olması "yaşıl enerji"nin əldə edilməsi üçün böyük imkanlar açır.

Bununla əlaqədar Əbu-Dabi Dayanıqlılıq Həftəsinin rəsmi açılış mərasimindəki çıxışı zamanı Prezident İlham Əliyev məlumat verdi ki, quruda 27 qiqavatlıq külək və günəş enerjisi, 2020-ci ildə Vətən müharibəsi zamanı azad edilmiş ərazilərdə 10 qiqavatlıq külək və günəş enerjisi, həmçinin Xəzər dənizinin Azərbaycan sektorunda 157 qiqavatlıq külək enerjisi imkanları mövcuddur. Yəni ölkəmizdə 200 qiqavata yaxın potensial var.

Dövlət başçısı onu da vurğuladı ki, əlbəttə, bizə kifayət qədər ixrac marşrutları lazımdır. Təbii ki, biz bütün bu layihələri mərhələli şəkildə icra edirik.

Artıq bu sahədə ardıcıl şəkildə vacib layihələr həyata keçirilməkdədir. Ötən ilin yanvar ayında ölkəmizdə Səudiyyə Ərəbistanını təmsil edən "ACWA Power" şirkəti ilə 240 meqavat gücündə külək-elektrik stansiyasının təməli qoyulub.

Dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanması da bu istiqamətdə atılan mühüm addımlardandır.

## Birgə işlənmə sazişi

2022-ci il martın 15-də Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti tərəfindən Azərbaycanda inşa ediləcək 230 MVt gücündə "Qaradağ" Günəş-Elektrik Stansiyasının təməlinin qoyulması ötən il atılan daha bir uğurlu addım oldu.

Bərpaolunan enerji sahəsində Birləşmiş Ərəb Əmirliklərinin ən böyük şirkəti olan "Masdar" hazırda Azərbaycanda 230 MVt gücündə "Qaradağ" Günəş-Elektrik Stansiyası layihəsini icra edir. Stansiyanın hər il yarım milyard kilovat-saat elektrik enerjisi istehsal etməyə və atmosferə atılan tullantıların ildə 200 min tondan çox azaldılmasına imkan yaradacağı nəzərdə tutulur.

Bu il yanvarın 16-da Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfəri çərçivəsində Əbu-Dabi şəhərində Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti arasında Azərbaycan Respublikasında 2 QVt gücündə Dənizdə Külək və Hidrogen Layihələrinin işlənməsinə dair Birgə işlənmə sazişi, həmçinin 1 QVt gücündə Günəş Fotovoltaik və 1 QVt gücündə Quruda Külək Layihələrinin işlənməsinə dair Birgə işlənmə sazişi imzalanıb.

"Masdar" ilə imzalanan adıçəkilən saziş Azərbaycanla Birləşmiş Ərəb Əmirlikləri arasındakı hərtərəfli əməkdaşlığa daha bir töhfədir və digər sahələrdə olduğu kimi, bərpaolunan enerji istehsalı sahəsində də əməkdaşlıq mühüm əhəmiyyətə malik olacaq.

Əbu-Dabidəki çıxışı zamanı imzalanan sənədin mühüm əhəmiyyəti barədə danışan İlham Əliyev bildirdi ki, bu, hələ qısamüddətli bir layihədir. Ortamüddətli layihələr nəticəsində güclər 10 qiqavata qədər artırılacaq. Bu, tamamilə icra olunandır, bununla bağlı yol xəritəmiz var. Yalnız həmin layihə nəticəsində "Masdar" ilə apardığımız əməkdaşlıq Azərbaycanı "yaşıl enerji"nin çox mühüm ixrac mənbəyinə çevirəcəkdir.

Göründüyü kimi, Azərbaycan Avropanın enerji sahəsində etibarlı tərəfdaşına çevrildiyi kimi, yaxın perspektivdə "yaşıl enerji" sahəsində də qoca qitədə əsas ixracatçı ölkələrdən biri olacaq.

Dövlət başçısının söylədiyi kimi: "Azərbaycanda investisiya mühiti çox müsbətdir. Biz neft və qaz sektoruna böyük sərmayələr cəlb etmişik. İndi isə hədəfimiz bərpaolunan enerjidir. Digər sözlə, planlarımız böyükdür və əminəm ki, işlərin öhdəsindən gələcəyik".

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Əhalinin sosial müdafiəsinin gücləndirilməsi dövlətin əsas prioritetidir

## Elmin inkişafına dövlət dəstəyinin əməli ifadəsi

Müstəqillik dövründə Azərbaycanda cəmiyyət həyatının bütün sahələri ilə birlikdə, ümumiyyətlə, elmin inkişaf etdirilməsi, o cümlədən Milli Elmlər Akademiyasının fəaliyyətinin tənzimlənməsi, elmi işçilərin sosial müdafiəsinin möhkəmləndirilməsi istiqamətində dövlət səviyyəsində mühüm addımlar atılmış, ölkəmizin ziyalı potensialının genişləndirilməsi və inkişafı təmin olunmuşdur.



Prezident İlham Əliyevin bu günlərdə elm sahəsinin daha da inkişaf etdirilməsi məqsədilə imzaladığı mühüm əhəmiyyətə malik sərəncamlar yeni tarixi mərhələdə akademik cəmiyyətin və yeni elmi nəslin inkişafına dövlət dəstəyinin əməli ifadəsidir. Milli Elmlər Akademiyası Rəyasət Heyəti və Aparatının, Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzinin və Gəncə Bölməsinin əməkdaşlarının vəzifə maaşlarının artırılması elm cəbhəsində çalışan ziyalı təbəqənin sosial müdafiəsinin daha da yaxşılaşdırılması baxımından dövlət səviyyəsində atılmış növbəti əhəmiyyətli addımdır. Eyni zamanda "Elm və təhsil sahəsində 25 ildən çox iş stajı olan elmi dərəcəsi olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi" haqqındakı fərmanda dəyişiklik edilərək, təqaüdlərin elmlər doktoru elmi dərəcəsinə görə 500 manata, fəlsəfə doktorluğu elmi dərəcəsinə görə 300 manata çatdırılması isə elm sahəsində çalışan nəsillərin növbələşməsi üçün stimul yaradan mühüm qərardır. Bu, əmək pensiyası almaq yaşına çatmış elm adamlarının sosial müdafiəsinin dəstəklənməsi ilə bərabər, həm də onların ardınca gələn elmi nəsillərin inkişafına açılmış geniş meydandır. Bundan başqa, "Fəxri adlara görə aylıq təqaüdün verilməsi" qaydasının təkmilləşdirilərək, "Əməkdar elm xadimi" fəxri adını daşıyan tanınmış fədakar elm adamlarına xidmətlərinə görə əlavə ödənişlərin müəyyən edilməsi onların fəaliyyətinə dövlətimiz tərəfindən verilmiş yüksək qiymətin ifadəsidir. Akademiya cəmiyyəti elmi işçilərin əməkhaqlarının artırılmasını alimlərin fəaliyyətlərinin stimullaşdırılması ilə bərabər, həm də geniş mənada elmin inkişaf etdirilməsinə, alimlərimizin əməyinə ölkəmizin Prezidentinin göstərdiyi növbəti qayğının əməli ifadəsi kimi yüksək qiymətləndirir. Bütün bunlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin elm adamlarını cəmiyyət həyatının ön mövqelərinə çıxarmaq səylərinin geniş miqyasını real surətdə əks etdirir. Elm adamları dərindən başa düşürlər ki, Vətən müharibəsinin - Qarabağ savaşının təzə başa çatdığı, Böyük qayıdış hərəkatının çoxsaylı vəzifələrinin sürətlə həyata keçirildiyi bir vaxtda elm və təhsil sahəsi işçilərinin əməkhaqlarının və təqaüdlərinin artırılması Prezident İlham Əliyevin yeni cəmiyyət quruculuğunda elm və təhsil adamlarının fəaliyyətlərinin qiymətləndirilməsi sahəsində atdığı çox mühüm düşünülmüş addım kimi yüksək əhəmiyyətə malik hadisədir.

Elm sahəsi, xüsusən də Milli Elmlər Akademiyası üçün yeni elmi nəslin hazırlanması həmişə prioritet məsələ olduğuna görə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə verilən təqaüdlərin məbləğinin artırılması" haqqında 13 yanvar 2023-cü il tarixli sərəncamı elm sferası üzrə yüksəkixtisaslı mütəxəssislər hazırlayan bütün elm və ali təhsil müəssisələri, xüsusən də Milli Elmlər Akademiyası üçün çox mühüm əhəmiyyət kəsb edir. Dövlət başçımızın təqaüdlərlə əlaqədar sərəncamında öz əksini tapmış göstəricilər doktorantura təhsili alan yeni nəslin nümayəndələrinin fəaliyyətlərini davam etdirmələrinə münasib imkan yaratmağa xidmət edir. Beləliklə, dövlət səviyyəsində atılan addımlar ölkəmizdə elmə gənc qüvvələrin gəlməsinin miqyasını genişləndirəcəkdir. Bu isə elm sahəsində qocalma prosesləri ilə əlaqədar yaranmış çətinliklərin aradan qaldırılmasına və elmdə gəncləşmə hərəkatının başlanmasına təkan verəcəkdir.

Göründüyü kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin elm və ali təhsil müəssisəsi işçilərinin sosial müdafiəsinin daha da yaxşılaşdırılması haqqındakı mühüm əhəmiyyətə malik olan sərəncamları ölkəmizdə elmin inkişafına göstərilən böyük dövlət qayğısı və dəstəyinin əməli ifadəsidir. Qəbul edilmiş qərarlar Azərbaycanda elmin inkişafında yeni bir mərhələnin başlanmasına özünün müsbət təsirini göstərəcəkdir. Prezident sərəncamları elmi işçilərin sosial müdafiəsinin daha da yaxşılaşdırılması ilə bərabər, həm də geniş mənada ölkəmizdə elmi işçilərin, alimlərimizin, xüsusən Milli Elmlər Akademiyasının nüfuzunun daha da artırılmasına səbəb olacaqdır. Azərbaycan elmi ictimaiyyəti möhtərəm Prezidentin elmin, alimlərin, Milli Elmlər Akademiyasının inkişaf etdirilməsi istiqamətində imzaladığı sərəncamları, qəbul etdiyi qərarları, atdığı əməli addımları yüksək qiymətləndirirlər.

Bütün bunlara görə ölkəmizin çoxminli elm adamları, habelə Milli Elmlər Akademiyasının kollektivi adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə elmi ictimaiyyətin dərin minnətdarlığını çatdırmağı özümə şərəfli borc hesab edirəm. Dövlət başçımızı əmin etmək istəyirəm ki, bütövlükdə Azərbaycan alimləri, o cümlədən Milli Elmlər Akademiyasının kollektivi bundan sonra da ölkə rəhbərimizin ətrafında sıx birləşəcək və imzaladığı sərəncamlarda öz əksini tapmış yüksək dövlət qayğısına əməli işləri ilə cavab vermək üçün bütün qüvvələri səfərbər edəcəkdir.

***İsa HƏBİBBƏYLİ,***
***AMEA-nın prezidenti, akademik, Milli Məclisin deputatı***

## "Azərbaycanda pensiya islahatlarına dəstək - Faza 2" tvininq layihəsinə başlanılıb





Avropa İttifaqının (Aİ) "Azərbaycanda pensiya islahatlarına dəstək - Faza 2" tvininq layihəsinin açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, mərasimdə əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, Aİ-nin ölkəmizdəki səfiri Peter Mixalko, Litvanın sosial təminat və əmək nazirinin müavini Martinas Sürkus və həmin ölkənin Azərbaycandakı səfiri Egidijus Navikas, digər rəsmi şəxslər və beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər.

S.Babayev Prezident İlham Əliyevin uğurlu sosial islahatlar proqramının pensiya təminatı sistemini də əhatə etdiyini vurğulayıb. O, son beş ildə Azərbaycanda artıq dördüncü sosial islahat paketinin icra olunduğunu, bu ilin əvvəlindən əməkhaqqı və sosial ödənişlərdə növbəti artımlar edildiyini qeyd edib. Son beş ildə sosial ödənişlərdəki artımları, o cümlədən minimum pensiyada 2,5 dəfə, orta aylıq pensiyada 80 faiz artıma nail olunduğunu diqqətə çatdırıb.

Nazir pensiya sistemində humanist yanaşmaların tətbiqi, sosial təminatın əhatə dairəsinin genişləndirilməsi istiqamətində atılan addımları qeyd edib. O, 2019-cu ilin əvvəlindən pensiya, müavinət və təqaüdlərin avtomatlaşdırılmış qaydada proaktiv təyinatına başlandığını, ötən dövrdə həmin sosial təminat növləri üzrə 500 min, o cümlədən pensiya üzrə 71 min proaktiv təyinatın həyata keçirildiyini bildirib.

Azərbaycan və Aİ arasında münasibətlərin uğurla inkişaf etdiyini diqqətə çatdıran nazir birgə həyata keçirilən layihələrin sosial müdafiə, tibb-sosial reabilitasiya, sığorta-pensiya, məşğulluq sahələrində islahatların aparılması üzrə nazirliyin potensial imkanlarının artırılmasına xidmət etdiyini deyib.

"Azərbaycanda pensiya islahatlarına dəstək" tvininq layihəsinin aparılan islahatlara önəmli dəstək olduğunu vurğulayan S.Babayev layihənin ikinci fazasının da ölkəmizdə pensiya sisteminin Avropanın qabaqcıl təcrübələri əsasında təkmilləşdirilməsinə töhfə verəcəyinə əminliyini bildirib.

Peter Mixalko, Egidijus Navikas, Martinas Sürkus və başqaları çıxış edərək Aİ tərəfindən maliyyələşdirilən və iki il davam edəcək "Azərbaycanda pensiya islahatlarına dəstək - Faza 2" tvininq layihəsinin əhəmiyyətindən bəhs ediblər. Layihənin pensiya sahəsində islahatlar prosesində öz rolunu oynayacağı vurğulanıb.

Bildirilib ki, "Azərbaycanda pensiya islahatlarına dəstək" tvininq layihəsi ümumilikdə ölkəmizdə pensiya sisteminin rəqəmsallaşdırılması və bu sistemin uzunmüddətli inkişafı üçün sığorta-pensiya sisteminin fəaliyyətinin aktuar modellər əsasında təkmilləşdirilməsi və s. ilə bağlı əməli tədbirlərin hazırlanaraq tətbiq edilməsini nəzərdə tutur.

Layihənin Litvanın Sosial Təminat və Əmək Nazirliyi ilə əməkdaşlıqda həyata keçiriləcəyi qeyd olunub.

Tədbirdə layihənin müvafiq komponentləri üzrə məlumatlar verilib, təqdimatlar edilib.

## Sosial sahədə mütərəqqi islahatlar

### Dövlətin vətəndaşa qayğısı Azərbaycan iqtisadiyyatının dayanıqlılığının möhkəm təməllər üzərində qurulduğunu bir daha təsdiqləyir

Prezident İlham Əliyevin əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində verdiyi sərəncam və fərmanlar son beş ildə həyata keçirilən dördüncü sosial islahatlar paketinin icrasına əsas verir. Demək olar ki, hər yeni ilin başlanğıcında sosial məsələlərin dövlətin əsas prioritetlərindən biri olduğunu görürük.

Bu il də dövlət başçısının fərmanları ilə pensiya, müxtəlif istiqamətdə təqaüdlər və müavinətlər artırıldı. Artıq bəzilərinin ödənilməsinə bu aydan başlanılıb, gələn aydan isə digər ödəmələr təmin ediləcək. Bu da bir çox istiqamətdə vətəndaşların sosial təminatının yaxşılaşmasına səbəb olacaq.

### Böyük sosial layihələr icra olunur

Milli Məclisin deputatı Kamilə Əliyeva qəzetimizə açıqlamasında deyib ki, Azərbaycan dünyada müstəqil xarici və iqtisadi siyasət yürüdən az dövlətlərdəndir. Deputatın sözlərinə görə, müharibədə qazandığımız şanlı qələbə bütün dünyaya Azərbaycanın iqtisadi və siyasi cəhətdən güclü bir dövlət olduğunu təsdiqlədi. Bu gün dünyada baş verən ərzaq qıtlığı və bunun nəticəsində yaranan kəskin bahalaşma ölkəmizdən də yan keçməyib. Amma dövlətimiz bunu qarşılamaq üçün lazımi tədbirlər görür.

Kamilə Əliyeva deyib ki, Prezident İlham Əliyev tərəfindən həyata keçirilən sosial islahatlar Azərbaycan vətəndaşlarının bu böhranlı vəziyyətdə əziyyət çəkməməsinə xidmət edir: "İşğaldan azad etdiyi ərazilərini yenidən qurmaqla yanaşı, böyük sosial layihələrin reallaşdırılması onu göstərir ki, Azərbaycan iqtisadiyyatı dayanıqlı və möhkəm təməllər üzərində qurulub. Bu gün Azərbaycanla dünyanın ən böyük maliyyə institutlarından olan Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı arasında böyük iqtisadi əlaqələr qurulub. Bunun sayəsində ölkəmizdə nəhəng layihələr başa çatdırılmaqdadır və yeni layihələr barədə müzakirələr aparılır. Bu, dövlətimizə və dövlət başçımıza olan inam və etibarın nümunəsidir".

Deputatın sözlərinə görə, iqtisadi və sosial layihələri paralel apara bilməyən ölkələrdə insanların iqtisadi islahatlardan əziyyət çəkdiyi sübut olunmuş bir faktdır. Prezident İlham Əliyev tərəfindən iqtisadi və siyasi layihələr paralel aparılır, sosial islahatların uğurla aparılması sayəsində əhalinin qiymət artımından əziyyət çəkməsinin qarşısı alınır.

"Bu gün inkişaf etmiş bütün Qərb ölkələrində inflyasiya səviyyəsi 1,5 faizdən 10 faizə qədər yüksəlib. Azərbaycan iqtisadiyyatı da dünya iqtisadiyyatının bir parçası olduğundan ölkəmizdə də inflyasiya səviyyəsində artım var. İnflyasiya Azərbaycana idxal olunan malların üzərindədir və bunun qarşısının alınması üçün zəruri addımlar atılır. Əhalinin sosial vəziyyətini yaxşılaşdırmaq istiqamətində ölkəmizdə minimum əməkhaqqı, pensiyalar, sosial müavinətlər artırılıb. Minimum əməkhaqqının məbləği 15 faiz artırılaraq 345 manata çatdırılıb. Həmçinin müxtəlif istiqamətdə Prezident təqaüdləri, tələbələrin təqaüdləri, pensiya məbləğləri artırılıb. Bundan əlavə, 2023-cü ildə ilk dəfə olaraq Azərbaycanda orta aylıq əməkhaqqı 900 manatdan çox olacaq", - deyə K.Əliyeva qeyd edib.

O vurğulayıb ki, şəhid ailələrinə və müharibə əlillərinə hər zaman dövlətimiz xüsusi qayğı ilə yanaşır, bu təbəqədən olanlar mənzillərlə təmin olunur, onlara ayrılan sosial ödənişlərin məbləği artırılır və bu proses davamlı xarakter daşıyır.

### Sosial təminatın yaxşılaşdırılmasına yönələn ciddi sosial paketlər qəbul edilib

İqtisadçı ekspert Eldəniz Əmirov qəzetimizə açıqlamasında Prezident İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsində 2023-cü ildə əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması ilə bağlı mühüm qərarların veriləcəyini bildirdiyini xatırlatdı. Ekspert deyib ki, dövlət başçısı müsahibədən sonra sosial cəhətdən həssas olan insanların maddi rifahının yüksəlməsinə imkan verəcək ardıcıl fərmanlar imzaladı.

Onun sözlərinə görə, hazırda dünyanı bürümüş inflyasiyanın əsas səbəbi COVID-19-la başlayıb və müharibə ilə daha da dərinləşmiş iqtisadi böhrandır. Azərbaycanın da iki ildir pandemiya ilə mübarizə apardığını deyən ekspert bildirdi ki, bu dövrdə vətəndaşların iqtisadi və sosial təminatının yaxşılaşdırılmasına yönələn ciddi sosial paketlər qəbul edilib, dövlət büdcəsindən milyardlarla manat vəsait ayrılıb: "2023-cü ilin dövlət büdcəsi qəbul edilərkən yenə iki istiqamət prioritet olaraq qəbul edilib. Bunlardan biri işğaldan azad edilmiş ərazilər, digəri isə əhalinin sosial rifahıdır. Buna görə də büdcənin 46 faizdən çox hissəsini məhz sosialyönümlü xərclər təşkil edir. İlin əvvəlində dövlət başçısının imzaladığı fərmanlara əsasən, minimum aylıq əməkhaqqı 15 faiz artırılaraq 345 manata, əmək pensiyasının minimum məbləği isə 280 manata qaldırıldı. Bu isə 16,7 faiz artım deməkdir. Göründüyü kimi, minimum pensiyanın artım faizi minimum əməkhaqqının faizini də üstələyib".

E.Əmirov qeyd edib ki, Prezidentin fərmanları 7 müxtəlif istiqamət üzrə sosial müavinətləri də artırıb. Buraya həm orqanizmin fəaliyyətini itirməyə görə, yəni əlillik dərəcələri üzrə, həm yaşa, ailə başçısını itirməyə, bir yaşına qədər uşağı olan aztəminatlı ailələrə ödəniş üzrə, həm də uşağın anadan olmasına görə və digər istiqamətlər üzrə sosial müavinətlər daxildir. O vurğulayıb ki, digər bir fərmanla şəhid ailələri üçün Prezident təqaüdünün məbləği artırılıb ki, bu da onlara ölkə rəhbərliyinin xüsusi münasibətinin göstəricisidir.

"Təhsilə əlçatanlığın yaxşılaşdırılması, tələbələrin xərclərinin qarşılanması üçün vacib addımlardan biri tələbə təqaüdlərinin artırılması idi. Prezident İlham Əliyevin digər fərmanı ilə bakalavr, magistratura, doktorantura səviyyəsi üzrə, həmçinin orta ixtisas təhsili və peşə təhsili müəssisələrində təhsil alanların da təqaüdləri artırıldı. Ölkəmizdə peşə təhsilinin inkişafına çox böyük ehtiyacın olduğunu nəzərə alsaq, bu sahəni seçən tələbələrin də bu fərmandan yararlana bilmələri müsbət haldır", - deyə ekspert qeyd edib.

İqtisadçı deyib ki, dövlət başçısının imzaladığı digər fərman isə 17 istiqamət üzrə olan müxtəlif dövlət qurumlarında çalışan insanların əməkhaqlarının artırılmasıdır. Eldəniz Əmirovun fikrincə, artımlar arasında ən önəmli istiqamət yeni doğulan uşağa görə ödənilən vəsaitdir. Bu məbləğ 300 manatdan 500 manata çatdırılıb: "Bu isə bütün artım göstəricilərini üstələyən 66,7 faizlik artım deməkdir. Növbəti dövrdə də əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində müxtəlif sosial tədbirlərin görülməsi və ödənişlərin artırılması ilə bağlı Prezidentin fərmanlarını görəcəyik".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Həm maddi dəstək, həm də mənəvi dayaq

Prezidentimiz İlham Əliyevin son günlər imzaladığı fərman və sərəncamlar bizim dağlar qoynundakı kəndimizdə də böyük razılıqla qarşılanıb. İşimizdən, sənətimizdən asılı olmayaraq hər birimiz bu sənədləri diqqətlə oxuyur və görürük ki, yeni sosial paket bizim camaatın dolanışığına da xeyli dəstək verəcək.

Kəndimizdə pensiyaçılar da, idarə və təşkilatlarda işləyənlər də, övladları ali məktəb tələbələri olanlar da var. Bu baxımdan yanaşanda demək olar ki, kənddə hər bir ailə həmin dəstəkdən yararlanacaq.

Biz isə şəhid ailəsiyik. Kəndimizdə digər səhid ailələri də yaşayır. Daim dövlətin diqqət və qayğısını hiss edirik. Oğlum Elburus Yusifov peşəkar hərbçi idi. 2020-ci ilin iyul ayında Tovuzdakı döyüşlər zamanı şəhidliyin bir addımlığında dayanmışdı. Amma şəhadətə bir neçə ay bundan sonra, Vətən müharibəsində - Murovdağ zirvəsində qovuşdu. Elburusun atası Şəmsi müəllim, həyat yoldaşı Günay, bir cüt oğul balası - Elmdar və Şəmsi, qardaşı Hikmət və bizim böyük ailəmizlə birlikdə bütün el-oba Elburusla qürur duyur. Dövlətimizin şəhidlərin xatirəsinə ehtiramla yanaşması bizə böyük mənəvi təskinlik, təsəllidir. Dolanışığımız da dövlətin nəzərindədir. Hər bir şəhid ailəsinin vəziyyəti öyrənilir, ehtiyacları xəbər alınır. Məsələn, bizim ailədən gəlinim Günay işlə təmin olundu.

İndi isə şəhid ailəsi üçün Prezident təqaüdü artırılıb. Bunu həm maddi, həm də mənəvi dəstək kimi qəbul edirik. Biz bilirik ki, indi dünya çətin bir durumda yaşayır. Dövlət başçısının müdrikliyi ilə ölkəmiz dövrün bütün çətinliklərindən çıxa bilir. Çox minnətdarıq Prezidentimizə. Böyük miqyaslı işlər gördüyünə, o cümlədən azad olunmuş ərazilərimizi yenidən tikib-qurduğuna baxmayaraq, şəhid ailələrini yaddan çıxarmır. Elə budəfəki sosial paketdə də bizlər birincilər sırasında əhatə olunmuşuq.

***Kifayət YUSİFOVA,***
***şəhid anası, Tovuz rayonu Ağdam kəndi***

## Səfir: "Avropa İttifaqı sosial təminatın inkişafı sahəsində Azərbaycana bundan sonra da dəstək verəcək"

"Avropa İttifaqı sosial təminatın inkişafı sahəsində Azərbaycana bundan sonra da dəstək verəcək".



AZƏRTAC xəbər verir ki, bunu Avropa İttifaqının (Aİ) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Peter Mixalko "Azərbaycanda pensiya islahatlarına dəstək - Faza 2" Avropa İttifaqının tvininq layihəsinin açılış mərasimində deyib.

Səfir bildirib ki, layihənin birinci mərhələsi 2017-2019-cu illərdə həyata keçirilib: "Bu layihə sosial təminat sahəsində əməkdaşlığımızın çoxsaylı nümunələrindən biridir. İndi bu, bizim üçün prioritet sahələrdən biridir. Aİ-nin bu sahədə təcrübəsini bölüşməkdən çox məmnunuq". Dayanıqlı pensiya sisteminin sosial sabitliyin təməllərindən biri olduğunu deyən P.Mixalko hesab edir ki, bu layihənin həyata keçirilməsi sosial təminatın inkişafını göstərir və Aİ bu məsələdə bundan sonra da Azərbaycana dəstək verəcək.

"Azərbaycanda pensiya islahatlarına dəstək" tvininq layihəsi ümumilikdə ölkəmizdə pensiya sisteminin rəqəmsallaşdırılması və bu sistemin uzunmüddətli inkişafı üçün sığorta-pensiya sisteminin fəaliyyətinin aktuar modellər əsasında təkmilləşdirilməsi və s. ilə bağlı əməli tədbirlərin hazırlanaraq tətbiq edilməsini nəzərdə tutur.

Layihə Litvanın Sosial Təminat və Əmək Nazirliyi ilə əməkdaşlıqda həyata keçiriləcək.

# Vətəndaş cəmiyyəti nümayəndələri və ictimai fəallar ekoloji cinayətə və qanunsuz istismara etirazlarını davam etdirirlər

## İspandilli mətbuat Laçın-Xankəndi yolunda ekofəalların etiraz aksiyasından yazıb

İspaniyanın "EFE" xəbər agentliyi, "swissinfo.ch" portalının ispandilli versiyası, həmçinin Argentinanın "infobae" saytında Laçın-Xankəndi yolunun Şuşa ərazisindən keçən hissəsində ekofəalların etiraz aksiyası barədə materiallar dərc olunub.


infobae

AGENCIAS

Azerbaiyanos que bloquean un corredor en el Karabaj: "No nos detendrá nada"

Por Newsroom Infobae

16 de Enero de 2023

Farid Gajramánov

Shushá (Azerbaiyán), 16 ene. "No nos detendrán ni el frío, ni la nieve", afirma a EFE el activista Torgul Alajverdiev, uno de decenas de manifestantes azerbaiyanos que bloquean desde hace un mes el corredor de Lachín en protesta por la explotación de minas por parte de Armenia en el Karabaj.

"Si es necesario, estaremos aquí cinco o seis meses", añade el activista, quien dirige un movimiento juvenil azerbaiyano. Bloquea junto a

swissinfo.ch

Azerbaiyanos que bloquean un corredor en el Karabaj: "No nos detendrá nada"

16 enero 2023 - 13:07

Farid Gajramánov

Shushá (Azerbaiyán), 16 ene (EFE).- "No nos detendrán ni el frío, ni la nieve", afirma a EFE el activista Torgul Alajverdiev, uno de decenas de manifestantes azerbaiyanos que bloquean desde hace un mes el corredor de Lachín en protesta por la explotación de minas por parte de Armenia en el Karabaj.

"Si es necesario, estaremos aquí cinco o seis meses", añade el activista, quien dirige un movimiento juvenil azerbaiyano. Bloquea junto a decenas de personas la única vía de acceso entre Armenia y

AZƏRTAC xəbər verir ki, azərbaycanlı fəallardan biri Toğrul Allahverdiyev "EFE"yə açıqlamasında bildirib: "Nə soyuq, nə də qar bizi dayandıra bilməz. Lazım gələrsə, biz daha çox burada qalacayıq".

"EFE" agentliyi yazır ki, Rusiya sülhməramlı kontingentinin təminat-təchizat, Beynəlxalq Qızıl Xaç Komitəsinin avtomobillərinin və Ermənistana ağır xəstələri aparan təcili tibbi yardım maşınlarının aksiya ərazisindən keçidi sərbəstdir.

Toğrul Allahverdiyev vurğulayıb ki, yol Qarabağda yaşayan mülki erməni vətəndaşlar üçün açıqdır, onlara qarşı heç bir etiraz yoxdur.

"Regional İnkişaf" İctimai Birliyinin üzvü Sima Məlikova deyib ki, aksiya dinc xarakter daşıyır. Aksiyaçıların tələbləri sadədir. Onlar ölkəmizin təbii resurslarının, "Qızılbulaq" və "Dəmirli" yataqlarının qeyri-qanuni istismarının dayandırılmasını istəyirlər.

Azərbaycan Ekologiya və Təbii Sərvətlər Nazirliyinin nümayəndəsi Amin Məmmədov isə bildirib ki, Qarabağdakı qızıl, mis və molibden yataqlarının qanunsuz istismarı Qarabağın ekologiyasına ciddi ziyan vurur.

Yazılarda həmçinin qeyd olunur ki, dekabrın 12-də ekofəallar Rusiya sülhməramlılarının azərbaycanlı mütəxəssisləri həmin ərazidə yerləşən və Ermənistan tərəfindən qanunsuz istismar edilən mədənlərə çatdıra bilməməsi səbəbindən Şuşa şəhərinin ərazisindən keçən Laçın-Xankəndi yolunda dinc aksiyaya başlayıblar. Aksiya təkcə Azərbaycanın təbii sərvətlərinin talan edilməsinə qarşı deyil, həm də ətraf mühitə ziyan vurulmasına qarşı yönəlib. Çünki yataqların qanunsuz istismarı ekoloji təhlükəsizlik qaydaları nəzərə alınmadan həyata keçirilir.

Məqalələrdə qeyd olunur ki, fəallar Xankəndidən təxminən on kilometr aralıda, Şuşa şəhəri yaxınlığından keçən dəhlizin bir hissəsində düşərgə salıblar. Onlar Azərbaycan bayraqlarını, rus və ingilis dillərində "Ekoloji cinayətlərə son", "Azərbaycan birdir, öz sərvətinə sahibdir!", "Təbiəti qoruyaq, istismarı pisləyək!" şüarları yazılmış plakatlar qaldırırlar.

## *Aksiyanın 37-ci günü:* Etirazçıların qətiyyəti də tələbkarlıqları kimi sərtdir











Azərbaycanlı ekofəalların Şuşa ərazisindən keçən Laçın-Xankəndi yolunda təşkil etdikləri etiraz aksiyası 37 gündür yüksək vətənpərvərlik əhvali-ruhiyyəsində davam edir.

AZƏRTAC xəbər verir ki, aksiya iştirakçıları Qarabağda yerləşən faydalı qazıntı yataqlarının erməni separatçıları tərəfindən qanunsuz istismarına yox deyir, tələblərin dərhal yerinə yetirilməsini istəyirlər.

Həmişəki kimi, fəallar bu səhəri də Dövlət himninin səsləndirilməsi ilə açıblar, vətənpərvərlik ruhunda mahnılar ifa ediblər.

Aksiyanın məramı əvvəlki kimi dəyişməz olaraq qalır. Etirazçılar qaldırdıqları plakatlarda üzərində rus və ingilis dilində yazılmış "Sərvətlərimizin talanı dayansın!", "Təbiəti qoruyaq, istismarı qınayaq!", "Təbiətin milləti yoxdur!", "Azərbaycan milləti qoruyacaq sərvəti!", "Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!", "Sərvətimiz bölünməz, heç bir kəsə verilməz!", "Azərbaycan vahiddir, sərvətinə sahibdir!", "Ekocinayətə son!" kimi şüarlar səsləndirirlər. Aksiya iştirakçılarının dinamik və coşqulu görünmələri onların məqsədlərinin aydın olduğunu göstərir. Etirazçıların qətiyyəti də tələbkarlıqları kimi sərtdir.

Aksiya zamanı təhlükəsizlik qaydalarına əməl olunur, neqativ təmas və ya insident halları yoxdur. Aksiyanın keçirildiyi yol humanitar və təchizat yüklərinin daşınması, habelə mülki nəqliyyat vasitələrinin hərəkəti üçün açıqdır.

Xatırladaq ki, ötən il dekabrın 3-də və 7-də Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə aparılmış müzakirələrin nəticəsi olaraq Azərbaycanın İqtisadiyyat, Ekologiya və Təbii Sərvətlər nazirlikləri, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı ilkin monitorinq aparmalı idi. Lakin sülhməramlıların hərəkətsizliyi ucbatından monitorinq baş tutmayıb. Buna etiraz olaraq, azərbaycanlı ekofəallar Şuşa ərazisindən keçən Laçın-Xankəndi yolunda dekabrın 12-dən dinc aksiyaya başlayıblar.

## Ekoloqların mübarizəsi beynəlxalq tələblər çərçivəsində aparılır

Qarabağ iqtisadi rayonunda faydalı qazıntı yataqlarının qanunsuz istismarına qarşı Xankəndi-Laçın yolunda ötən il dekabrın 12-dən vətəndaş cəmiyyətinin başladığı etiraz aksiyası 38 gündür davam edir.





Hazırda havaların soyuq və şaxtalı keçməsinə baxmayaraq, dinc etirazçılara qoşulanların sayı gündən-günə artır. Ekofəallar və gənc könüllülər dəyişməz şüarları ilə Azərbaycan cəmiyyətinin haqlı narazılığını dilə gətirir, ekoloji terrora son qoyulmasını, faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılmasını tələb edirlər. Ekoloqlar monitorinq qruplarının yataqların yerləşdiyi ərazilərə buraxılmasına qərar veriləndək aksiyanı davam etdirəcəklərini bildirirlər.

Yanvarın 10-da Prezident İlham Əliyevin yerli telekanallara müsahibəsi zamanı aksiya iştirakçıları ilə bağlı dediyi "İlk növbədə o gənclərə eşq olsun!" dəstəyindən sonra aksiya keçirilən ərazidə canlanma daha çox müşahidə edilir. Prezidentin dəstəyi onların əzmini, əhvali-ruhiyyəsini daha da artırıb. Fəallar bu haqlı aksiyanın uğurla yekunlaşacağına əmindirlər.

Ermənistan bu aksiyanı dünya ictimaiyyətinə guya Xankəndidə yaşayan ermənilərin blokadaya alınması kimi təqdim edir. Ermənistan mətbuatı, eləcə də siyasi rəhbərliyi səslərinin gur yerinə salaraq dünya birliyinə yalan informasiya ötürərək, etirazçıların guya yolu bağladıqlarını və təminat avtomobillərini buraxmadıqlarını bildirsələr də, bu, fiaskoya uğradı. Aksiya keçirilən əraziyə xarici ölkələrdən gəlmiş jurnalistlər də gördülər ki, Rusiya sülhməramlılarına, eləcə də Beynəlxalq Qırmızı Xaç Komitəsinə məxsus avtomobillər buradan maneəsiz hərəkət edirlər. Laçın-Xankəndi yolunda humanitar məqsədli maşınların keçidi üçün heç bir məhdudiyyət yoxdur. Aksiya başlayandan bu günədək heç bir dinc erməninin Xankəndiyə gediş-gəlişinə maneə törədilməyib. Əksinə, ekofəallar sadə ermənilərin gündəlik yaşamlarında hər hansı bir məhdudiyyətin yaranmasına, Ermənistandan Xankəndiyə dərman preparatları, tibbi ləvazimat, ərzaq məhsulları daşınan avtomobillərin sərbəst hərəkətinə imkan yaradıblar. Aksiya iştirakçılarının etirazları sadəcə separatçıların, qanunsuz erməni hərbi birləşmələrinin Laçın yolundan istifadəsinin qarşısını almağa, ekoloji terroru dayandırmağa yönəlib.

Ədalət tələbli bu aksiyanın səsi artıq dünyanın dörd bir tərəfindən də eşidilir. Belə ki, Brüssel Azərbaycan Evi və Belçika Azərbaycanlıları Federasiyasının birgə təşkilatçılığı ilə Avropa Parlamentinin qarşısında erməni ekoloji terroruna etiraz əlaməti olaraq dinc aksiya keçirilib. Aksiyada diaspor fəalları Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazisində faydalı qazıntı yataqlarının qeyri-qanuni istismarına etirazlarını bildiriblər. Aksiya zamanı "Azərbaycanın təbii sərvətlərinin talanmasına etiraz edirik!", "Erməni ekosidinə son!", "Azərbaycan ərazilərində ekoloji terroru dayandırın!" tələblərinin əks olunduğu plakatlar nümayiş etdirilib. Bu addımla diaspor fəalları Laçın-Xankəndi yolunda aksiya keçirən azərbaycanlı ekofəallar, vətəndaş cəmiyyəti nümayəndələri və könüllüləri ilə həmrəy olduqlarını bəyan ediblər.

Məlumdur ki, ermənilər ölkəmizin şirin su mənbələrini də çirkləndirirlər. Belə ki, içməli su hövzələrinə zavod və fabriklərin tullantılarını axıdırlar. Ermənilərin 30 ildən artıq davam edən bu kimi özbaşınalığı nəticəsində Qarabağ iqtisadi rayonunda təbiətə ciddi ziyan dəyib. Aksiya iştirakçıları bu məsələyə də diqqət çəkərək dəymiş bütün ziyanın hesablanması üçün ərazidə monitorinq keçirilməsini zəruri hesab edirlər.

Beynəlxalq münasibətlər üzrə analitik M.Dəmirov mətbuata açıqlamasında bildirir ki, bu həm də sivilizasiyaların problemidir: "Çünki təbii sərvətlər, ekologiya anlayışı ümumidir, bütün dünya ölkələrini narahat etməlidir. Ekoloji terror başqa bir ölkədə baş versəydi, yəqin ki, beynəlxalq münasibətlər də fərqli olardı. Ekofəalların inadkarlığı hadisələrin genişlənməsinə sözsüz təsir edir. Cənab Prezidentin aksiyada iştirak edən gənclərin mövqeyini yüksək qiymətləndirməsi, xarici media təmsilçilərinin aksiya keçirilən əraziyə ezamı buna bariz nümunədir".

Görünən odur ki, Laçın-Xankəndi yolunda nəzarət-buraxılış məntəqəsinin yaradılmasına böyük ehtiyac var. Necə ki digər sərhədlərimizdə gömrük postları var, ölkəyə gətirilən və çıxarılan məhsullar yoxlanılır, həmçinin Laçın-Xankəndi yolunda da belə məntəqə olmalıdır. Belə məntəqənin yaradılması hazırda etirazçıların tələblərindən birinə çevrilib. O ərazilər Azərbaycanındır və yola Azərbaycan dövləti nəzarət etməlidir. Bu, ölkəmizin beynəlxalq səviyyədə tanınmış hüququdur.

Artıq dünya ictimaiyyətinə də yaxşı məlumdur ki, aksiyaçılar Qarabağda ekoloji fəlakətin mütləq şəkildə dayandırılması tələbini irəli sürürlər. Buna görə də talanan mədənlərə baxış keçirilməli, araşdırmalar aparılmalıdır. Çünki Qarabağda talançılıq əməlləri ətraf mühitə də mənfi təsir göstərir. Davam edən ekoloji terror, separatçılıq, ümumilikdə, ölkəmiz üçün ziyanla nəticələnir, digər tərəfdən, işğaldan azad edilmiş ərazilərdə abadlıq-quruculuq işlərinin ləngiməsinə səbəb olur. Gedən proseslər oradan didərgin salınmış Azərbaycan vətəndaşlarının hüquq və azadlıqlarının kobud şəkildə pozulmasıdır. Bu həm də Azərbaycan iqtisadiyyatına zərbədir. Buna görə Azərbaycan hökuməti və aidiyyəti qurumlar beynəlxalq təşkilatları mövcud vəziyyət barəsində doğru məlumatlandırır, ermənilərin üzv olduğu təşkilatlara bölgədəki özbaşınalıqlarla bağlı rəsmi müraciətlər ünvanlayır, Vardanyan və onun kimilərinin qeyri-qanuni əməllərinə son qoyulmasını tələb edir.

Bütün bunlar onu göstərir ki, Azərbaycan xalqı hər zaman mübarizəsini və tələblərini insani dəyərlər, habelə beynəlxalq qanunlar çərçivəsində aparır.

***Rəhman SALMANLI, "Azərbaycan"***

## Sülhməramlıların avtomobilləri aksiya ərazisindən sərbəst keçib









Həmişə olduğu kimi, Rusiya sülhməramlılarına aid təminat avtomobilləri Laçın-Xankəndi yolunda təşkil olunan aksiya ərazisindən sərbəst hərəkət edirlər. Laçından Xankəndi istiqamətində hərəkət edən sülhməramlılara aid iki minik avtomobilinin sərbəst keçidi təmin olunub.

* * *

Aksiyanın 37-ci günündə də Laçından Xankəndi istiqamətinə doğru hərəkət edən sülhməramlılara aid bir minik və 6 yük avtomobilinin sərbəst keçidi təmin olunub.

* * *

Laçın-Xankəndi yolunda dinc şəkildə davam edən aksiyanın 37-ci günündə də Rusiya sülhməramlılarına aid avtomobillər aksiya ərazisindən sərbəst hərəkət edə bilirlər.

Xankəndidən Laçın istiqamətinə doğru hərəkət edən sülhməramlılara aid iki zirehli və bir yük avtomobilinin sərbəst keçidi təmin olunub.

Bu, bir daha onu göstərir ki, aksiya iştirakçıları humanitar məqsədlərlə istifadə olunan avtomobillərin hərəkətinə heç bir maneə törətmirlər. Ermənistan mətbuatında yayılan və etirazçıların guya Xankəndi-Laçın yolunu bağladıqları və təminat avtomobillərini buraxmadıqları ilə bağlı xəbərlər qarşı tərəfin növbəti dezinformasiyasıdır.

Xatırladaq ki, azərbaycanlı ekofəallar Qarabağda faydalı qazıntı yataqlarının istismarına qarşı Şuşa ərazisindən keçən Laçın-Xankəndi yolunda ötən il dekabrın 12-dən dinc aksiyaya başlayıblar.

***AZƏRTAC***

## Yataqların qanunsuz istismarı ilə bağlı danışıqlar hələ ki, heç bir nəticə verməyib

### Əsasən iri qızıl və mis yataqlarında ciddi istismar işləri aparılıb

Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazilərdə yataqların qanunsuz istismarına etiraz olaraq başlanan aksiya davam edir. Hazırda bununla bağlı danışıqlarda hər hansı bir nəticə əldə olunmayıb.



AZƏRTAC xəbər verir ki, bunu Geoloji Kəşfiyyat Agentliyinin İdarə Heyətinin sədri Əli Əliyev yanvarın 17-də keçirilən mətbuat konfransında deyib.

Ə.Əliyev bildirib ki, işğal dövründə Ermənistan və onun xarici havadarları əsasən iri yataqların istismarı ilə məşğul olublar. Beynəlxalq konvensiyalar və Azərbaycan Respublikasının qanunları pozularaq ölkəmizin ərazisində mineral xammal ehtiyatlarının istismarı aparılıb. Burada əsasən 30-a yaxın ölkənin şirkətləri iştirak edib. Bunlar Kanada, Avstraliya, ABŞ, İngiltərə, Almaniya, İsveçrə, Rusiya, Hindistan kimi ölkələrin şirkətləridir. Mineral xammal ehtiyatları qanunsuz istismar edilərək Ermənistana və oradan xarici ölkələrə daşınıb.

"Əsasən iri qızıl və mis yataqlarında ciddi istismar işləri aparılıb. Həmin yataqlar Kəlbəcər rayonu ərazisindəki "Söyüdlü" və "Qızılbulaq" qızıl yataqları, Tərtər rayonu ərazisindəki "Dəmirli" mis yatağı, eyni zamanda Zəngilan rayonu ərazisindəki "Vejnəli" qızıl yatağıdır. Burada əsasən "Sterlite Gold" LTD, "Base Metals" LTD, "First Dynasty Mines" LTD, "GeoproMining Gold" Company, "Armenian Copper Program", "Vallex Group", "Global Gold", "Vedanta Resources" şirkətləri fəaliyyət göstərib", - deyə Ə.Əliyev qeyd edib.

# REGİONLAR

## 20 Yanvar - Ümumxalq Hüzn Günü

# Qubada da qanlı izi qalan 20 Yanvar gecəsi

Yanvar ayı başlayanda hamının yaddaşı bir qədər geriyə - 1990-cı ilə köklənir. 20 Yanvarın qəmi, kədəri və qüruru hər bir azərbaycanlının növbəti dəfə xatirəsinə hökm kəsilir. İçimizdə daim yaşayan həmin gündən bizə qalan mərdlik, qeyrət, azadlıq hissi bir daha baş qaldırır.

20 Yanvar şəhidlərinin dördü qubalıdır. Onların hər birinin yaşı kiçik fərqlə bir-birinə yaxındır. Eyni illərin adamları olan qubalı şəhidlər haqq dünyasında da bir yerdədirlər.

**Raqif Hüseynov** Qubada doğulub böyümüşdü. Onu rayonda hamı yaxşı adam kimi tanıyırdı. Səkkiz övlad böyüdüb tərbiyə verən qəlbi təmiz, hamı ilə ünsiyyət qurmağı bacaran Raqif böyük övladının xeyir işi ərəfəsində namərd insanların toruna düşmüş, günahsız yerə 8 il həbs cəzası almışdı (Raqif cinayətin baş verdiyi ərazidən təsadüfən keçdiyinə görə həbs edilmişdi. Bundan istifadə edən cinayətkarlar onun üzünə duraraq hadisənin Raqifin törətdiyini bildirmişlər. Sonra o adamların bəlasını Allah verdi. Bu gün onu şərləyənlərin nəslindən bir nəfər də olsun sağ adam qalmayıb. Raqifin övladları, nəvələri isə Qubanın fəxridirlər).

20 yanvar 1990-cı il. Raqif Bakıya sənədlərinin dalınca gəlmişdi. Həbs yerindən pasportunu alıb rayona qayıtmalı idi. Uşaqları üçün hədiyyə də almışdı. Pasportunu alan Raqif indiki 20 Yanvar dairəsinə gəlir ki, yolüstü maşınlardan birinə əyləşib Qubaya getsin. Amma taksidən düşəndə onu qırmızı ordunun gülləmləri qarşıladı. Qubaya özü yox, cəsədi getdi.

**Müzəffər Həsənov** 1939-cu ildə Qubanın Yerfi kəndində doğulmuşdu. 4 uşaq atası olan Müzəffər bir müddət əvvəl Bakıya köçmüşdü. Uşaqları oxumaq üçün paytaxta getdiyindən o da yoldaşını götürüb Bakıya gəlmişdi. Sürücü işləyib ailəsini dolandırırdı.

Müzəffərin ölümü də qəribə olmuşdu. O "iki dəfə" ölüb və "iki dəfə" də dəfn edilib. Həmin gecə oğlunu evdə tapmayan Müzəffər çölə çıxır. Oğlu, demə, qonşuda imiş. Bir qədər sonra evə qayıdan Zahir də atasının ardınca onu axtarmağa gedir. Gecəni atasını axtaran Zahir səhərə yaxın kolların arasından onun pencəyini tapır. Ətrafda isə əzildiyindən tanınmaz hala düşmüş meyit qarşısına çıxır. Boyuna görə onu atası bilən Zahir dostları ilə parçalanmış cəsədi məscidə aparır. Atasının adı ilə Şəhidlər xiyabanında dəfn edirlər. Hətta atasının üç mərasimini də verirlər.

Ancaq sonrakı gün Müzəffərin sağ olduğu xəbəri yayılır. Xəstəxanaya gələn Zahir atasını tapır. Sonradan Müzəffər bunları söyləmişdir: "Əsgərlərə yaxınlaşıb salam verdim. Onlar məni qarşılarında görəndə burada niyə dayandığımı soruşdular. Dedim ki, oğlumu axtarıram. Bunu eşidib onlar məni döyə-döyə tankın yanına sürüyüb apardılar. Məni onların əlindən bir zabit aldı. Danışığından ukraynalıya oxşayırdı. Özü maşın tutub məni xəstəxanaya göndərdi".

Yanvarın 29-da isə Müzəffər dünyasını dəyişir. Amma indiyəcən onun yerinə Şəhidlər xiyabanında dəfn edilənin kimliyi bilinmir. Buna baxmayaraq, Müzəffərin hər dəfə xiyabana gələn əzizləri həmin məzarı da ziyarət edir, naməlum şəhidin ruhuna dualar oxuyurlar.

**Mirzə Qəniyev** də əslən Yerfi kəndindəndir. 1958-ci ildə anadan olan Mirzə ailəsi ilə birlikdə Bakıda yaşayırdı. Su idarəsində çilingər işləyən Mirzə gec evlənmişdi. Bəlkə də buna görə ilk və yeganə övladı Şövqini dünyalar qədər sevirdi.

Yanvarın 20-də həmişə olduğu kimi, oğlunun yanına tələsən Mirzə atəş səsi eşidib taksiyə minir. Evlərinə çathaçatda maşını vururlar. Sonra sürücünü və onu maşından çıxarıb bərk döyürlər. İki güllə yarası alan Mirzə düz bir ay həyatla ölüm arasında mücadilə aparır. Lakin aldığı yaralara üstün gələ bilmir, müqəddəs şəhidlik zirvəsinə ucalır.

**Elçin Qeybullayev** əsgəri xidmətini Əfqanıstanda keçmişdi. 1968-ci ildən olan Elçin orta məktəbi bitirdikdən sonra Xaçmazdakı texniki peşə məktəbində çilingər sənətinə yiyələnmişdi. Əsgərlikdən sonra Bakıya gələrək burada 20 saylı İxtisaslaşdırılmış Tikinti İdarəsinə işə düzəlmişdi. Az zamanda kollektivdə özünə hörmət qazanan Elçinə hətta ev vermək istəmişlər. O isə "Qardaş, mənə burada heç nə lazım deyil. Yataqxanada qalıram, bəsimdi. Mən onsuz da bir-iki ilə çıxıb Qubaya gedəcəm. Kimin evə ehtiyacı var, ona verin. Anamgil çağıran kimi gedəcəm rayona evlənməyə. Mənimçün rayonum dünyanın cənnətidir" demişdi.

20 Yanvar gecəsi 2 saylı Tibb Məktəbindən təmirdən qayıdırdı. İki nəfər idilər. Yolda əlisilahlı əsgərləri görəndə bir qədər çaşqınlıqla onlara tərəf gedirlər. Onlara silah qaldıranlara Elçin "Mən beynəlmiləl döyüşçüyəm. Axı nə olub bu şəhərdə?!" - deyə irad bildirmişdi. Amma gec idi. Qırmızı əsgər tətiyi çəkmişdi.

Səhər səkinin kənarında başını müqəddəs saydığı torpağa qoyub gözləri əbədi yumulmuş halda tapılır Elçin. Əfqanıstanda oddan-alovdan keçdiyi ordunun əsgərləri tərəfindən qətlə yetirilən Elçin bu gün cənnət bildiyi Qubada Şəhidlər xiyabanında uyuyur.

20 Yanvar şəhidləri ölümləri ilə özləri də bilmədən beləcə böyük tarixin səhifələrini yazdılar. 20 Yanvardan 30 il sonra 44 günlük Vətən müharibəsində isə onların torpağa səpdiyi cücərtilər göyərdi. Düşməndən intiqam alındı və bu intiqamın ilkin müəllifləri 20 Yanvar şəhidləridir.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

## Daşkəsəndə 20 Yanvar anılıb

Ümumxalq Hüzn Gününün 33-cü ildönümü ilə əlaqədar Daşkəsəndəki Heydər Əliyev Mərkəzində "20 Yanvar həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında Ümummilli Lider Heydər Əliyevin rolu" mövzusunda tədbir keçirilib.

Mərkəzin direktoru Nailə Məmmədova məruzə ilə çıxış edərək keçmiş sovetlər birliyinin Azərbaycan xalqına qarşı həyata keçirdiyi terror aktından, insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən söz açmışdır. Qeyd etmişdir ki, həmin günlər xalqının səsinə ilk olaraq səs verən Ümummilli Lider Heydər Əliyev oldu: "Ulu Öndər hadisədən dərhal sonra ölkəmizin Moskvadakı daimi nümayəndəliyinə gələrək təcavüzə kəskin etirazını bildirmişdir. Onun 1990-cı il 21 yanvar tarixli bəyanatı isə faciəyə verilən ilk siyasi qiymət olmuşdur. Ümummilli Lider xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıtdıqdan sonra bu məsələ yenidən gündəmə gəlmiş və 20 Yanvar hadisələrinə dövlət səviyyəsində siyasi qiymət verilmişdir".

Digər çıxış edənlər Ulu Öndərin siyasi varisi Prezident İlham Əliyevin rəhbərliyi ilə şəhidlərin xatirəsinin əbədiləşdirilməsi, onların ailələrinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərdən söhbət açmışlar.

Tədbirin sonunda uşaq, yeniyetmə və gənclərin əl işlərindən ibarət "20 Yanvar milli qürur günümüzdür" adlı sərgiyə baxış keçirilmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Cavad xanın xatirəsi anılıb

Gəncədə Qacarlar nəslindən olan Azərbaycan sərkərdəsi, dövlət xadimi, Gəncə xanlığının sonuncu hökmdarı Cavad xanın xatirəsi yad edilib.



Gəncə şəhərinin, "Cavad xan" Tarix və Mədəniyyət Fondunun rəhbərliyinin, idarə, müəssisə, təşkilat və ictimaiyyət nümayəndələrinin iştirak etdikləri mərasim Cavad xanın Gəncənin mərkəzində yerləşən türbəsinin ziyarəti ilə başlayıb. Burada Cavad xanın Azərbaycanın, xüsusilə də Gəncənin tarixindəki xidmətlərindən, azadlıq uğrunda apardığı mübarizədən danışılıb. Bildirilib ki, 219 il əvvəl - 1804-cü ilin yanvar ayında rus qoşunlarının Gəncəyə hücumu zamanı Cavad xan, oğlu Hüseynqulu xan və minlərlə Gəncə sakini düşmənlə son nəfəslərinədək vuruşaraq şəhidlik zirvəsinə ucalıblar.

Qeyd edək ki, Cavad xanın Gəncədəki türbəsi 2005-ci ildə Heydər Əliyev Fondunun dəstəyi ilə inşa olunub.

## Keçən il Şəmkirdə 47,4 milyon manatlıq sənaye məhsulu istehsal olunub



Hazırda Şəmkirdə 17 sənaye müəssisəsi fəaliyyət göstərir. Onların 12-si iri, orta, kiçik, 5-i isə mikro müəssisələrdir.

Statistikaya əsasən, keçən il rayonda 47 milyon 442,6 min manatlıq sənaye məhsulu istehsal edilib. Həmin məhsulların 56,8 faizi dövlət, 19,2 faizi özəl müəssisələrin, 8,3 faizi fiziki şəxslərin, qalan 15,7 faizi isə ev təsərrüfatlarının payına düşüb. Sənaye məhsullarının 53,6 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, 41,3 faizi emal, 2 faizi mədənçıxarma, 3,1 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunub. Bundan əlavə, rayonda fəaliyyət göstərən sənaye müəssisələri tərəfindən 19 milyon 286,5 min manatlıq xidmətlər göstərilib ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 41,7 faiz çoxdur.

## Daha bir köhnə kəhriz təmir edilib

Göygöl rayonunun Mollacəlilli kəndində Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi (KOICA) və BMT-nin Beynəlxalq Miqrasiya Təşkilatının dəstəyi ilə daha bir kəhriz bərpa olunaraq sakinlərin istifadəsinə verilmişdir.




Rayonun rəhbərliyi, Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycan nümayəndəliyinin əməkdaşları və Mollacəlilli kənd sakinlərinin iştirak etdikləri açılışda çıxış edənlər kəhrizin bərpasında xidməti olan təşkilatlara minnətdarlıqlarını bildirmiş və onun Mollacəlilli kənd sakinlərinin suya olan tələbatını qismən ödəyəcəyini qeyd edərək diqqətə çatdırmışlar ki, yeraltı suları yer səthinə çıxarmaq üçün istifadə olunan qurğulardan - kəhrizlərdən istifadə iqtisadi baxımdan daha səmərəlidir. Çünki kəhriz heç bir elektrik enerjisi sərf edilmədən öz axarı ilə fasiləsiz gələn içməli su və suvarma mənbəyidir.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

## Arzuları ifadə edən naxışlar

"Təkəlduz sənətində sapların rəng harmoniyasını tapmaq görəcəyin işin yarısı deməkdir. Müxtəlif rənglərə boyanmış ipək saplarla doldurulan əlvan naxışlar əl işi başa gələnə qədər sənə rahatlıq verməyəcək. Bu duyğuları sözlə ifadə etmək çətindir".



Bunu AZƏRTAC-ın əməkdaşı ilə söhbətində təkəlduz ustası Samirə Bayramova deyib. O, Laçında anadan olub, işğal zamanı - 1992-ci ildə 10 yaşında ikən ailəsi ilə birgə Sumqayıt şəhərinə gəlib, məcburi köçkünlük həyatı yaşayıb. İbtidai sinif müəllimidir, Laçın rayonu 5 nömrəli məktəbdə çalışır. Laçına qayıdacağı günü səbirsizliklə gözləyir. Elə əl işlərində də vətənpərvərlik mövzusu diqqət çəkir. Samirə Bayramova bu sənətə uşaqlıqdan başlayıb, anasını ilk müəllimi hesab edir. Amma sonralar "böyük sənətə" gəlmək üçün peşəkarlardan öyrənməyin vacibliyini anlayıb. Sərgilərdə tikmə, xovlu tikmə və təkəlduz nümunələri ilə iştirak edir.

İndiyədək ən uğurlu əl işləri arasında "İçərişəhər"i xüsusi vurğulayır. Deyir ki, bu əl işinin üzərində bir il çalışıb. "Sevə-sevə işləmişəm. Elə olub ki, gün ərzində 3-4 saat yatmışam, amma nə bezmişəm, nə də yorulmuşam", - deyə əlavə edir.

Mövzu seçimindən danışarkən bunun çox zaman həmin an nə hiss etməsi ilə bağlı olduğunu söyləyir. Buna misal kimi, "Xarıbülbül" əsərini vurğulayır: "Rəssama onun eskizləri ilə bağlı sifariş verəndə müharibə ab-havası yox idi. 2020-ci ilin fevralında işi götürdüm və onu başa çatdırmamış, sentyabrın 27-də müharibə başladı. Müharibə dövrünə düşdüyündən çox istəyirdim ki, Şuşa azad olunana qədər işi bitirim. Nə yaxşı ki, elə də oldu, Şuşa azad olunanadək əl işimi tamamladım".

Samirə Bayramova "Xarıbülbül" əsərini Şuşaya gedərkən şəhərə bağışlayacağını deyir.

## Bələdiyyələr yola gəlir

Ölkəmizin əksər regionlarında olduğu kimi, Qazaxda da rayondaxili yollar əsaslı təmir edilir, təzə yollar çəkilir.

Təkcə son illər rayonun Qazaxbəyli-Orta Salahlı-Aşağı Salahlı, Yuxarı Salahlı-Kəmərli, Kosalar, Quşçu Ayrım, Canalı, Çaylı, Bala Çaylı, Hüseynbəyli, Cəfərli, Daş Salahlı-Ürkməzli-Dəmirçilər, Fərəhli kəndlərinə gedən yollara asfalt döşənmişdir.

Rayonda kənddaxili yolların təmiri də unudulmur. Bu iş əsasən daxili imkanlar hesabına bələdiyyələr tərəfindən həyata keçirilir. Hər il bələdiyyələr imkanları daxilində küçələrə qum-çınqıl tökərək həm sakinlərin, həm də nəqliyyat vasitələrinin nisbətən rahat hərəkətini təmin edirlər.

Bu günlər rayonun ən böyük yaşayış məntəqələrindən olan Daş Salahlı kənd bələdiyyəsi də yolların təmirinə başlamışdır. Hazırda kənddaxili yollara qum-çınqıl tökülərək hamarlanır. Qısa vaxt ərzində 3 kilometrə yaxın məsafənin çınqıllanması yekunlaşmışdır.



***"Azərbaycan"***

## Füzuli-Hadrut avtomobil yolunun tikintisi yekunlaşır



Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş ərazilərimizin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biri olan Füzuli-Hadrut avtomobil yolunun tikintisi yekunlaşır.

Avtomobil yolunun uzunluğu 12 kilometrdir. I texniki dərəcəli olacaq bu yol başlanğıcını Zəfər yolundan götürür və yeni inşa edilən Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yoluna birləşir.

Füzuli-Hadrut avtomobil yolu 4 hərəkət zolaqlıdır. Hərəkət zolaqlarına uyğun olaraq yol yatağının eni müvafiq olaraq 21,5, yolun hərəkət hissəsinin eni isə 14 metrdir.

Xüsusi texnikalardan istifadə edilməklə yolun genişləndirilərək profilə salınması və I texniki dərəcəyə uyğun yeni torpaq yatağının və yol əsasının inşası tam olaraq yekunlaşıb. Yolun 11-ci km-lik hissəsində asfalt örtüyünün alt layının döşənməsi işləri icra olunub.

Füzuli-Hadrut avtomobil yolunda torpaq yatağının və yol əsasının inşası ilə yanaşı, yolboyu atmosfer sularının ötürülməsini təmin etmək üçün müxtəlif diametrlərə malik 15 suötürücü boru, 7 ehtiyat keçidi, həmçinin dərə sularının ötürülməsi üçün 1 dördbucaqlı su keçidinin tikintisi də sona çatıb.

Layihə üzrə yolun 6,7 km-də, "Qarğabazarı" adlanan ərazidən keçən hissəsində bir aşırımlı körpünün inşası aparılıb. Avtomobil körpüsünün uzunluğu 18, eni 21 metrdir.

Tikinti işləri "İnşaat Norma və Qaydaları"nın tələblərinə əsasən, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən həyata keçirilir. Tikintinin tərtib olunmuş qrafikə uyğun qısa zamanda yekunlaşdırılması üçün əraziyə lazımi sayda qüvvə cəlb edilib.

Qeyd edək ki, Füzuli-Hadrut avtomobil yolu işğaldan azad edilmiş Füzuli və Xocavənd rayonlarının ərazisindən keçir.

## Meşə zolaqlarına aldadıcı yem səpilir

Vəhşi heyvanlar arasında quduzluq xəstəliyinə qarşı peyvəndləmə işlərinə start verilib.

Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyinin (AXA) mütəxəssisləri Qida Təhlükəsizliyi Agentliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları ilə birgə helikopter vasitəsilə Şamaxı, İsmayıllı, Qəbələ, Oğuz, Şəki, Qax, Zaqatala və Balakən rayonlarının meşə zolağına aldadıcı yemlər səpirlər. Ümumilikdə helikopter vasitəsilə meşələrə marşrut üzrə 600 kilometr məsafədə 18 min aldadıcı yemin səpilməsi nəzərdə tutulur. Mövcud normaya əsasən, meşə zolağında hər km-ə 20-25 doza aldadıcı yemin səpilməsi nəzərdə tutulur. Bundan başqa, AXA-nın əməkdaşları qeyd olunan ərazilərdə yerləşən şəhər, qəsəbə və kəndlər ətrafında müəyyən olunmuş yerlərə əllə 62 min doza aldadıcı yemin səpilməsini təmin edəcəklər.

Ərazilərə atılmış, içərisində vaksin olan qidanı qəbul etdikdən sonra vəhşi və sahibsiz heyvanlarda quduzluğa qarşı bir il müddətinə immunitet yaranacaq. Bu cür tədbirlər xüsusi təhlükəli xəstəlik sayılan quduzluq xəstəliyinə qarşı epizootoloji sabitliyin qorunub saxlanılmasını təmin edir.



# ŞUŞA Türk Dünyasının Mədəniyyət Paytaxtıdır




● Qarabağ Azərbaycandır!



# Şuşa daha möhtəşəm olacaq

**"Qarabağın döyünən ürəyi", "musiqi və incəsənət beşiyi", habelə insanların "Sən tarixin özüsən, Azərbaycanın gözüsən" deyə 28 ildən çox erməni silahlılarının tapdağı altında olan Şuşanın işğaldan azad edilməsi xəbərini eşidəndə, azərbaycanlılar inanılmaz sevincli, həyəcanlı anlar yaşadılar: 2020-ci il noyabrın 8-də Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Azərbaycan xalqına müraciətində: "Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm. İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı qələbəmizin, zəfərimizin günüdür!" deyəndə xəyallarında yaşatdıqları bu xoş xəbərdən istər-istəməz gözləri yaşaranlar, hönkür-hönkür ağlayanlar, hətta sevincdən ürəyi gedənlər də oldu... Həmin gün telefonlar da yalnız təbrik mesajları, təbrik xəbərləri daşıdı. İnsanlar Ali Baş Komandana və Tanrıya dua edə-edə nəzir-niyaz payladılar, qurbanlar kəsdilər, bu qələbə uğrunda şəhidlik zirvəsinə ucalanlara ehsan süfrəsi açdılar...**

Bu tarixi şəhərin erməni işğalından azad olunması Azərbaycana, şanlı ordumuza daha qətiyyətli döyüş əhvali-ruhiyyəsi və döyüşlərdə həlledici üstünlük verdi. Təsadüfi deyil ki, bu zaman Fransanın "Le Monde" nəşri Şuşa uğrunda döyüşlərdə "erməni qüvvələrinin darmadağın olduğunu, yenidən döyüşə qayıdıb-qayıtmayacaqlarını bilmədiklərini və Azərbaycan qüvvələrinin tarixi şəhərə çatdığını" yazırdı.

Xatırladaq ki, 1992-ci il mayın 8-də erməni silahlı qüvvələri tərəfindən işğal olunan, ermənilərin həyasızcasına bütün dünyaya car çəkərək bu şəhər bizimdir dedikləri Şuşanın əsası 1751-ci ildə Qarabağın ilk xanı Pənahəli xan tərəfindən qoyulub və şəhər hətta bir müddət Pənahabad da adlandırılıb. XIX əsrin əvvəllərində rus-fars müharibəsi nəticəsində digər xanlıqlarla yanaşı, Rusiya imperiyasına birləşdirilən Qarabağ xanlığının əsas mədəni-iqtisadi mərkəzi və paytaxtı olub. Şəhər əhalisinin əksəriyyətini azərbaycanlılar təşkil edib. Ermənicə "Şuşi" adlandırılan şəhər buranın azsaylı erməni əhalisi üçün də önəmli yerə malik olub. Ermənilər bura 1828-1830-cu illərdə rus imperiyası dövründə köçürülüblər.

Ekspertlərin fikrincə, Şuşaya nəzarət Azərbaycana həm siyasi meydanda, həm də hərbi məkanda istədiyini əldə etmək üstünlüyü verib. Nəinki azərbaycanlılar, Azərbaycanda yaşayan bütün azsaylı xalqlar, etnik qruplar, habelə dünyanın hansı guşəsində yaşamasından asılı olmayaraq, bütün azərbaycanlılar Paşinyanın vaxtilə yallı getdiyi Cıdır düzünün, Şuşanın işğaldan azad olunmasını mənəvi qələbə kimi qəbul etdilər.

Hazırda azadlığının üçüncü ilini yaşayan Şuşada bərpa, quruculuq və tikinti işləri sürətlə aparılır. Şuşa işğaldan azad olunandan sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dəfələrlə bu şəhərə səfər etmiş və onun bərpası ilə maraqlanmışlar. Dövlət başçısı Şuşaya səfərləri zamanı bu unikal məkanın tezliklə bərpa ediləcəyini bildirmişdir: "Mən demişəm ki, Şuşa nəinki Azərbaycanın, dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcəkdir və buna nail olacağıq, 100 faiz".

İşğal zamanı dağıdılmış və məhv edilmiş müqəddəs ünvanlardan biri də Yuxarı Gövhər ağa məscidi olmuşdur. Erməni vandalları tərəfindən məscidin interyeri məhv edilmiş, minarələrinin dekoru zədələnmiş, örtükləri dağıdılmışdır. Qəbul edilmiş layihələrə əsasən, Heydər Əliyev Fondunun rəhbərliyi və "Paşa Holdinq"in maliyyə dəstəyi ilə məsciddə ötən ilin noyabr ayından bərpa işlərinə başlanılıb. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva cari il sentyabrın 27-də Şuşada olarkən məscidi ziyarət etmiş, görülən işlərlə yaxından tanış olmuşlar.

Məsciddə birinci mərhələdə nəzərdə tutulan bərpa işləri başa çatdırılıb, ikinci mərhələdə məscidin daşları ilkin layihəyə uyğun olaraq dəyişdirilib. Məsciddə konservasiya və bərpa işləri ilkin memarlıq üslubuna uyğun olaraq Azərbaycan, İtaliya və Türkiyə şirkətlərinin konsorsiumu tərəfindən və "Paşa Holdinq"in maliyyə dəstəyi ilə həyata keçirilir. Usta və sənətkarlar bərpa işlərini 2023-cü ilin sonunadək yekunlaşdırmağı nəzərdə tuturlar.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Mehmandarovların malikanə kompleksində aparılan bərpa işlərinin gedişi ilə də tanış olublar. Xatırladaq ki, malikanə kompleksi Mehmandarov nəslinin nümayəndələri tərəfindən XVIII əsrdə inşa edilib. Mehmandarovlar ailəsinə məxsus olmuş kompleksə böyük və kiçik yaşayış binaları, ailə məscidi və bulaq daxildir. Malikanə kompleksi, ailə məscidi və ərazidəki bulaqda təmir-bərpa işlərinə 2021-ci ilin oktyabrından başlanılıb. İndiyədək evin və məscidin dam örtükləri orijinala uyğun quraşdırılıb, tavanlar bərpa olunub və rənglənib, qapı və pəncərələr qoyulub. Dağılmış divar bərpa edilib, zədəli divarda bərkitmə işləri aparılıb. Eyvanların və dirəklərin taxta konstruksiyalarının çürümüş hissələri düzəldilib. Evin çöl pilləkəni yenidən qurulub, döşəmə daşlarının dağılmış hissələri tamamlanıb. Hazırda eskiz layihələri əsasında divar və tavanlarda rəsmlərin bərpası işləri görülür. Bunlar ailə məscidinin uçmuş günbəzlərini, damını, mehrabı və "Güldəstə"sini də əhatə edir.

Bərpa işləri ilə tanışlıq zamanı Mehmandarovların malikanə kompleksinə daxil olan bulaq istifadəyə verilib. Bulağın damı əvvəlki vəziyyətinə gətirilib. Təmir-bərpa işlərindən sonra burada muzey ekspozisiyası quraşdırılacaq. 2023-cü ilin sonlarında təmir-bərpa işlərinin başa çatdırılması nəzərdə tutulan bu malikanədə ev sahibinin məşğuliyyətini, marağını nümayiş etdirən əşyalarla təchiz olunmuş kabinetin, qonaqların qəbulu üçün nəzərdə tutulan evin ən təmtəraqlı otağı sayılan və bir çox hallarda taxta dekorativ panellər və parça divar kağızları ilə bəzədilən qonaq, yemək və yataq otaqlarının yaradılması nəzərdə tutulur.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada təmir, bərpa və quruculuq işləri sırasında Şuşa şəhərində XIX əsrin sonlarında Qarabağ memarlıq məktəbinə xas olan üslubda inşa edilən binada görülən işlərlə də tanış olublar. İşğal zamanı dağıdılmış və istifadəyə yararsız hala salınmış üç yaşayış kompleksini özündə birləşdirən bu tikilidə binaların təməllərinin və divarlarının bərkidilməsi işləri aparılıb. İşğal dövründə binanın dağılmış hissəsi yenidən tikilib. Sonradan inşa olunmuş əlavə tikililər sökülüb. Həyətdəki yarımtikilinin divarlarında bərkitmə işləri aparılıb, dəmir-beton dam quraşdırılaraq tikintisi tamamlanıb. Təmirdən sonra binadan hotel kimi istifadə ediləcəyi nəzərdə tutulub.

Görünən odur ki, yaxın gələcəkdə Şuşanın bütün tarixi, mədəni və dini abidələri bərpa edilib öz əvvəlki görkəminə qaytarılacaq və şəhər Azərbaycanın mədəniyyət paytaxtı missiyasını uğurla yerinə yetirəcək.

Azərbaycan Prezidenti İlham Əliyevin Şuşa şəhərini ölkənin mədəniyyət paytaxtı elan etməsini, Vaqif Poeziya Günlərini və "Xarıbülbül" festivalını bərpa etməsini ölkənin mədəni həyatında əlamətdar hadisələrdən saya bilərik. Azərbaycanın mədəniyyət paytaxtına çevrilən bu gözəl şəhər 2021-ci il mayın 12-də "Xarıbülbül" Musiqi Festivalına yenidən evsahibliyi etdi. İyirmi doqquz ildən sonra qədim mədəniyyət beşiyi olan Şuşa yenə öz doğmalarını, qonaqlarını qarşıladı. Gözəl ənənələrin bərpası - Vaqif Poeziya Günlərinin, "Xarıbülbül" Musiqi Festivalının yenidən Şuşa şəhərində keçirilməsi və ümumiyyətlə, bir çox beynəlxalq tədbirlərin məhz burada gerçəkləşdirilməsi bu qədim və gözəl şəhərimizin gələcəkdə daha böyük status almasına gətirəcək, Şuşa elm və mədəniyyət aləmində daha ucadan görünəcək. Tarixin bütün dönəmlərində olduğu kimi, bu gün Azərbaycan Prezidenti İlham Əliyevin şəxsi nəzarəti altında irimiqyaslı bərpa, quruculuq və önəmli layihələr əsasında qurulan Şuşa yaxın gələcəkdə daha möhtəşəm olacaq.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

● İncəsənət xadimlərimiz

# Heykəltaraş ömrü

**Ömrünün axır çağları idi. Heykəltaraş vaxtını emalatxanasında keçirirdi. Yaşı səksən yeddiyə yetmişdi. Ötən illərini boşuna keçirməmişdi. Həyatın kədərini, sıxıntılarını da, sevincini, firavanlığını da çox görmüşdü. Gəncliyi kimi sağlamlığı da ona etibarsız çıxmışdı. Ürəyi sözünə baxmırdı. Ayaqlarının taqəti heykəltaraşı tərk edirdi. Ancaq qəlbindəki yaşamaq eşqinə, sevincinə qocalığın gücü yetməmişdi.**











Xəyalında, xatirələrində o qədər simalar qalırdı ki... Əksəriyyətinin adı artıq tarixə düşmüşdü. Elm, mədəniyyət və incəsənətin müxtəlif sahələrində misilsiz xidmətləri olan həmin şəxsiyyətlərlə o, dostluq, yoldaşlıq etmişdi.

Üzündən gülüşü heç əskik olmasa da, baxışlarında arabir kədər kölgələnirdi. Bir vaxtlar həmsöhbətim olan Azərbaycan heykəltaraşlıq məktəbinin əsas simalarından biri, Xalq rəssamı Cəlal Qaryağdı söhbətə çox uzaqdan başlamışdı...

### Hafizəsindən silinməyən, kimsəyə bənzəməyən qadın...

Ömrünün ilk illərini Şuşada yaşamışdı. Onlara Qaryağdıoğulları deyirdilər. Babası İsmayıla Şuşada Qaryağdı deyirmişlər. Bu barədə müxtəlif əhvalatlar söylənilib. Cəlal Qaryağdıoğlu deyirdi ki, babam qardan, soyuqdan qorxarmış. Qar yağmağa başlayanda bayıra çıxmaq istəmirmiş. Deyirmişlər: "Nə olub, ay İsmayıl, qar yağdı?" Şuşalılar İsmayılın oğlanlarına da Qaryağdıoğulları deyiblər. Beləcə, Qaryağdı onların soyadına çevrilib. Sonralar İsmayıl babanın oğlanlarından biri - xanəndə Cabbar bu soyadı bütün Azərbaycanda tanıdıb.

Cəlal Qaryağdı Şuşada 1914-cü il iyulun 17-də dünyaya gəlib. Əmisi Cabbar kimi, atası Məhərrəmin də gözəl səsi olub. Buna görə onu Bülbül çağırıblar. Amma Məhərrəm ürəyəyatımlı, qeyri-adi səsinin yönəltdiyi yolla getməyib, xanəndəlik etməyib. Ticarətlə məşğul olub. XX əsrin əvvəllərində mənfur ermənilər Şuşaya yenidən qovğa salıblar. Azərbaycanlılara hücum edib, şəhərə divan tutublar. Qaryagində (indiki Füzuli rayonu) yaşayan qardaşı onları öz yanlarına çağırıb. Məhərrəm ailəsini Qaryaginə aparıb. Ara sakitləşəndən sonra Şuşaya dönüblər. Məhərrəm sonralar ailəsi ilə Ağcabədiyə köçüb. Orada dükan açıb. Mehribanlıq, rahatlıq içində yaşayıblar. Amma xoş günləri uzun sürməyib...

Qocaman heykəltaraşın yaddaşında kimsəyə bənzəməyən gözəl, canayaxın bir qadın surəti vardı. Ömrü boyu onu böyük sevgi, sonsuz şəfqətlə, bitib-tükənməz həsrətlə yada salmışdı. Anası Həcərin surəti idi. Həcər necə deyərlər, bu fani dünyanın ucundan baxıb qayıtmışdı. O, gənc yaşında iki oğul anası olub. Üçüncüsünə hamilə imiş. Bir gün anasıyla harasa gedib. Yolüstü yazıçı İlyas Əfəndiyevin ata evində qonaq olublar. Onlarla ailəvi tanışlıqları, yaxınlıqları var imiş. Elə orada Həcərin ağrısı tutub. Uşaq tələf olub. Həcər də vəfat edib. İki körpə uşaq anasız qalıb. Böyüyünün - Cəlalın beş yaşı var imiş. Uşaqların ikisini də - Cəlalı da, Camalı da ana nənələri himayəsinə götürüb. Dərdli qadın gənc yaşda itirdiyi qızının ətrini nəvələrindən almaq istəyib. Uşaqları da götürüb Şuşaya gedib.

Həyat yoldaşı dünyadan köçəndən sonra uşaqlarından da ayrı düşən Məhərrəm bir neçə il sonra yenidən evlənib. Bir qızı dünyaya gəlib. Uşaq körpə ikən Məhərrəm vəfat edib. O vaxt on bir-on iki yaşı olan Cəlal qardaşıyla birlikdə nənəsigildə yaşayırdı.

Vaxt gəlib çatanda Cəlalı orta məktəbə göndəriblər. İllər bu minvalla ötüb. Bir də görüblər ki, Cəlalın bütün fikri-zikri şəkil çəkməkdir. Onun əl işləri evdəkiləri əvvəlcə sevindirib, heyranlıqla baxıb, Cəlalı öyübələr. Günlər keçdikcə onun rəssam fantaziyaları bitib-tükənməyib.

### Rəssamlıq məktəbinin ilk azərbaycanlı müəllimlərindən biri

Cəlal on bir-on iki yaşlarında ikən bir gün Şuşaya gələn əmisi Cabbara da onun çəkdiyi şəkilləri göstəriblər. Qardaşı oğlunun bacarığı Cabbar Qaryağdıoğlunu fərəhləndirib. Cəlalı 7-ci sinfi bitirən kimi Bakıya aparıb. 1928-ci ildə o, Əzim Əzimzadə adına Rəssamlıq Məktəbinə daxil olub. Bakıya təzə gəldiyi vaxtlarda bir müddət əmisigildə, sonra İlyas Əfəndiyevin evində qalıb. Məktəbin sonuncu kursunda oxuyanda "Gənc işçi", "Yeni yol" qəzetlərində rəssam işləyib. 1932-ci ildə Rəssamlıq Məktəbini bitirib. O vaxtlar həmin məktəbin müəllimlərinin əksəriyyəti qeyri-millətlərin nümayəndələri idi. On səkkiz yaşlı Cəlal Qaryağdı Əzim Əzimzadə adına Rəssamlıq Məktəbinin ilk azərbaycanlı müəllimlərindən biri olub. Tələbələrinin arasında məşhur partizan Mixaylo kimi tanınacaq Mehdi Hüseynzadə də vardı.

İki il sonra - 1934-cü ildə Cəlal Qaryağdı təhsilini davam etdirmək üçün Tiflisə yollanıb. Rəssamlıq Akademiyasına qəbul olunub. Maddi cəhətdən korluq çəkən bu gənc tələbə həm oxuyub, həm işləyib. Ağır işlərdə çalışıb, qum, sement daşıyıb. Çox əziyyətə qatlaşsa da, Tiflisdə təhsilini tamamlaya bilməyib. O, üç il oxuduqdan sonra Rəssamlıq Akademiyasını yarımçıq qoyub, Bakıya dönüb.

1941-ci ildə müharibə başlayıb, Cəlalı da hərbi xidmətə çağırıblar. Ancaq rəssam olduğunu bilib geri qaytarıblar.

Oktyabr inqilabının ildönümü münasibətilə müsabiqə elan olunub. Cəlal Qaryağdı çəkdiyi plakatı müsabiqəyə göndərib. Qalib seçilib. Əsərin qiymətinə mükafat da əlavə olunaraq ona verilib. Yaraşıqlı, qaynar təbiətli gənc rəssam üçün bu, göydəndüşmə olub. Aldığı pulu səxavətlə sağa-sola xərcləyib.

1950-ci illərin əvvəllərində o vaxtın təbiriylə desək, proletariatın dahi rəhbəri Leninin heykəlinin hazırlanması üçün müsabiqə elan olunub. Müsabiqənin şərtinə görə, əsərlər müəlliflərin adları qeyd olunmadan təqdim edilib. Münsiflərin əksəriyyəti Cəlal Qaryağdının hazırladığı heykəlin maketini bəyənib. Müəllifə yaxşı mükafat verilib.

Uşaqlıq illərinin qayğıkeşləri, himayədarları olan çox sevdiyi nənəsi və xalası da həmin şöhrətli günlərində heykəltaraşın yanında olublar. Bir-birinin ardınca Bakıya köçüb gələn qohumlarından sonra nənəsi də Şuşada qalmaq istəməyib. Ona sonralar "Rəssamlar binası"nda ev veriblər.

Gec ailə qurub. İki dəfə evlənib. İkinci həyat yoldaşı Firəngiz Hüseynova ondan iyirmi doqquz yaş kiçik olub. Firəngiz xanım Cəlal Qaryağdının tələbəsi idi. O, Rəssamlıq Məktəbini başa vurduqdan sonra Cəlal Qaryağdı da pedaqoji fəaliyyətini bitirib yalnız sənətlə məşğul olmaq qərarını verib. Montin qəsəbəsində tikilən emalatxanaların biri də ona verilib. İkimərtəbəli, hərəsinin ayrıca həyəti olan emalatxanalarda heykəltaraşların rahat işləməsi və istirahət etməsi üçün şərait yaradılıb. Cəlal Qaryağdı ailəsi ilə ora köçüb.

### Son ağrılar...

Məhsuldar heykəltaraş sayılıb. Molla Pənah Vaqifin, Mirzə Ələkbər Sabirin, Nəriman Nərimanovun heykəllərini, Nizaminin "Xosrov və Şirin" əsərinin motivləri əsasında "Fərhad Bisütun dağını yarır" barelyefini, Həzi Aslanovun və Natəvanın büstünü və başqa əsərlərini ərsəyə gətirib. Sonralar müsahibim olan həyat yoldaşı, heykəltaraş Firəngiz Hüseynova Cəlal Qaryağdı barədə dedi: "Əslində, emalatxanaya vaxtının az hissəsini sərf edirdi. Sadəcə, sürətlə işləyirdi. Dirijor Niyazi hövsələsiz adamıydı. Emalatxanaya gələn kimi deyirdi, Cəlal, əzizim, tez elə. O, Niyazini naturadan işləmək üçün qırx beş dəqiqə sərf etdi. Həmin portret indi İncəsənət Muzeyindədir. Çox məşhur adamları naturadan çəkdi. Fikrət Əmirovu, Qara Qarayevi, Habil Əlivevi, Hacı Xanməmmədovu... Cəlal əsərin ideyası, bədii həlli üzərində çox düşünüb-daşınırdı. O qədər eskizlər edirdi, beynində, kağız üzərində tam formanı tapırdı, sonra işləmək onun üçün asan olurdu".

Bütün əsl sənətkarlar kimi, Cəlal Qaryağdıya da əsərləri çox əziz idi. Sifarişli və ya sifarişsiz onların hər birini ürəkdən, böyük zəhmətə qatlaşaraq yaratmışdı. Və Cəlal Qaryağdı bir vaxtlar ona böyük uğurlar, şöhrət gətirmiş həmin əsərlərin bəzisinin ölümünü gördü… 1990-cı ildə baş verən siyasi hadisələr sovet hakimiyyətinin dağılması ilə nəticələndi. Bakı şəhərinin baş meydanından Leninin heykəlinin götürülməsinə qərar verildi. Hər bir azərbaycanlı kimi, Cəlal Qaryağdı da qərardan razıydı. Amma düşünürdü ki, bu məsələni başqa cür həll etmək olardı. "Ölü heykəllər" qəbiristanlığı düzəldib, Lenin və başqa bu cür abidələri ora qoymaq olardı.

Sənət taleyinin ən böyük qüssəsi isə əvvəldən başıbəlalı olan Nəriman Nərimanovun heykəli idi. Abidənin açılışına az qalmış Moskvaya məktub göndərib, azərbaycanlıların Bakıda Kirovun heykəlindən hündür heykəl ucaltmaq istədiklərini xəbər vermişdilər. Artıq tuncdan tökülmüş abidənin kiçildilməsi mümkün deyildi. Sovet hökuməti Nərimanovun heykəlinin Kirovdan yüksək olmasına icazə verməyib. Heykəlin kürsüsünün kiçildilməsinə qərar verilib.

Ömrünün son illərində Montindəki emalatxanasından çıxmırdı. Qocalıq ürəyindəki həyat eşqinə toxuna bilmirdi. Yenə cavanlarla dostluq edirdi. Planları çox idi. "Ana" heykəli üzərində işləyirdi. Fərdi sifariş idi. "Bu heykəl bütün analara layiq olmalıdır", - deyirdi. Əsəri hazırlaya-hazırlaya ona bağlandı. "Ana" aparılanda heykəltaraş əməlli-başlı sarsıldı. Çox keçmədi infarkt oldu. Xəstəxanaya düşdü. 2001-ci il yanvarın 1-i, yeni əsrin ilk günüydü... Ölüm artıq onunla üzü-üzə dayanmışdı. Cəlal onu mərdliklə, cəsarətlə qarşılayırdı...

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Xəbərlər

## Daşkənddəki Azərbaycan Mədəniyyət Mərkəzi "Şuşa ili" ilə bağlı çoxsaylı layihə həyata keçirib

**Yola saldığımız "Şuşa ili" ölkəmizdə və xaricdə çoxsaylı layihələrlə yadda qalıb. Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi (AMM) də maraqlı ədəbi-mədəni tədbirlərlə ilə öz töhfəsini verib. İl ərzində qardaş ölkədə konfranslar, poeziya məclisləri təşkil edilib, KİV-də məqalələr dərc olunub, televiziya verilişləri yayımlanıb, mediaturlar, müsabiqələr, sərgilər və nəşr layihələri həyata keçirilib.**

AMM-in təşkilatçılığı ilə Özbəkistan Jurnalistlər Birliyi və "Özbəkistan-Azərbaycan" Dostluq Cəmiyyəti ilə birlikdə qardaş ölkədə Azərbaycan haqqında media işçiləri arasında ən yaxşı məqalə müsabiqəsi təşkil olunub. Müsabiqənin nominasiyalarından biri "Şuşa - Azərbaycanın mədəniyyət paytaxtı" adlandırılıb. Bundan əlavə, özbəkistanlı jurnalistlərin ölkəmizə, eyni zamanda işğaldan azad edilmiş ərazilərimizə mediaturu keçirilib.



Özbəkistan Televiziyasında jurnalist Manuçehr Qələndərzadənin aparıcılığı ilə efirə gedən verilişdə Azərbaycanın musiqi və poeziya beşiyi, "Qafqazın konservatoriyası", Azərbaycan mədəniyyətinin paytaxtı Şuşa şəhəri haqqında geniş məlumat verilib.

"Şuşa ili" ilə bağlı AMM-in layihəsi ilə Daşkənddəki "Turan" Kitabxana-İnformasiya Mərkəzində yaradılan "Qarabağ guşəsi"nə Qarabağın mədəni irsi, abidələrinə dair nəşrlər, xalçalar, suvenirlər, milli geyimlər hədiyyə edilib. Özbəkistanın Surxandərya vilayətində keçirilən Azərbaycan mədəniyyəti günləri çərçivəsində Termiz Dövlət Universitetində Xurşidbanu Natəvan adına "Azərbaycan ocağı"nın açılışı olub.

"Şuşa ili" çərçivəsində AMM-in təşəbbüsü və təşkilatçılığı ilə XIX əsrin ikinci yarısında Şuşada fəaliyyət göstərmiş "Məclisi-fəramuşan" ("Unudulmuşlar məclisi") poeziya məclisi yenidən bərpa edilib, ilk olaraq Azərbaycanın və Özbəkistanın gənc şairlərinin iştirakı ilə adıçəkilən ədəbi məclisin ilk toplantısı keçirilib.

Çıxışlardan sonra Molla Pənah Vaqifin məqbərəsi önündə Xalq şairi Nəriman Həsənzadə, yazarlardan İlqar Fəhmi, Sayman Aruz, Özbəkistan Yazıçılar Birliyinin sədr müavini, şair Qayrat Məcid, tərcüməçi-ədəbiyyatşünas Babaxan Şərif və başqaları türk dünyası, birlik, həmrəylik mövzusunda şeirlər səsləndiriblər. Növbəti illərdə Azərbaycan Mədəniyyət Nazirliyi və TÜRKSOY-un dəstəyi ilə şairlər məclisinin Türk Dövlətləri Təşkilatının digər üzv ölkələrinin şairlərinin iştirakı ilə Şuşada keçirilməsi planlaşdırılır.

## Xurşidbanu Natəvanın 190 illiyinə həsr olunan sərgi açılıb

**Görkəmli şair, ictimai xadim Xurşidbanu Natəvanın (1832-1897) 190 illik yubileyinə həsr edilmiş "Tək inci" adlı sərginin açılış mərasimi keçirilib.**



Tədbirdə Xurşidbanu Natəvanın incəsənətin bir çox sahələrində əvəzsiz əsərlər yaradan, ictimai fəaliyyəti ilə cəmiyyətin böyük rəğbətini qazanan nadir şəxsiyyətlərdən biri olduğu bildirilib. Sərgidə görkəmli şairin klassik ədəbi ənənələrimizi yaşadan, yüksək humanizm ideyaları, dərin lirizm ifadə edən yaradıcılığı və unikal şəxsiyyəti sayəsində dövrün ədəbi mühitinin formalaşmasına mühüm təsir göstərərək xalqımızın mədəni irsinin zənginləşməsinə töhfələr verməsindən söz açılıb.

Tədbirdə Maral Rəhmanzadə, Oqtay Sadıqzadə, Ömər Eldarov, Altay Hacıyev və başqa sənətkarlarımızın yüksək yaradıcılıq məhsulu kimi ərsəyə gələn Natəvan obrazlarının sərginin diqqətəlayiq eksponatlarından olduğu vurğulanıb. Daha sonra qonaqlar sərgi ilə tanış olublar.

Qeyd edək ki, "Tək inci" sərgisi 2023-cü il yanvarın sonunadək davam edəcək. Sərgidə Azərbaycan Milli İncəsənət Muzeyi, Milli Azərbaycan Tarixi Muzeyi, Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, Azərbaycan Dövlət Teatr Muzeyi, Azərbaycan Dövlət Rəsm Qalereyası, Səttar Bəhlulzadənin ev-muzeyi, Bərdə Rayon Tarix-Diyarşünaslıq Muzeyi və Xalq rəssamı Altay Hacıyevin şəxsi kolleksiyasında saxlanılan Natəvana məxsus şəxsi əşyalar, onun əlyazmaları, eləcə də görkəmli rəssam və heykəltaraşlarımızın əsərləri, ümumilikdə 60-a yaxın nümunə təqdim olunur.

## Almaniyalı alimin "Spiegel" jurnalına məktubu:

# İrəvanda 1918-ci illədək erməni hökmdarlığı olmayıb

Almaniya mediasında Azərbaycana qarşı yayımlanan audioreportaja (podkast) layiqli cavab verilib. Belə ki, son illər aparılmış məqsədyönlü fəaliyyət nəticəsində ölkəmizə dost münasibət bəsləyən və Azərbaycanla bağlı mükəmməl tarixi biliklərə sahib əcnəbi alimlərdən biri olan almaniyalı tədqiqatçı Dr.Mixael Reynhard Hess ölkəmiz əleyhinə böhtanlarla dolu reportajı əsaslandırılmış faktlarla darmadağın edib.



Qeyd edək ki, Almaniyanın "Spiegel" jurnalının beynəlxalq mövzularda yayımlanan "8 milyard" başlıqlı audioreportajları sırasında aparıcı Olaf Heuser yanvarın 14-də növbəti podkastını Azərbaycan-Ermənistan münasibətlərinə həsr edib (https://www.spiegel.de/thema/podcast-acht-milliarden/). "Dağlıq Qarabağın blokadasının Rusiya müharibəsi ilə nə əlaqəsi var?" başlıqlı audioreportajda Ermənistan və Azərbaycan arasındakı keçmiş münaqişənin tarixi və hazırkı vəziyyəti, o cümlədən azərbaycanlı ekofəalların Laçın dəhlizi ətrafındakı etiraz aksiyası, Azərbaycanın siyasi rəhbərliyi tərəfindən irəli sürülən Qərbi Azərbaycan Konsepsiyası məsələləri əks olunub. Otuz üç dəqiqəlik podkast tamamilə təhrif olunmuş və yalnız erməni mövqeyindən hazırlanıb, bir İrəvan sakini və Anna Aridcanyan adlı bir erməni jurnalistdən isə "zamin qismində" müsahibə alınıb.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, almaniyalı alim, "Şuşanın irsi" kitabının müəllifi Dr.Mixael Reynhard Hess təhriflərlə dolu və qeyri-peşəkar hazırlanmış reportajla bağlı "Spiegel"in redaksiyasına genişhəcmli, etiraz məzmunlu oxucu məktubu göndərib.

Dr.Hess oxucu məktubunda Qarabağın "Spiegel" jurnalı tərəfindən səhvən "eksklav" kimi təqdim olunması ilə bağlı 44 günlük müharibə dövründən bəri dəfələrlə etiraz məktubları göndərdiyini vurğulayıb. Onun fikrincə, audioreportajın əsas məğzi ermənilərin yalnız qurban kimi, azərbaycanlıların isə əksinə - avtokrat və cinayətkar kimi təqdim edilməsi olub. Bütün veriliş ərzində Dağlıq Qarabağ dedikdə, yalnız orda yaşayan ermənilər nəzərdə tutulur, bu regionun 1990-cı illərdə Ermənistan tərəfindən işğal olunmasına qədər "Dağlıq Qarabağ Muxtar Vilayəti"ndə 40 min azərbaycanlının yaşaması, ümumiyyətlə, dilə gətirilmir. Ermənistan təcavüzünün qurbanı olan azərbaycanlılar Heuser tərəfindən "əhəmiyyətsiz məsələ", "ikinci dərəcəli qurban" kimi bir dəfə belə olsun, xatırlanmır.

M.Hess qeyd edib ki, audioreportaj 100 faiz Azərbaycansız Qarabağ təqdim etməklə tam olaraq Ermənistanın etnik təmizləmə siyasəti mənasında yayımlanıb. Bununla aparıcı Heuser Ermənistanın 1990-cı illərdə həyata keçirdiyi müharibə cinayətini dolayısı ilə legitimləşdirmiş olub.

Dr.Hess Qarabağın "Arsax" kimi təqdim edilməsinə də məhz erməni elmi mənbələrindən sitat gətirməklə münasibət bildirərək bu sözün son 1000 il ərzində, XI əsrdən 1990-cı illərin əvvəllərinə kimi administrativ-hüquqi termin kimi işlənmədiyini faktlarla sübut edib. Qarabağın tarixi ilə bağlı bir neçə kitabın müəllifi Hess Olaf Heuseri "Ermənistanı tarixi mifologiyasını tarixi reallıqla dəyişik salmaqda" ittiham edib.

Heuser reportaj boyu erməni əsilli jurnalist həmkarı Anna Aridcanyana etiraz etmədən tam şərait yaradıb ki, bugünkü Ermənistan dövlətinin Azərbaycan tərəfindən Qərbi Azərbaycan kimi təqdim edilməsinə istehzalı münasibət bildirsin. Dr.Hess Səfəvilər dövlətinin tarixinə (1501-1736) ekskurs etməklə, o dövrdə İrəvan bəylərbəyliyinin mövcud olduğunu və orada yaşayanların əksəriyyətinin Azərbaycan dilli müsəlmanlardan ibarət olduğunu vurğulayır, XVIII əsrdə İrəvan xanlığının mövcudluğunu və onun 1828-ci ildə Rusiya tərəfindən ləğv olunduğunu fakt kimi təqdim edərək yazır: "İrəvan/Yerevan şəhərinin ermənilərin Ararat Respublikasının idarəçiliyinə keçməsi tarixdə ilk dəfə 1918-ci il mayın 28-də baş verib. Hətta bu məsələnin tarixi və hüquqi legitimliyi Azərbaycan tərəfindən şübhə altına alınır. Bu mənada İrəvan xanlığının ərazisi və ətrafının Qərbi Azərbaycan kimi təqdim edilməsinin Heuser və Aridcanyan cütlüyü tərəfindən sual altına alınması absurddur. Çünki ermənilərin 1918-ci il Ararat Respublikasınadək iddia etdiyi erməni dövləti 1375-ci ildə süqut etmiş Kilikiya knyazlığıdır ki, erməni iddialarına baxmayaraq, bu dövlətin paytaxtı Türkiyədə yerləşən Sis şəhəri olub. Bütün bunlar bir daha sübut edir ki, İrəvanda heç bir erməni hökmdarlığı olmamışdır və bu ərazilərin Azərbaycanın qərb hissəsi kimi göstərilməsi daha legitimdir".

Dr.Hess reportajda şəxslərə yönəlmiş emosionallığı qətiyyətlə pisləyərək bildirib ki, Azərbaycan Respublikasının Prezidentinə qarşı olan bu hücumlar Azərbaycanın öz ərazisini geri qaytarmaq hüququnun legitimliyini sual altına qoymaq niyyəti ilə edilib: "Qarabağda aktual məsələ ermənilərin qovulması yox, oranı separatçılardan və işğalçılardan təmizləməkdir". Hess yazır ki, oxşar fəaliyyətin Zelenski tərəfindən olunması sivil dünya tərəfindən alqışlanır. Maraqlıdır ki, podkast müddətində Paşinyanın adı bir dəfə də olsun, çəkilməyib, amma Aridcanyana şərait yaradılır ki, Ukrayna müharibəsi ərəfəsində Prezident Əliyevin Prezident Putinlə xoş atmosferdə görüşməsini tənqid etsin. Dr.Hess oxucu məktubunda Almaniya kansleri Olaf Şoltsun da Moskvada Putinlə oxşar görüşünü xatırladaraq bildirir ki, dövlət başçılarının görüşü diplomatiyada adi haldır. Yəni Azərbaycan Prezidentinin əleyhinə dəqiqələrlə edilən əsassız arqumentlərin külək dolu boş polemikadan başqa bir şey olmadığı üzə çıxır.

"Spiegel" podkastının ziddiyyəti ondadır ki, başlıqda Azərbaycanı "Dağlıq Qarabağın blokadasında" ittiham edir, reportaj boyu isə bunu rusların barrikadalar qurmaqla etdiyini bildirir.

Dr.Hess oxucu məktubunun sonunda jurnalistin həm də seçdiyi veriliş formatı ilə öz imkanının sərhədlərini aşdığını tənqid edib, Almaniyanın fikir formalaşdıran jurnalistlərini lazımi bilgilərə malik olmadıqları mövzu barədə danışmamağa çağırıb.

Qeyd edək ki, Dr.Mixael Reynhard Hess 25 ildən çoxdur Azərbaycanı tədqiq edən almaniyalı alimdir. Dr.Hess "Tanklar cənnətdə. Ermənistan və Azərbaycan arasında Dağlıq Qarabağ münaqişəsi", "Qarabağ 13-cü əsrdən 1920-ci illədək. Azərbaycan tarixinin açılımı" və "Şuşanın irsi. Azərbaycan mədəniyyət paytaxtının tarixi və inkişaf yolu" kimi kitabların müəllifidir.

# Paşinyan Kremlə qarşı çıxmaqda davam edir

## Ermənistanda Rusiya əleyhinə aksiyalar geniş vüsət alır

Ermənistanın baş naziri Nikol Paşinyanın Rusiya əleyhinə son bəyanatları Moskvanı təəccübləndirir və qıcıqlandırır. İrəvan bütün istiqamətlərdə Rusiyanın maraqlarına uyğun gəlməyən addımlar atır.




Daha çox narahatlıq doğuran məqam isə anti-Rusiya əhval-ruhiyyəli kadrlara yüksək vəzifələrin verilməsidir. Bu isə öz növbəsində Ermənistanda Rusiyanın dayaqlarının laxladılması deməkdir. Hər iki məqamla bağlı Rusiya tərəfi bir neçə dəfə mövqeyini bildirib və N.Paşinyan hakimiyyətinə xəbərdarlığını edib. Buna baxmayaraq, N.Paşinyan Kremlə tərs gələn siyasətini davam etdirməkdədir.

Məğlub ölkədə Rusiya əleyhinə keçirilən aksiyaların sayının genişlənməsi, az qala cəmiyyətin bütün təbəqələri tərəfindən Moskvanın sərt tənqid hədəfinə çevrilməsi də anti-Rusiya siyasətini təsdiq edir. Ermənistanda "Milli Demokratik Qütb" radikal blokunun üzvləri növbəti dəfə aksiya keçiriblər. Mitinqin təşkilatçılarının məqsədi Gümrüdə yerləşən 102-ci Rusiya hərbi bazasını bloklamaqdır. Etirazçılar Rusiya sülhməramlılarından Laçın dəhlizinin açılmasına nail olmağı tələb edirlər. Onlar polisin önündə düzüldüyü əsas girişdən çox da uzaq olmayan ərazidə məskunlaşıblar. Etirazçılar bildiriblər ki, hərbi baza bloklanmalıdır. Gümrüdəki etirazçılar növbəti dəfə əllərində "Rusiya düşməndir!", "İşğalsızlaşma, sovetsizləşmə, ruslaşsızma" yazılmış plakatlar tutublar. Həmçinin bəyan ediblər ki, Ermənistan KTMT-dən çıxmalı və "Rusiya işğalına" "yox" deməlidir.

Rusiya ilə münasibətlərin pisləşməsi fonunda Ermənistan sosial-iqtisadi, siyasi cəhətdən ağır vəziyyətə düşərək regionda daha zəif mövqeyə sahib olacaq. Bunların fonunda Ermənistanın makroiqtisadi göstəriciləri pessimizmi daha da gücləndirməkdədir. Ölkədə işsizliyin sürətlə çoxalması, əhalinin maddi təminatının gündən-günə pisləşməsi Ermənistan iqtisadiyyatının çöküşünü daha da sürətləndirir. Erməni iqtisadçılarını təşvişə salan daha bir məqam isə xaricdən pulköçürmələrin azalması ilə bağlıdır. Mətbuatda yer alan xəbərlərə görə, rəsmi statistika indiyə qədər bu pulköçürmələrin 2 milyard dollara çatdığını və tədiyyə balansında yaranan kəsirin 50 faizinin elə həmin vəsait hesabına maliyyələşdirildiyini göstərir. Ancaq indi təxmini hesablamalar pulköçürmələrinin miqdarının yarıya qədər azaldığını və il ərzində bu göstəricinin daha da aşağı düşəcəyini proqnozlaşdırır.

Vəziyyətin kifayət qədər acınacaqlı olduğuna diqqət çəkən Ermənistan mediası yazır ki, ölkə uzun illər yanlış siyasətin əsirinə çevrilmişdir. "4rd.am" saytı yazır ki, bu siyasət bir çox sahələrdə olduğu kimi, iqtisadi müstəvidə də ölkənin tənəzzülünü daha da sürətləndirmişdir: "Postmüharibə dövründə qiymətlər durmadan artır, əhalinin gəlirləri inflyasiyaya adekvat deyil. Mərkəzi Bank hər vəchlə çalışır ki, dövlət büdcəsi dolsun, inflyasiya sabit qalsın. Keçmiş hakimiyyət təmsilçilərinin yarıtmaz siyasəti nəticəsində nə büdcə dolur, nə də qiymət artımı dayanır. Əksinə, Ermənistan iqtisadiyyatı get-gedə daha iflic vəziyyətə düşür".

Bütün bunlarla yanaşı, o da qeyd olunur ki, büdcənin doldurulmasında hakimiyyət bütün əsas yükü kiçik və orta bizneslə məşğul olanların üzərinə qoymağa çalışır. Bu sahədə fəaliyyət göstərənlərin sayı olduqca məhdud olduğuna görə onlar öz bizneslərini dayandırır, başqa əlac olmadıqda isə xarici ölkələrə köçməyə üstünlük verirlər. Beləliklə, ölkə büdcəsinin doldurulmasında ciddi problem yaşanır, eyni zamanda kiçik və orta biznesin sıradan çıxma prosesi daha da sürətlənir. O da əlavə olunur ki, İrəvan hazırda heç nə istehsal etmədən xarici maliyyə qaynaqlarından əldə olunan kreditlər hesabına ayaqda qalmağa çalışır. Ölkənin dövlət borcu 10 milyard dolları ötüb.

Bütün bunların fonunda Ermənistanda gözlənilən defolt isə ölkənin xarici borc öhdəlikləri sahəsində ciddi çətinliklərin meydana çıxmasına rəvac verəcək. Defolt o deməkdir ki, dövlət borc öhdəliklərini vaxtında yerinə yetirə bilmir. Ermənistan onsuz da borc öhdəliklərini çətinliklə yerinə yetirir. Əslində, borc öhdəlikləri növbəti dəfə alınan başqa borclar hesabına yerinə yetirildiyindən ölkənin xaricdən olan iqtisadi asılılığı sürətlə artır. Məsələ bundadır ki, Ermənistanın iqtisadi vəziyyəti uzun illərdir ağırdır və müharibədəki məğlubiyyətdən sonra düzəlməsi də sual altındadır. Digər əsas səbəb isə odur ki, Ermənistanda dövlət adına heç nə qalmayıb, sanballı dövlət müəssisələrinin əksəriyyəti xarici şirkətlərə satılıb. Hazırda onlar da işlək vəziyyətdə deyil.

Beləliklə, gedən proseslər Ermənistanın sürətlə məhvinə doğru yaxınlaşdığını bir daha təsdiqləyir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***



# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** ***qəzetinə***
***abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, **(012) 539-59-33** nömrəli telefona zəng vura bilərsiniz.*

# Stokholmda yaşayan azərbaycanlı jurnalist Ağdamda ermənilərin törətdiyi vəhşiliklərlə tanış olub





İsveçdə yaşayan Ərdəbildən olan jurnalist Stokholmdakı "Azərbaycan səsi" radiosunun rəhbəri, "Tribun" jurnalının baş redaktoru, "Azərbaycan Tribunu" saytının direktoru, Güney Azərbaycan Milli Demokratik Birliyi təşkilatının sözçüsü Əlirza Ərdəbili Ermənistan işğalından azad olunmuş Ağdam şəhərinə səfər edib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşı tərəfindən qonaqlara Ağdamın tarixi, indiki vəziyyəti, burada törədilən erməni faşizmi, eləcə də hazırda Azərbaycan dövləti tərəfindən həyata keçirilən bərpa-quruculuq işləri barədə ətraflı məlumat verilib. Bildirilib ki, Ermənistanın işğalına qədər Ağdam nəinki Qarabağ bölgəsinin, eləcə də respublikanın ən böyük, inkişaf etmiş şəhərlərindən idi. Burada sənaye və kənd təsərrüfatı inkişaf etmişdi. Ermənilər 1993-cü il iyulun 23-də Ağdamı işğal etdikdən sonra Ağdam şəhərində və rayonun kəndlərində evləri, ictimai binaları, məktəbləri, mədəniyyət ocaqlarını, uşaq bağçalarını, xəstəxanaları, istehsalat müəssisələrini talan edib, dağıdıb və yandırıblar. Ağdamda qəbiristanlıqlar, tarixi, mədəni abidələr də erməni vandalizminə məruz qalıb. Vaxtilə Azərbaycanın ən gözəl şəhərlərindən olan Ağdamın yerində indi talan edilərək viranəyə çevrilmiş xarabalıqlar qalıb.

Səfər çərçivəsində Ağdamda Ermənistan tərəfindən işğal dövründə dağıdılmış yaşayış binaları, mülki obyektlər, dini, mədəni və tarixi abidələr, o cümlədən İmarət kompleksi, Ağdam Cümə məscidi, Dram Teatrı binasının qalıqları və yerləyeksan edilmiş Şəhidlər xiyabanı ziyarət olunub.

# *Əlirza ƏRDƏBİLİ:* "Ağdamda gördüklərim bu vəhşiliyə göz yuman bəşəriyyətin üz qarasıdır"

"Ağdamda mədəniyyətin izlərini və ermənilərin vəhşi, vandal, insanlıqdan uzaq əməllərinin şahidi oldum. Gördüklərim həm də bu vəhşiliyə göz yuman bəşəriyyətin üz qarasıdır".



Bunu AZƏRTAC-a Ağdama səfər etmiş İsveçdə yaşayan Ərdəbildən olan jurnalist, Stokholmdakı "Azərbaycan səsi" radiosunun rəhbəri, "Tribun" jurnalının baş redaktoru, "Azərbaycan Tribunu" saytının direktoru, Güney Azərbaycan Milli Demokratik Birliyi təşkilatının sözçüsü Əlirza Ərdəbili deyib.

O bildirib ki, ermənilər 1890-cı ildən başlayaraq Osmanlı və Azərbaycan torpaqları hesabına özlərinə dövlət yaratmaq üçün çalışıb və buna qismən müvəffəq olublar. İrəvan xanlığının milli tərkibini dəyişdirib, cinayətkar planlar əsasında dövlət düzəldiblər.

"Ermənilərin cinayətkar əməlləri haqqında çox yazılmalı, filmlər çəkilməlidir. Mən də bir Azərbaycan ailəsinin üzvü kimi bu istiqamətdə üzərimə düşəni edəcəyəm", - deyə Əlirza Ərdəbili bildirib.

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəhbərliyi
**NAMİQ NƏSRULLA OĞLU NƏSRULLAYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Dövlət Əmək Müfəttişliyi Xidmətinin Bakı şəhər İdarəsinin rəis müavini Elgün Feyzullayevə atası
**BƏHRAM FEYZULLAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi sabiq iqtisadiyyat naziri
**NAMİQ NƏSRULLAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Zakir İbrahimov Nəsrullayevlər ailəsinə əzizləri
**NAMİQ NƏSRULLAYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Zakir İbrahimov Yaqub Hüseynova anası
**ƏDALƏT KƏRİMOVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Azərbaycanın sabiq iqtisadiyyat naziri
**NAMİQ NƏSRULLAYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyi və kollektivi "Azəryolelmitədqiqatlayihə" İnstitutunun baş mühəndisi Dilqəm Qəniyevə atası
**SEYFƏDDİN MÜƏLLİMİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Auditorlar Palatasının sədri Vahid Novruzov Hesablama Palatasının sabiq sədri
**NAMİQ NƏSRULLAYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" Nəşriyyatı, IV mərtəbə*




www.azerbaijan-news.az
contact@azerbaijan-news.az
az.reklam@mail.ru

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4870**
**Sifariş 130**

**Qiyməti 40 qəpik**